İSMAYIL HACIYEV

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ-SİYASİ HƏYATI, SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI

(1991-2011-ci illər)

İSMAYIL HACIYEV

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ-SİYASİ HƏYATI, SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI

(1991-2011-ci illər)

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Naxçıvan – 2011

Elmi redaktor:
tarix üzrə fəlsəfə doktoru, dos. **Elman Cəfərli**

Rəyçilər:
t.e.d., professor **Hacıfəxrəddin Səfərli**
t.e.d., professor **Oktay Sultanov**
t.e.d. **Həmzə Cəfərov**

Monoqrafiyada 1991-2011-ci illərdə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatından, ictimai-siyasi proseslərdən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyətindən, Naxçıvanın qorunub saxlanılmasında ulu öndərin tarixi xidmətlərindən, Heydər Əliyev siyasi kursunun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilməsindən bəhs edilir.

Əsərdə son on beş ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafında baş verən əsaslı dəyişikliklər, əldə olunan uğurlar, bu sahədə Ali Məclis Sədrinin fəaliyyəti zəngin materiallar əsasında təhlil edilir.

Hacıyev İsmayıl. – Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). – *Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi. 272 səh.*

4700000000
053-2011

© "Əcəmi" 2011.

Azərbaycan xalqının ümummilli lideri,
müstəqil Azərbaycan Respublikasının memarı
və qurucusu, görkəmli dövlət xadimi
Heydər Əlirza oğlu Əliyevin
əziz xatirəsinə ithaf olunur





Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuş, təşəbbüskar olmuşdur. Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI BARƏDƏ FİKİRLƏRİNDƏN

Biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik.

* * * * *

Mən buraya gələndə hər dəfə görürəm... Naxçıvanda nə var idi? Naxçıvan xanlarının tikdikləri binalardan başqa heç bir bina yox idi. Sonrakı illərdə az-çox tikildi. Ancaq məni düzgün başa düşün. Fəxr edirəm ki, Azərbaycanın hər yerində olduğu kimi, mən burada da öz əsərlərimi görürəm. Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir... Sonrakı illərdə burada daha cəsarətli addımlar atılmışdır.

* * * * *

Bu son illərdə Naxçıvanın rəhbərliyi və xüsusən Vasif Talıbovun rəhbərliyi nəticəsində çox işlər görülübdür. Naxçıvanın siması gündən-günə dəyişir. Bütün bu işlərin aparılmasında təşkilati və rəhbər rol oynayan Vasif Talıbovun işini xüsusilə yüksək qiymətləndirirəm.

* * * * *

İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin.

* * * * *

Son illər Naxçıvanın həyatında böyük dəyişikliklər əmələ gəlibdir. Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir.

* * * * *

Keçmişdə olduğu kimi, bu gün də Naxçıvan Azərbaycanın

əsas ərazisindən təcrid edilmiş vəziyyətdədir. Nəqliyyat çətin, təchizat işləri çətin... Belə bir vəziyyətdə Naxçıvanda son illərdə quruculuq işləri gedir – məktəblər tikilir, xəstəxanalar tikilir, yaşayış evləri tikilir. Bunlar bir daha onu göstərir ki, naxçıvanlılar ən çətin şəraitdə ruhdan düşmürlər, öz işlərini irəli aparırlar, qururlar, yaradırlar.

* * * * *

Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq o, sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər.

* * * * *

Mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Nə üçün? Çünki Naxçıvanın vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı ermənilərin daimi ərazi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımıza qoyur. Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyəti, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır. Biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin. Həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar.

* * * * *

Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq.

* * * * *

Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri, siyasi xadimlər olmuşdur. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur.

* * * * *

Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Naxçıvanın

statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin... böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir.

* * * * *

İndi Naxçıvanda məktəblər tikilir. Azərbaycanın çox yerlərində məktəblər tikilmir, amma Naxçıvanda tikilir. Muxtar respublikada xəstəxanalar tikilir. Yəni Azərbaycanın başqa bölgələrinə nisbətən Naxçıvanda ən çətin şəraitdə yaşayan insanlar quruculuq işləri ilə məşğul olurlar, zəhmət çəkirlər, fədakarlıq, vətənpərvərlik göstərirlər.

* * * * *

Naxçıvanda təhsilə, elmə, mədəniyyətə həmişə qayğı göstərilir, yüksək münasibət göstərilir və naxçıvanlılar da nəyə qadir olduqlarını dünyaya həmişə nümayiş etdirirlər.

* * * * *

...Naxçıvanlılar həmişə milli şüurla yaşamışlar. Millilik, azərbaycançılıq, milli şüur Azərbaycanda həmişə yüksək olmuşdur... Naxçıvanlılarda milli qürur, milli şüur, milli hisslər, milli mənlik bir tərəfdən bunları bu sərt iqlimdə daim çalışmağa, daim özünü yaşatmağa, eyni zamanda döyüşkən olmağa sövq edibdir. Naxçıvanlılar cəsarətlidirlər, döyüşkəndirlər.

* * * * *

Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir. ...Ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar, - burada yaşıllıq azdır, - bu diyara xüsusi gözəllik verir. Ancaq bu gözəllik... qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi, insanlar da məğrurdurlar.

* * * * *

Mənim ağır dövrümdə Moskvadan qurtara bildim. Bakıda mənə yer vermədilər, nəinki yer vermədilər, məni oradan inzibati surətdə çıxardılar. Naxçıvana gəldim. Naxçıvan məni öz qoynuna aldı, qorudu, saxladı, mən də onları qorudum, mən də onları saxladım.

* * * * *

Naxçıvan daxili imkanlarından və ehtiyat mənbələrindən sə-

mərəli istifadə edir, sosial-iqtisadi müstəvidə yüksəliş tempini daha da sürətləndirmək məqsədilə öz gücünə, qüvvəsinə arxalanaraq mühüm və əhəmiyyətli addımlar atır.

* * * * *

Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çox-əsirlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir.

* * * * *

Naxçıvanda sağlam qüvvələr müstəqillik, azadlıq uğrunda mübarizə apardılar. Naxçıvanın müstəqilliyini də dünyaya nümayiş etdirdilər. Naxçıvanda baş vermiş siyasi hadisələr Azərbaycanın müstəqilliyi üçün yol açdı. Amma eyni zamanda Naxçıvandan olan bəzi adamlar Naxçıvanı dağıtmağa, parçalamağa, bərbad etməyə də çalışdılar. O da həqiqətdir, bu da həqiqətdir, bunlar hamısı bizim tariximizdir. Ancaq ən xoşbəxt cəhət ondan ibarətdir ki, biz bunların hamısının öhdəsindən gəldik, bütün bu çətinliklərdən keçdik. Naxçıvan yaşadı, blokadaya, şaxtalı aylara, günlərə dözdü, elektrik enerjisindən, qazdan olan məhdudiyyətlərə, çətinliklərə dözdü. Naxçıvan xalqı yaşadı və artıq bugünkü sabitlik gününə gəlib çıxdı.

* * * * *

Son illər Naxçıvanın həyatında böyük dəyişikliklər əmələ gəlibdir. Baxmayaraq elektrik enerjisi çatışmır, qaz yoxdur, Bakı ilə əlaqələr məhduddur; Naxçıvanlıların fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesi gedir.

* * * * *

...Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur.

* * * * *

Bütün çətinliklərə baxmayaraq, Naxçıvanda inkişaf Azərbaycanın başqa bölgələrindən heç də aşağı səviyyədə deyil, bəlkə də yu-

xarıdır. Bu da çox sevindiricidir. Şəhər çox abadlaşıb, gözəlləşibdir... Sevinirəm ki, bundan sonra da çiçəklənəcəkdir.

* * * * *

Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur.

* * * * *

Blokada şəraitinə baxmayaraq, son dövrdə Naxçıvanda sosial-iqtisadi inkişaf vardır. Muxtar Respublika, onun iqtisadiyyatı inkişaf edir, quruculuq işləri gedir. Naxçıvan şəhəri abadlaşıb, onun siması çox dəyişibdir. Naxçıvanın əskidən, keçmişdən çox gözəl, özünəməxsus siması var. Onun memarlıq abidələri, ümumiyyətlə, şəhər quruluşu var. Əgər insanlar onları öyrənə bilsələr, görərlər ki, Naxçıvanda hələ qədim zamanlardan şəhərin planlaşdırılması, küçələrin, evlərin, məhəllələrin yerələşdirilməsi xaotik olmayıb, çox əsaslı olubdur.

* * * * *

Mən 1993-cü ilədək sizinlə bərabər Naxçıvanda yaşadığım günləri heç vaxt unutmuram və heç vaxt da unutmayacağam. Mənim həyatımın müxtəlif səhifələri, çox şanlı-şöhrətli, eyni zamanda çox əzab-əziyyətli səhifələri var. Bunların hər biri mənim üçün əzizdir. Ancaq 1990-1993-cü illərdə sizinlə bərabər blokada şəraitində, ağır vəziyyətdə, çətin vəziyyətdə yaşadığım günlər mənim üçün ən əziz günlərdir və onları heç vaxt unutmayacağam.

* * * * *

Naxçıvan Azərbaycan tarixində çox böyük yer tutur. Atabəylər dövlətinin paytaxtı olubdur. Elə bunun özü Naxçıvanın nə qədər böyük tarixi əhəmiyyətə malik olduğunu göstərir... Möminə xatın türbəsi 800 ildir ki, bütün dünya səyyahlarını heyran edir. Yusif ibn Küseyr, Qarabağlar türbəsi, Əlincə qalası və bir çox belə abidələr – bunlar hamısı, Naxçıvanın qədim Azərbaycan torpağı və ən qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdıqlarını göstərir. Biz bu tariximizi nə qədər yaxşı təhlil edib dünyaya nümayiş etdirə bilsək, xalqımızın qədim mədəniyyətini bir o qədər də göstərəcəyik.

* * * * *

Mən zamanın hökmünü nəzərə almaya bilməzdim. Mən öz

prinsipimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə çətin vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqıma tapşırmışam. Və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm.

* * * * *

Naxçıvanlılar, Naxçıvan əhalisi azadlığa, müstəqilliyə, sərbəstliyə daha da çox can atanlardan olublar. Ona görə də Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması, - baxmayaraq ki, o vaxt artıq Naxçıvanda müstəqillik əldə edilmişdi, - bütün Azərbaycan xalqı kimi, naxçıvanlılar üçün də tarixi hadisədir və çox qiymətlidir.





Blokada şəraitində yaşayan Naxçıvan böyük addımlarla irəliləyir. Burada aparılan abadlıq, quruculuq işləri məni çox sevindirir. Yeni binalar, müəssisələr, elm ocaqları, səhiyyə ocaqları, idman qurğuları yaradılır, demək olar ki, həyatımızın hər bir sahəsi Naxçıvanda inkişaf edir. Burada Naxçıvan rəhbərliyinin xüsusi xidmətləri vardır.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASI HAQQINDA

1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi... Məhz o sessiyada Naxçıvan MSSR-in adı dəyişdirildi, Azərbaycanın üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi... O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi.

* * * * *

Naxçıvan Heydər Əliyevin həyatında xüsusi yer tutmuşdur. Naxçıvan Heydər Əliyevin vətənidir, o, burada doğulmuş, oxumuşdur və bütün dövrlərdə daim Naxçıvana böyük diqqətlə yanaşırdı. 1970-80-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Naxçıvanın sosial-iqtisadi inkişafına böyük töhfələr vermişdir. 1990-1993-cü illərdə ağır, çətin şəraitdə naxçıvanlılarla birlikdə blokada şəraitində muxtar respublikanın inkişafına, burada əmin-amanlığın bərqərar olunmasına, təhlükəsizliyin təmin edilməsinə böyük xidmətlər göstərmişdir.

1993-2003-cü illərdə müstəqil Azərbaycanın Prezidenti kimi Heydər Əliyev həmişə Naxçıvanın qayğıları ilə yaşamışdır. Dəfələrlə respublikaya gəlmiş, öz tövsiyələrini vermiş və Naxçıvanın inkişafı üçün çox önəmli qərarlar qəbul etmişdir.

* * * * *

Naxçıvan o yerdir, o şəhərdir, o respublikadır ki, Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd buradadır. Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır.

* * * * *

Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cə-

rəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir.

* * * * *

Mən çox məmnunam ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, Vasif Talıbov Heydər Əliyev siyasətini burada uğurla icra edir, onu davam etdirir və Naxçıvanın möhkəmləndirilməsinə öz töhfəsini verir.

* * * * *

Uzun illər ərzində Naxçıvan blokada şəraitində yaşayır və bu blokada bu gün də davam edir. Amma buna baxmayaraq Naxçıvan yaşayır, Naxçıvan inkişaf edir, Naxçıvanda böyük quruculuq işləri aparılır və Naxçıvanın uğurlu inkişafı ölkəmizin gücünü göstərir.

* * * * *

Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla haqlı olaraq fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnəttarlığımı bildirmək istəyirəm.

* * * * *

Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır.

* * * * *

Siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi

saxlayacaqsınız. Bunu – abadlıq-quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir.

* * * * *

Xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, burada anadan olmuşdu, bura onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl bilirdi.

* * * * *

1990-cı illərin əvvəllərində Bakıda rəhbərlikdə olan qüvvələrin antinaxçıvan siyasətini biz yaxşı xatırlayırıq. Onlar nəinki Naxçıvana kömək etmir, hətta Naxçıvanı da işğala məruz qoymağa hazır idilər. Nəyə görə?! Çünki Naxçıvana o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik edirdi... Bir tərəfdən, ermənilər, erməni qəsbkarları Naxçıvana hücum edirdilər. Digər tərəfdən, Azərbaycan rəhbərliyində oturan xainlər, milli satqınlar istəyirdilər ki, Naxçıvanı Azərbaycandan tamamilə ayırsınlar. Amma naxçıvanlılar öz liderləri ətrafında, Heydər Əliyevin ətrafında birləşmişdilər. Naxçıvanlılar ermənilərə tutarlı cavab verdilər, onları yerində oturtdular, öz torpaqlarını müdafiə etdilər.

* * * * *

Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Burada gedən quruculuq-abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri-bütün bunlar məni sevindirir. Bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verirlər.

* * * * *

Naxçıvanın uğurlu inkişafı məni xüsusilə sevindirir. Muxtar respublikanın rayonlarının abadlaşması, yeni-yeni binaların tikilməsi, iş yerlərinin açılması Naxçıvanı möhkəmləndirir. Naxçıvanın yaşaması üçün bütün infrastruktur layihələri həyata keçirilir... Mən

çox şadam ki, Naxçıvanda və muxtar respublikanın bütün rayonlarında uğurlu inkişaf gedir.

* * * * *

Naxçıvan hər bir azərbaycanlı üçün əziz diyardır. Azərbaycanın qədim torpağıdır. Bu diyar blokada şəraitində Azərbaycandan ayrı düşmüş vəziyyətdə yaşayır. Buna baxmayaraq, naxçıvanlılar bütün dövrlərdə olduğu kimi, indi də Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edirlər.

* * * * *

Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir. Hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər.

* * * * *

Mən, doğrudan da, çox şadam ki, bu gün yenidən Naxçıvandayam, sizinlə birlikdəyəm. Naxçıvan hər bir azərbaycanlı üçün çox əziz, doğma yerdir. Mənim üçün çox əziz, doğma yerdir. Mənim atamın vətənidir, mənim vətənimdir.

* * * * *

Naxçıvan Azərbaycanın qədim torpağıdır, Azərbaycanın strateji yeridir və hamımız çalışmalıyıq ki, Naxçıvanı hərtərəfli – həm iqtisadi, həm hərbi cəhətdən, həm də digər cəhətlərdən gücləndirək.

* * * * *

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, hərtərəfli inkişafında Naxçıvanın çox böyük rolu vardır.

* * * * *

...Naxçıvan çox dinamik şəkildə inkişaf edir, muxtar respublikada iqtisadi artım müşahidə olunur. Geniş quruculuq, abadlıq işləri aparılır, sosial infrastruktur yeniləşir, muxtar respublikanın rayonlarında da böyük işlər görülür.

* * * * *

1990-cı illərdə Ermənistanın işğalçılıq siyasəti Naxçıvana da istiqamətləndirilmişdi. Ermənilərin məqsədləri Naxçıvanı da işğal

etmək idi. Əgər o vaxt naxçıvanlılar ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə burada müqavimət göstərməsəydilər, o müdafiəni təşkil etməsəydilər, düşmənə çox sanballı və çox möhkəm zərbə vurmasaydılar, Naxçıvanın taleyi çox təhlükəli ola bilərdi. ...Naxçıvanlılar Heydər Əliyevi qorudular. O isə öz növbəsində, Naxçıvanı qorudu.

* * * * *

Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük. Naxçıvan qədim Azərbaycan diyarıdır, qədim tarixə, mədəniyyətə malik olan diyardır, eyni zamanda, müasir şəhərdir, müasir respublikadır. Mən əminəm ki, gələcəkdə Naxçıvan daha da gözəlləşəcək, inkişaf edəcək və bütün işlər burada həmişə olduğu kimi, yüksək səviyyədə təşkil olunacaqdır.

* * * * *

Naxçıvan strateji ərazidə yerləşir. Naxçıvanın çox böyük siyasi və strateji əhəmiyyəti vardır. Azərbaycanın müstəqilliyinin əldə edilməsində Naxçıvanın və naxçıvanlıların çox böyük əməyi olmuşdur.

902
112

Ulu öndər Heydər Əliyevin vətəni, bizim hamımızın doğma diyarı olan Naxçıvan möhkəmlənməli, güclənməlidir. Bu, bizim borcumuzdur, vəzifəmizdir.

* * * * *

Naxçıvanın möhkəmlənməsi, güclənməsi bizim üçün çox önəmlidir. Naxçıvan Azərbaycanın strateji yeridir, qədim Azərbaycan torpağıdır.

* * * * *

Bu gün Naxçıvan uğurla və sürətlə inkişaf edən diyardır, respublikadır. Bütün şəhərlər abadlaşır, gözəlləşir, yeni mehmanxanalar, sənaye müəssisələri yaradılır. Enerji təhlükəsizliyi əsas məsələdir və bu gün bu, Naxçıvanda öz həllini tapır. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır.

* * * * *

Blokada şəraitində yaşayan Naxçıvan böyük addımlarla irə-

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

liləyir. Burada aparılan abadlıq, quruculuq işləri məni çox sevindirir. Yeni binalar, müəssisələr, elm ocaqları, səhiyyə ocaqları, idman qurğuları yaradılır, demək olar ki, həyatımızın hər bir sahəsi Naxçıvanda inkişaf edir. Burada Naxçıvan rəhbərliyinin xüsusi xidmətləri vardır. Mən buna görə onlara minnətdaram.

* * * * *

...Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı...





Keçilən yolun təhlili, ondan çıxarılan nəticəni və ötən hər ili göz önünə gətirəndə əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur və bu yol gələcəkdə daha böyük nəticələr əldə etməyimizə imkan yaradacaqdır.

Vasif TALIBOV,
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞLARINDAN

Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar.

* * * * *

1995-ci il dekabrın 16-da keçirilən Ali Məclisin birinci sessiyasında bildirmişik ki, bizim bir platformamız, Naxçıvan Muxtar Respublikasında inkişafın bir yolu var: - bu, möhtərəm Heydər Əliyevin yoludur. Ötən dövrlərdə bu yol Azərbaycanı, o cümlədən Naxçıvan Muxtar Respublikasını əsl inkişafa qovuşdurdu.

* * * * *

Naxçıvan təkcə tarixin və əcdadlarımızın deyil, həm də ulu öndərin bizə qiymətli əmanətidir. Muxtar respublikanın etibarlı müdafiəsi yalnız hərbi-siyasi vəzifə deyil, həm də onun sosial-iqtisadi qüdrətinin artırılması, adamlarının həyat şəraitinin yaxşılaşdırılmasıdır.

* * * * *

Hər bir insanın özü və ailəsinin firavanlığı üçün çəkdiyi əmək son nəticədə onun yaşadığı kəndin, qəsəbənin, şəhərin-bütövlükdə muxtar respublikamızın, Azərbaycanımızın inkişafına həsr olunmuş əməkdir. Bu əməyin yaradıcı gücünü biz hər il muxtar respublikamızın, Azərbaycanımızın inkişafında hiss edirik. Bu əməyin yaradıcı gücünü biz hər il muxtar respublikamızın dəyişən, yeniləşən simasında görürük.

* * * * *

Naxçıvan Muxtar Respublikasının inkişafı ölkə rəhbərinin tükənməz qayğısı nəticəsində baş vermişdir. Bu dövrdə ölkə Prezidentinin Naxçıvan Muxtar Respublikasına etdiyi səfərlər zamanı çox mühüm əhəmiyyətli obyektlərin istifadəyə verilməsi, uzun fasilələrdən sonra muxtar respublikaya təbii qazın nəqlinin bərpa olunması muxtar respublikanın inkişafına göstərilən dövlət qayğısının ifadəsidir.

* * * * *

Tarix öz-özünə yaranmır. O, qüdrətli şəxsiyyətlərin, xalqların və millətlərin birgə yaradıcılığının məhsuludur. Hər bir xalqın tarixi

onun dünya birliyində özünəməxsus yer tutması üçün milli kimlik pasportudur. Tarix mahiyyət etibarı ilə beynəlmiləl olduğu qədər də millidir. Milli olmayan tarix beynəlmiləl ola bilməz

* * * * *

Ümummilli liderimizin Azərbaycan tarixşünaslığına verdiyi mühüm töhfələrdən biri regionların tarixinin öyrənilməsidir. Çünki bu olmadan, bütövlükdə Azərbaycan tarixindən danışmaq mümkün deyil. Məhz belə bir yanaşmanın, konseptual baxışın nəticəsidir ki, Naxçıvan tarixinin öyrənilməsi sahəsində də əhəmiyyətli dönüşə nail olunmuşdur.

* * * * *

Naxçıvan qədim tarixə malikdir. Milli sərvətlərimiz olan abidələrlə zəngin bir diyardır. Tale bu torpaqdan öz səxavətini əsirgəməyib. Bu yurdun ən böyük sərvəti isə şübhəsiz ki, onun dünyaya bəxş etdiyi böyük tarixi şəxsiyyət, bəşəriyyətin ikinci atası sayılan həzrəti Nuh peyğəmbərin də vətəni olmasıdır.

* * * * *

Azərbaycanda Eneolit, Kur-Araz və boyalı qablar mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu bir daha sübut edir ki, minilliklər boyu Naxçıvan ərazisində ardıcıl və intensiv məskunlaşmış insanların iqtisadi, ictimai və mədəni həyatında ciddi dəyişikliklər baş vermiş, iri tayfa ittifaqları meydana gəlmiş, Naxçıvan şəhəri yaranmışdır.

* * * * *

Azərbaycan və ona bağlı olan Naxçıvan Muxtar Respublikası ən qədim mədəniyyətin daşıyıcıları olan tarixi abidələri ilə məhşurdur. Belə abidələrdən biri də xalqımızın tarixən bu torpağa məxsusluğunun daş pasportu olan Gəmiqaya tarixi-etnoqrafik abidələr kompleksidir.

* * * * *

...Bu gün Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan çox sürətlə inkişaf edir. Bu inkişaf özünü bütün sahələrdə – həm iqtisadi, həm sosial məsələlərin həllində, həm də müdafiə potensialının gücləndirilməsində, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsində büruzə verir.

* * * * *

Muxtar respublikada «Yeniləşmə ili» kimi tarixə düşən 2010-cu

il arxada qaldı. «Yeniləşmə ili»ndə qarşıya məqsəd qoymuşduq ki, istehsalat-təsərrüfat həyatına, sosial-iqtisadi proseslərə yeni yanaşma və baxış təmin olunsun; böyüklüyündən-kiçikliyindən asılı olmayaraq hər bir sahədə məsuliyyət artırılsın, şüurlu münasibət təmin edilsin. Əldə olunan nailiyyətlər deməyə əsas verir ki, bir sıra əsas göstəricilər üzrə irəli sürülən vəzifələr icra olunmuş, quruculuq tədbirləri daha da dərinləşmiş, inkişafın artan dinamikası saxlanılmış, insanların həyat səviyyəsinin daha da yaxşılaşmasına diqqət artırılmışdır.

* * * * *

Naxçıvan Muxtar Respublikasının ərazisi insanların ən qədim yaşayış məskənlərindən olduğundan bu ərazidə daş dövründən başlamış yüzlərlə abidə mövcud olmuşdur. Sovetlər Birliyi dövründə Azərbaycanın, o cümlədən Naxçıvanın tarixi lazımi səviyyədə öyrənilməmiş, üzə çıxarılmamış və tədqiq olunmamışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra həyatımızın bütün sahələrinə diqqət yetirildiyi kimi, tarixi abidələrimizə də diqqət və qayğı artırılmışdır. Abidələrlə zəngin sivilizasiya məkanlarından olan Naxçıvan diyarında mədəniyyətə, tarixi abidələrə, onların qorunması və bərpasına xüsusi əhəmiyyət verilir və tədqiq edilir.

* * * * *

Yaradılan yaxşı iş şəraitindən düzgün istifadə edilməli, səhiyyə xidməti işi yerinə yetirilməlidir. Səhiyyə xidməti gigiyena qaydalarına əməl edilməsindən başlanır. Bundan sonra isə xəstəliklərə qarşı mübarizə aparılmalıdır. Həkim ambulatoriyalarının işi məhz bu istiqamətdə qurulmalıdır.

* * * * *

Biz ulu öndərin vəsiyyətlərini əsas tutaraq milli prioritetlərimizi qabaqcıl dünya təcrübəsi ilə qovuşdurmağa nail oluruq. Qloballaşan dünyada milli maraqların, etnik özünəməxsusluğun qorunması ciddi məsələlərdən biridir. Hər bir xalq bəşəri inkişaf dəyərlərini mənimsəməklə yanaşı, öz maraqlarını da qorumağa çalışır. Bu gün biz Naxçıvanda ən müasir texnologiyaya əsaslanan istehsalat yaradırıqsa, mədəni sahədə və xidmət sferasında dünya standartlarına çatırıqsa, bu bizi özgələşdirməməli, milli əsasda zənginləşdirməlidir.

* * * * *

Uşaq musiqi məktəblərinin, məktəbdənkənar müəssisələrin

istifadəyə verilməsində məqsəd ondan ibarətdir ki, gənclərimizin asudə vaxtları düzgün təşkil olunsun. Bizim milli musiqimiz öyrədilsin, yaddan çıxmasın, nəsildən-nəslə ötürülsün. Dünyaya inteqrasiya edən Azərbaycanda gənclər dünya musiqisinə, dünya mədəniyyətinə yiyələnsinlər.

* * * * *

Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-iqtisadi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin dünəninin, bu günün, sabahının və gələcəyinin yoludur. Bu yolu uğurla davam etdirən ölkəmizin Prezidenti cənab İlham Əliyevin dediyi kimi, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir.

GİRİŞ

Naxçıvan çoxəsirlik tarixə, dövlətçilik ənənələrinə və zəngin maddi-mədəniyyət abidələrinə malik ən qədim Azərbaycan torpağıdır. «Ərazicə kiçik, məzmunca böyük» olan bu diyar Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan tarixi-dünya tarixinin müqəddəslik və paklıq rəmzidir. Bu diyar yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoymuş ən qədim mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Amerikadakı Norvest Universitetinin professoru Marti Martinçito Fillips Naxçıvanla tanışlıqdan sonra demişdir: «Allah yurdu Naxçıvan dünyada yerlə göyün qovuşduğu bir məkandır. Bu yurdda yaşayan insanların fəaliyyəti birbaşa haqq-ədalət və müqəddəslik, paklıq üzərində köklənmişdir. İnanmırıq ki, Allahın yerə yaxınlığı, onun insanlara bağlılığı hardasa Naxçıvandakı qədər yaxın və dərin olsun».

Tarixin bir çox dövrlərində Azərbaycanın coğrafi cəhətdən mərkəzində yerləşən Naxçıvan, XX əsrin 90-cı illərin əvvəllərində sanki «taleyin ümidinə buraxılmış bir adanı» xatırladırdı. Məkrli düşmənlərimizin Zəngəzuru ələ keçirmələrindən sonra Naxçıvan Azərbaycandan ərazi cəhətdən ayrı düşmüşdür. Lakin bu yurdun igid və qəhrəman övladları diyarı heç vaxt Azərbaycandan ayrı təsəvvür etməmişlər. XX əsrin əvvəllərində olduğu kimi, həmin əsrin 80-ci illərində də Naxçıvana yiyələnmək istəyən erməni millətçilərinin arzuları gözlərində qalmışdır. Naxçıvana gələn bütün komunikasiya xətlərini kəsən, diyarı blokada vəziyyətinə salan məkrli düşmənlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ağıllı və düşünülmüş siyasəti, insanlarımızın fədakarlığı sayəsində Naxçıvanı xilas etmiş, düşmən əlinə keçməsinə imkan verməmişlər. Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Naxçıvanı gözlənilən bəlalardan xilas etdi. «Heydər Əliyev – xalq birliyi» burada özünün təsdiqini bir daha tapdı. Ulu öndərin rəhbərliyi ilə milli dövlətçiliyimizin bərpası istiqamətində uğurlu addımlar atıldı, bir sıra tarixi qərarlar qəbul edildi, Milli Ordu quruculuğuna başlanıldı, qonşu ölkələrlə əlaqələr genişləndirildi və s.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan da xilas edildi. Ölkə siyasi böhrandan, xaos və qarşıdurmadan qurtardı.

90-cı illərin ortalarında Heydər Əliyev məktəbinin layiqli nümayəndəsi Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. V.Talıbovun problemlərə bələdliyi, ardıcıl və yorulmaz fəaliyyəti, məqsədyönlü və fədakar işinin nəticəsində Naxçıvanın uğurları ilbəil artdı. Naxçıvan Muxtar Respublikasında həyatın bütün sahələrində müvəffəqiyyətlər qazanıldı, diyarın hərtərəfli inkişafı təmin edildi.

Təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulan yeni həyat quruculuğu xətti ötən illər ərzində uğurla davam etdirildi. Heydər Əliyev siyasi kursunu dövrün tələblərinə uyğun və yaradıcılıqla davam etdirən Ölkə Prezidenti İlham Əliyev regionların sosial-iqtisadi inkişafında Naxçıvanın xüsusi yeri olduğunu dönədönə qeyd etmişdir.

Artıq muxtar respublikanın son on beş ildəki inkişafı «Naxçıvan möcüzəsi» kimi xarakterizə olunur. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı sosial-iqtisadi və mədəni inkişafla paralel aparılmış və ən yüksək nailiyyətlər qazanılmışdır. Regionların sosial-iqtisadi inkişafı çərçivəsində bölgədə böyük infrastruktur layihələri həyata keçirilmiş, Naxçıvan isə ölkəmizin mühüm ictimai, siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdir. Bu nailiyyətlər ümummilli lider Heydər Əliyev və ölkə Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir.

BİRİNCİ FƏSİL

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ-SİYASİ HƏYATI

1.1. Dağlıq Qarabağ hadisəsi və bunun Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyətə təsiri

XX əsrin 80-ci illərinin sonunda SSRİ-də yaranmış şəraitdən istifadə edən erməni millətçiləri DQMV-ni Ermənistana birləşdirmək üçün qeyri-qanuni aksiyalara başladılar. 1989-cu il fevralın 20-də Dağlıq Qarabağ Vilayət Sovetinin növbədənkənar sessiyasında «DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında» məsələ müzakirə olundu və qərar qəbul edildi [22,s.11]. SSRİ rəhbərliyinin ikili siyasəti hadisələri qızışdırdı, ermənilər bundan istifadə edərək daha da fəallaşdı. Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda və respublikanın bir sıra şəhərlərində etiraz mitinqləri keçirildi.

Qarabağ münaqişəsi, Ermənistandan vəhşi üsullarla qovulan azərbaycanlıların Naxçıvana axını, Naxçıvanın sərhəd kəndlərinə silahlı basqınlar əhalini fəal mübarizəyə qaldırdı. «Daşnak təcavüzünün gücləndiyi bir şəraitdə satqın ölkə rəhbərliyinin cinayətkarcasına fəaliyyətsizliyi» [25,s.181] minlərlə naxçıvanlını küçələrə, meydanlara çıxardı. Onlar Sovet imperiyasına, onun muxtar respublikadakı sosial dayaqlarına qarşı da mübarizə aparırdı. Muxtar respublikanın vilayət, şəhər və rayon partiya komitələrinə qarşı etiraz mitinqləri və yürüşləri keçirildi.

1988-ci il noyabrın 22-də Naxçıvan şəhərinin mərkəzi meydanında 30 mindən çox adam toplandı. Mitinqçilər Vilayət partiya komitəsinin birinci katibinin mitinqə gəlməsini tələb etdilər. Birinci katib mitinqə gəldi. Mitinqçilər onu imperiya və onun nökərləri tərəfindən təqib olunan Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin portretini yuxarı qaldırmağa məcbur etdilər. Rüsvay olunan katib

mitinqi dağıtmaq məqsədilə adamların üzərinə tank yeritdi. Nəticədə yaralananlar oldu. Naxçıvan camaatı tankları yandırmaqla bərabər, Vilayət partiya komitəsinin binasına hücum etdilər [1, s.157]. Bunları bəhanə edən hökumət noyabrın 24-də Naxçıvan şəhərində xüsusi vəziyyət və komendant saatı tətbiq etdi [22,s.12]. 22 noyabr 1988-ci il tarixli mitinqdə Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı da qaldırıldı.

Ermənilər mütəmadi olaraq Naxçıvanın sərhəd kəndlərinə silahlı hücumlar edir, Naxçıvana gələn qatarların yolunu kəsir, ona zərər yetirir və mane olurdular. 1989-cu il iyulun 5-də Naxçıvan şəhərində, Ordubad və Culfa rayonlarında çoxminlik mitinqlər keçirilir, respublika hökumətindən Naxçıvanın müdafiəsi üçün konkret tədbirlər görmək tələb olunur. İyulun 18-də Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın təhlükəsizliyini təmin etmək məqsədilə Naxçıvan MSSR Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etdi.

1989-cu ilin noyabr-dekabr aylarında Naxçıvanda «sərhəd hərəkatı» genişləndi, İran İslam Respublikası ilə Azərbaycan SSR-nin Naxçıvan MSSR arasındakı sərhəd xəttinin götürülməsi ilə bağlı tədbirlər keçirildi.

1990-cı ilin əvvəlindən başlayaraq erməni yaraqlılarının Naxçıvanın sərhəd kəndlərinə basqınları, dinc sakinlərin öldürülməsi faktları artdı. Martın 26-27-də Şahbuzun Şada kəndinə ermənilər silahlı basqın etdi, atışma zamanı 6 nəfər yaralandı. Martın 28-də Sədərək kəndinin atəşə tutulması nəticəsində 1 nəfər həlak oldu, 3 nəfər yaralandı. Bir gün sonra ermənilər Babək rayonunun Gərməçataq kəndində bir nəfəri qətlə yetirdi. Bütün bunlar Naxçıvanda siyasi vəziyyəti gərginləşdirdi, bununla belə əhalinin ermənilərə qarşı mübarizəsi gücləndi.

1.2. «Sərhəd hərəkatı»

Azərbaycanın azadlıq hərəkatı tarixinə daxil olan «Sərhəd hərəkatı» məhz Naxçıvanda başlandı. 1988-ci ilin noyabr ayında Naxçıvanda ümumrespublika mitinqində əhalinin tələbi kimi irəli sürüldü. Həmin mitinqdə Cənubi Azərbaycanda, İran İslam Res-

publikasında yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması məsələsi qoyuldu. 1988-1989-cu illərdə Naxçıvanda, Ordubadda, Culfada, Şərurda, Sədərəkdə, hətta kəndlərdə keçirilən mitinqlərdə də Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında əlaqələrdən geniş söhbət getsə də, əməli işə keçilməsi 1989-cu ilin noyabr ayında qərarlaşdırıldı. Rəsmi dairələrə, sərhəd qoşunlarının rəhbərliyinə müxtəlif vasitələrlə, xüsusən çoxminli mitinqlərdə tikanlı məftillərin yığışdırılması tələbləri verilməklə yanaşı, hər dəfə də göstərilirdi ki, əks halda xalq öz gücü ilə bunu həyata keçirəcəkdir. Muxtar respublikanın 17 min hektara yaxın münbit torpaq sahəsi sərhəddə tikanlı məftillər arasında qalmışdı, onlardan istifadə olunmurdu.

Vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər. «Sərhəd hərəkatı» isə genişlənirdi [19,s.216].

1989-cu ilin dekabr ayında keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyasında Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyeva Naxçıvan əhalisinin sərhəd səddi ilə bağlı tələblərini sessiyaya çatdırdı və xahiş etdi ki, bu məsələ rəsmi yolla təcili həll edilsin [39, 1992, 2 yanvar].

Dekabr ayının 4-də və 12-də bütün sərhəd boyu məşəllər qaldırmaqla və tonqallar yandırmaqla aksiyalar keçirildi. Bu zaman Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar qalanmışdı [7, 1991, 28 may]. Dekabrın 12-də keçirilən sərhəd aksiyasından sonra qəti qərarlaşdırıldı ki, Cənubi Azərbaycanla əlaqələrin yaradılması məqsədilə Araz kənarındakı torpaqların əhalinin istifadəsinə verilməsi üçün tikanlı məftillər sökülsün [39, 1991, 31 dekabr].

Aksiya iştirakçıları hökumət qarşısında 4 tələb irəli sürdü: 1.1921-ci il Qars müqaviləsi gündəliyə gətirilsin. 2.Naxçıvan üzərində Türkiyənin himayəsi bərpa olunsun. İranla danışıqlar aparılıb Naxçıvana şose və dəmiryolu çəkilsin. 3.Cənubi Azərbaycanla sadələşdirilmiş gediş-gəliş sistemi təşkil olunsun. 4.Tikanlı çəpərlə Araz çayı arasındakı sahə camaatın istifadəsinə verilsin.

Xalq cəbhəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların

müəyyən qaydalarla keçməsinə, qohum-qardaşları ilə əlaqə saxlamasına imkan yaratmasını tələb etdi. Lakin razılıq əldə olunmadı [19,s.216].

İmperiyanın rəhbərliyi haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə müqavimət göstərməmək əmri verilmişdi [4,s.60].

Dekabrın 29 və 30-da Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyevanın kabinetində Azərbaycan SSR Xarici İşlər naziri H.Sadıqov, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini R.Sadıqov, Azərbaycan SSR Ali Sovetinin göndərdiyi deputat qrupunun üzvləri M.Nəsirov, Ə.Şəkinski, M.Məmmədov və b. ilə aparılan danışıqlar bir daha göstərdi ki, AXC üzvləri, Naxçıvan əhalisi sözlərində qətidirlər və onların işi haqq işidir.

Dekabrın 30-da axşam Naxçıvan sərhəd qoşunlarının komandiri polkovnik V. Jukov Naxçıvan televiziyası vasitəsilə ultimatum verdi. SSRİ-nin sərhədlərinin toxunulmaz olduğunu söyləyən V.Jukov sərhəddi sökmək istəyənlər barəsində ciddi tədbirlərin görüləcəyini bəyan etdi.

Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km Sovet-İran sərhədlərində həyəcanlar başlandı. Minlərlə adam tikanlı məftillərə doğru yürüş etdi, insanlar ölümü belə gözlərinin qarşısına alaraq sərhəd qurğularını dağıtdı [3, v.71]. Nəticədə, SSRİ-nin dövlət sərhəddi boyunca çəkilən tikanlı məftillər elliklə söküldü. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan insanların ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il dekabrın 31-i dünya Azərbaycanlılarının həmrəyliyi bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

Naxçıvan Muxtar Respublikasından başlanıb, Azərbaycanın digər sərhəd rayonlarına da yayılan bu ümumxalq hərəkatına imperiya və hegemonluq mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli

kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar [19,s.217]. 1990-cı il yanvarın 2-də axşam Moskva televiziyasının «Zaman» xəbərləri belə bir məlumat yaydı: «Azərbaycanın Naxçıvan MSSR ərazisində bir qrup ekstremist İranla sərhədi pozub, sərhəd zolağını, avadanlıqları məhv edib və sərhədçilərlə kobud davranaraq onlara hədə-qorxu gəlib».

Moskvanın təzyiqi altında Azərbaycan KP MK-sı 1990-cı il yanvarın 2-də «Naxçıvan MSSR-də dövlət sərhədində kütləvi nizamsızlıq haqqında» qərar qəbul etdi. Qərarda sərhəd qurğularının sökülməsi pislənmiş və bunun respublikada yenidənqurma prosesinə ciddi zərbə vurduğu göstərilirdi [24,s.17].

1990-cı ilin yanvarın 4-də SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N.Nişanov, Sov.İKP MK-nın katibi A.N.Girenko, Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov, SSRİ DTK-sı sədrinin birinci müavini, ordu generalı Bobkov, ordu generalı Varennikov, general-polkovnik Şatalin, general-mayor Şironkin Naxçıvana gəldilər. Sərhəd hərəkatı ilə bağlı vəziyyəti sabitləşdirmək məqsədi ilə gəlsələr də, bu işlə bacara bilmədilər, alovlanmış milli-azadlıq hərəkatını söndürə bilmədilər.

1988-ci ildən Azərbaycanda başlanan milli-azadlıq hərəkatının şanlı səhifələrindən olan Naxçıvanın «Sərhəd hərəkatı» uzun illərin həsrəti nəticəsi kimi meydana çıxmışdır. Bu hadisəni «Səhər» qəzeti 13 yanvar 1990-cı il tarixli nömrəsində «Oda düşdü oda salan» başlıqlı məqalə ilə geniş şərh edərək, respublika ictimaiyyətinə ilk dəfə olaraq obyektiv məlumat vermişdi.

1989-cu il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi bayramına çevrildi. 1990-cı ildən isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi. «Sərhəd hərəkatı» rəsmi səviyyədə siyasi və tarixi qiymətini ilk dəfə məhz Naxçıvanda, Heydər Əliyevin rəhbərlik etdiyi Muxtar Respublika Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında almışdır. Heydər Əliyevi Dünya Azərbaycanlılarının Milli Həmrəylik və Birlik günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunmasını, siyasi əhəmiyyətli qərar qəbul edilməsini, Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addım kimi qimətləndirmişdi

[19,s.208].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr tarixli sessiyasında 31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik gününün elan edilməsi, hər il bayram edilməsi, həmin gün Naxçıvan Muxtar Respublikasının ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi.

1.3. Naxçıvan MSSR-nin SSRİ tərkibindən çıxması

Erməni millətçiləri tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-yə birləşdirilməsinin ortaya atılması ilə respublikada ictimai-siyasi vəziyyət mürəkkəbləşdi. Ermənistan hərbi birləşmələri tez-tez Azərbaycan ərazisinə basqın edirdilər. Naxçıvan MSSR Ermənistan SSR-dən zorla qovulan azərbaycanlıları qəbul edir və yerləşdirirdi. Muxtar respublika Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tuturdular. Erməni daşnakları Naxçıvan iddialarını da açıq bəyan edir və sərhəd kəndlərinə silahlı basqınlar edirdilər. Şərur rayonunun Kərki kəndi 18-19 yanvar 1990-cı ildə SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olunaraq [19,s.757] kəndin 320 sakini qovulub çıxarıldı [8,s.265]. Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi.

Naxçıvanın ərazi bütövlüyünün pozulması, ermənilərin Naxçıvan MSSR-ə bütöv sərhəd boyunca silahlı hücum etməsi, əhalinin həyatının təhlükə qarşısında qalması, bunlarla bağlı ittifaq orqanlarının tədbir görməməsi Naxçıvan əhalisini ən radikal addımlar atmağa məcbur etdi. 19 yanvar 1990-cı ildə Naxçıvanda xalqın tələbi və təzyiqi ilə Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı.

Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası muxtariyyət statusundan istifadə edərək SSRİ adlı bir imperiyaya qarşı kəskin etiraz formasını seçdi. Bu etiraz bütün dünyaya səs saldı. Müttəfiq respublikanın tərkibində olan Muxtar Respublika Ali Soveti sovet rejiminə qarşı yönəldilən və onun müəyyən mənada iç üzünü açan cəsarətli bir qərar qəbul etdi: SSRİ-nin Əsas Qanununun (Konstitu-

siyasının) 81-ci maddəsinə əsaslanan Naxçıvan parlamenti Azərbaycan SSR-in, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən mühüm tarixi qərar qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi [19, s.757].

«Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında» Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə «Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan» Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi. Bununla əlaqədar qəbul edilmiş qərarda deyilirdi: «1.Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir. 2.Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınlarının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin. 3.Yaranmış vəziyyətlə əlaqədar Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun. 4.Naxçıvan Muxtar Respublikası ərazisində olan Sovet qoşun hissələri respublikadan çıxarılsın. 5.SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Muxtar Respublikasına edilən təcavüzə son qoyulsun. 6.Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın» [39, 1990, 20 yanvar].

Eyni zamanda, Ali Sovetin 19 yanvar 1990-cı il tarixli sessiyası Naxçıvan MSSR-in Ali Sovetinin qərarını dünya ictimaiyyətinə çatdırmaq, qonşu və dost ölkələrdən kömək istəmək məqsədilə İrana və Türkiyəyə gedib danışıqlar aparmaq üçün xüsusi nümayəndə heyətinin tərkibini təsdiq etdi. İrana gedəcək nümayəndə heyətinin tərkibinə T.Əliyev, R.Axundov, Q.Allahverdiyev, S.Axundov və b., Türkiyəyə gedəcək nümayəndə heyətinə isə E.İbrahimov, Y.Babayev, Ə.Şamilov, S.Əkbərov və b. daxil edilir. Nümayəndələrin bir qismi gedə bilməsə də, bəziləri qeyri-leqal şəkildə İrana keçə bildilər [1,s.158].

Naxçıvanlılar öz azadlıqsevərliklərini bir daha nümayiş etdirərək Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağını Naxçıvan MSSR Ali Sovetinin binasının üstünə taxtılar. Bu müqəddəs bayraq

bir həftə orada dalğalandı. 27 yanvar 1990-cı ildə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin tarixi qərarını ləğv etdi [11, 1990, 28 yanvar].

Naxçıvanın SSRİ-nin tərkibindən çıxıb özünü müstəqil respublika elan etməsi qərarı böyük tarixi əhəmiyyətə malikdir. SSRİ tarixində misli görünməmiş bu hadisə dünya ictimaiyyətinin diqqətini Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana qarşı imperiya və onun əlaltısı olan Ermənistanın hərəkətlərinə yönəltdi [2,s.69]. Bununla əlaqədar Heydər Əliyev demişdir: «Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi...»

1.4. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi

Heydər Əliyevin Bakıda törədilmiş Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi, faciənin günahkarlarını kəskin ittiham etməsi ona olan təzyiqləri daha da artırmışdı. Heydər Əliyev Azərbaycana qayıtmaq qərarına gəlmiş, SSRİ və Azərbaycan rəhbərləri bundan bərk narahat olmuşdular. Onun Azərbaycana qayıtmasına mane olmağa çalışırdılar. Ayaz Mütəllibov Moskvaya Heydər Əliyevə xəbər göndərib bildirmişdi ki, onun qayıdışı ilə «Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər» [40,s.46]. Bakı hava limanında Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri, görkəmli naşir Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi [19,s.8].

Ona edilən xəbərdarlıqlara baxmayaraq, xalqı ilə bir olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya qayıtdı. Xalq bu gəlişi böyük ümid və sevinclə qarşıladı. Lakin iqtidar o qədər təşvişə düşmüşdü ki, bir qrup əlaltısının iştirakı ilə təyyarə meydanında piket təşkil etdirmişdi [39, 1990, 2 avqust]. İki gündən sonra - iyulun 22-də Heydər Əliyev Naxçıvana gəldi [20,s.84]. Həmin gün o, Naxçıvanın Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən mitinqə dəvət olundu və orada çıxış etdi [20,s.29]. Heydər Əliyev çıxışında dedi: «Hələlik Naxçıvandayam. Əgər bütün naxçıvanlılar mənim burada yaşama-

ğımı arzu edirsə, buna etiraz etmirəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir» [9, 2003, 22 iyul].

Bir aydan sonra - 21 avqust 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti qərara aldı: «Naxçıvan şəhərində anadan olduğunu, təhsil aldığını, uzun illər xidmət etdiyini və hazırda Ümumittifaq təqaüdçüsü olub Naxçıvan şəhərində yaşadığını nəzərə alaraq, Naxçıvan MSSR Konstitusiyasının 28-ci maddəsinə uyğun olaraq, 1923-cü ildə anadan olmuş, Azərbaycan pasportu olan, azərbaycanlı Heydər Əliyev - Heydər Əlirza oğlu Əliyev yoldaş Naxçıvan MSSR vətəndaşı sayılsın» [19,s.45].

Heydər Əliyev respublikanın müxtəlif bölgələrindən gəlmiş nümayəndələrlə görüşlər keçirdi, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırdı.

Naxçıvanda yaşayan Heydər Əliyevə böyük ehtiram və hörmət, el sevgisi və xalq məhəbbəti onun vətən, xalq qarşısında gördüyü işlərə, etdiyi xidmətlərə görə idi və günü-gündən artırdı. Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatlığına namizədlər irəli sürüləndə naxçıvanlılar tərəddüd etmədən Heydər Əliyevin namizədliyini yekdilliklə müdafiə etdilər.

Sentyabrın 30-da Azərbaycan SSR xalq deputatlarının və yerli xalq deputatları sovetinin seçkiləri keçirildi, Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR-in xalq deputatı və Naxçıvan MSSR-in xalq deputatı seçildi.

1.5. Naxçıvanda dövlətçilik ənənələrinin bərpası

Naxçıvan MSSR Ali Sovetinə seçilmiş deputatların 1990-cı il noyabrın 17-də ilk sessiyası keçirildi. Həmin sessiyaya sədrlik etmək Heydər Əliyevdən təkidlə xahiş edildi. O ərəfədə Azərbaycanda ictimai-siyasi vəziyyət həddindən artıq mürəkkəb olduğundan sessiyaya sədrlik etmək müdriklik və siyasi uzaqgörənlik tələb edirdi.

Heydər Əliyevin sədrlik etdiyi həmin sessiya təkcə Naxçıvanda yox, bütün Azərbaycanda tarixi bir hadisə oldu. Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası «Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında», «Naxçıvan MR Ali Dövlət hakimiyyəti

orqanı haqqında», «Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında», «1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında» və b. tarixi qərarlar qəbul etdi [20,s.129-131, 148-150].

Azərbaycanda ilk dəfə olaraq bu sessiyada milli dövlətçilik ənənələrinin dirçəldilməsi baxımından, müstəqilliyə can atan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir sıra qərarlar qəbul edildi. Sessiya Naxçıvan MSSR adından «Sovet Sosialist» sözlərinin çıxarılması, Naxçıvanın Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi. Ali Məclisin birinci sessiyası Azərbaycan Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edilməsi haqqında məsələyə baxdı. 1990-cı il noyabrın 17-də həmin bayraq alqış sədaları altında sessiya keçirilən zala gətirildi. Sessiya Azərbaycan Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qanunvericilik təşəbbüsü ilə çıxış etdi. Həmin sessiyada 1990-cı ilin yanvar hadisələrinə siyasi qiymət verilməsi, Bakıda fövqəladə vəziyyətin götürülməsi və Dağlıq Qarabağda vəziyyət haqqında, habelə digər mühüm əhəmiyyətli qərarlar qəbul edildi [19, s.66-95; 39, 1990, 18 noyabr].

Deputat Afiyəddin Cəlilov sessiyanın iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sədri seçildi [24,s.46].

Naxçıvanda bu cür gözlənilməz addımların atılması bilavasitə Heydər Əliyevin təşəbbüsünün nəticəsi idi. Hələ Bakıda əyləşənlər ölkənin müstəqilliyi barədə qərarın qəbul edilməsi üçün tərəddüdlərdən qurtula bilmədiyi bir vaxtda, Naxçıvan MR Ali Məclisi artıq milli dövlətçilik ənənələrinin təşəkkülünə istiqamətlənmiş qəti qərarlar qəbul edirdi.

Azərbaycanın müstəqilliyini istəməyən, hələ də SSRİ-nin boyunduruğunda qalmaq istəyindən əl çəkməyən ölkə rəhbərliyi Naxçıvan MR Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarları «dövlətçiliyə qəsd» adlandırdı və Naxçıvanın blokada vəziyyətinə düşməsi daha kəskin xarakter aldı.

Heydər Əliyev qətiyyətlə deyirdi ki, SSRİ adlı dövlət mütləq dağılacaq. Elə bu inamın nəticəsi idi ki, SSRİ-nin mövcud olduğu

bir dövrdə Naxçıvan MSSR-nin adından «Sovet Sosialist» sözləri çıxarılırdı. Sovetlər İttifaqının dağıdıldığını görən M.Qorbaçov SSRİ-nin saxlanılması üçün yeni ittifaq müqaviləsinin bağlanması, ittifaq üzrə referendum keçirilməsi və bu yolla SSRİ-ni saxlamaq barədə göstəriş verdi. Azərbaycan rəhbərliyi vəzifəsini qorumaq naminə ittifaq layihəsinə və referendum keçirilməsinə razılıq verdi.

Heydər Əliyev respublika rəhbərliyinin bu mövqeyini Naxçıvan MR Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında kəskin tənqid etdi. Göstərdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir [19,s.104-105]. Heydər Əliyev həm də, respublika Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında SSRİ-nin saxlanılmasına münasibət bildirməsi üçün keçirilməsi nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. «Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan tam əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir» [38, 1991, 15 mart].

1991-ci il martın 14-də Naxçıvan MR Ali Məclisinin sessiyasında SSRİ-nin saxlanılmasına dair Ümumittifaq referendumunda muxtar respublikanın iştirak etməməsi barədə qərar qəbul edildi. Sessiyada Heydər Əliyev referendumun əleyhinə çıxış etdi və müvafiq qərarın qəbul olunması da məhz onun təşəbbüsü ilə baş tutdu. İqtidarın bunu «separatçılıq» kimi qiymətləndirməsi, muxtar respublikaya təzyiqlər göstərməsi əhalini yolundan döndərə bilmədi. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan MR-in Kommunist Partiyasının rəhbərliyi referendumun keçirilməsi barədə mövqeyindən çəkilmədi. Ancaq Naxçıvanda bu referenduma seçicilərin 20 faizə yaxın bir hissəsi qoşuldu və səsvermə baş tutmadı. Demokratik qüvvələr referendumu baykot etdilər.

Saxta referendumda iştirak etməmiş Naxçıvana qarşı hücum başlandı. Aprelin 5-də muxtar respublika Ali Məclisinin sədri A.Cəlilov vəzifədən azad edildi. Moskva ermənilərin əli ilə Naxçıvan əhalisini cəzalandırmağa çalışdı. Şərur və Sədərək rayonları güclü atəşə tutuldu.

1991-ci il Avqust dövlət çevrilişi cəhdi və Azərbaycan rəhbərliyinin tutduğu mövqe əhalinin ciddi narazılığına səbəb oldu. Avqust ayının 22-dən başlayaraq respublikanın bir sıra şəhərlərində mitinqlər keçirildi. Naxçıvanda da mitinqlər səngimək bilmirdi. Üç gün davam edən, 60 mindən çox adamın iştirak etdiyi izdihamlı mitinq və nümayişlər nəticəsində xalq avqustun 26-da muxtar respublika Ali Məclisinin fövqəladə sessiyasının çağırılmasına nail oldu. Sessiya Naxçıvan MR-də kommunistlərin hakimiyyətini ləğv etdi. Muxtar respublika ərazisində AKP-nin və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu [16, 1991, 28 avqust]. Mitinq və nümayişlərdə respublikada prezident seçkilərinin dayandırılması, Kommunist Partiyası hakimiyyətinin ləğv edilməsi, muxtar respublikada milli müdafiə komitəsinin yaradılması, Bakıda fövqəladə vəziyyət rejiminin ləğv olunması, Lenin abidələrinin sökülməsi və b. məsələlər tələb edilirdi [22,s.169-170].

1.6. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi

1991-ci il sentyabrın 2-də Naxçıvan şəhərində çoxminli mitinqdə Naxçıvan MR Ali Məclisinin yarımçıq qalmış növbədənkənar sessiyasının çağırılması və Heydər Əliyevin Ali Məclisin sədri seçilməsi tələb edilirdi. Bir gün sonra çətinliklə də olsa, deputatlar toplanır və yetərsay alındığından sessiya öz işinə başlayır. Ali Məclisin və şəhər İcra Hakimiyyətinin binaları qarşısına toplanan əhali Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri seçilməsini tələb edirdilər. Seçicilərin təzyiqi ilə deputatlar Naxçıvan MR Ali Məclisinin sədrliyinə Heydər Əliyevin namizədliyini irəli sürdülər. Heydər Əliyev üç dəfə çıxış edib, namizədliyini geri götürdüyünü bildirsə də, bu bir nəticə vermədi. Sessiyada iştirak edən 75 deputatdan 70 nəfəri lehinə səs verməklə, 5 nəfər bitərəf qalmaqla Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildi [39, Xüsusi buraxılış, 1991, sentyabr].

Bu məsələnin müzakirəsi zamanı ilk söz alan deputat Ə.Orucov demişdir: «...bu ağır vəziyyətdə bizə elə bir rəhbər lazımdır ki, o, öz müdrikliyi, nüfuzu, yüksək təşkilatçılıq qabiliyyəti ilə xalqı birləşdirə bilsin, muxtar respublikaya bacarıqla, səriştəli rəhbərlik etsin.

Belə bir adam Azərbaycan xalqının yaxşı tanıdığı, sevdiyi, təkcə ölkəmizdə deyil, bütün dünyada böyük nüfuza malik olan Heydər Əlirza oğlu Əliyevdir» [20,s.190].

Heydər Əliyevin sədrliyi ilə işini davam etdirən sessiyada «Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında», «Azərbaycan Respublikası Prezidentliyinə seçkilər haqqında» məsələlər müzakirə edildi. Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı [17,s.124].

Belə bir qərarın qəbul olunması bir çox obyektiv səbəblərlə bağlı idi. Qərarda göstərilirdi ki, «Prezident seçkiləri Azərbaycanda demokratiyanın və xalqın səsinin boğulması şəraitində keçirildiyindən bütün demokratik qüvvələr həmin seçkilərin təxirə salınmasını» [19,s.139] tələb edir.

Naxçıvan parlamentinin bu qərarı bəzi qüvvələr tərəfindən birmənalı qəbul edilmədi, onlar şayiə yayaraq bu qərarı Azərbaycandan ayrılmaq cəhdi kimi qiymətləndirməyə çalışırdılar [9, 1990, 9 iyun]. Bunun iftira olduğunu qeyd edərək Ali Məclis bəyan edirdi ki, qəbul edilən sənədlərdə, bütün deputatların, Ali Məclisin sədri Heydər Əliyevin sessiyadakı və sentyabrın 5-də Naxçıvan televiziyası ilə çıxışlarında «Azərbaycanın bütövlüyü və onun bölünməzliyi haqqında qətiyyətlə fikir söylənilmiş» və «Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkib hissəsidir» kimi fikirlər xüsusi vurğu ilə səslənmişdir.

Azərbaycan iqtidarı Naxçıvana ciddi təzyiq göstərirdi. 1991-ci il sentyabr ayının 6-da Azərbaycan televiziyasının «Aktual ekran» verlişində bir qrup hüquqşünas muxtar respublika əhalisinə müraciət edərək onları A.Mütəllibov hakimiyyəti ətrafında birləşib prezident seçkilərində iştirak etməyə çağırırdı. Bir neçə ay bundan əvvəl isə - 30 mart 1991-ci ildə bir qrup naxçıvanlının «Kommunist» qəzetində «Naxçıvan Muxtar Respublikasının əhalisinə» müraciəti verilmişdi. Parlament deputatlarından, zabitlərdən ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanlarını qərarı dəyişməyə məcbur etsin [19,s.148]. Lakin Ali Məclisin Sədri Heydər Əliyev yerli televiziya ilə bəyanat verib xəbərdar etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr buranı tərk etməlidirlər, əks təqdirdə bütün əhali

ayağa qalxacaqdır [39, 1991, 7 sentyabr]. İqtidar geri çəkilməyə məcbur oldu. Naxçıvan MR Ali Məclisi 1 oktyabr tarixli qərarı ilə keçid dövrü ittifaq orqanlarında Azərbaycan Respublikasının iştirakını qeyri-mümkün saydı, respublika rəhbərliyinin müstəqillik məsələsində qeyri-ardıcıl mövqeyini ittiham etdi [19,s.170-172].

Sentyabrın 8-də Azərbaycanda Prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri baykot etdilər. Prezident seçkiləri Naxçıvan MR ərazisində keçirilmədi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyası «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nı qəbul etdi. Bu tarixi hadisə ilə bağlı Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev bütün Azərbaycan xalqını təbrik etdi. Təbrik teleqramında deyilirdi: «Naxçıvan Muxtar Respublikasının əhalisi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı» münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir... Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərinin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər» [16, 1991, 23 oktyabr].

Demokratik proseslər Naxçıvanda geniş vüsət almaqda idi. Dəyişikliklərə baxmayaraq Azərbaycanın qalan ərazilərindən ayrı düşmüş Naxçıvan Ermənistan ərazisi ilə həmsərhəd olduğu üçün hərbi təcavüzə məruz qalır, iqtisadi və kommunikasiya blokadası şəraitində çətin vəziyyətdə yaşayırdı.

1.7. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər

Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra Naxçıvan Muxtar Respublikası Azərbaycanın ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynadı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçi-

liklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi. Naxçıvanda gedən demokratik dəyişikliklərin sorağı Azərbaycandan uzaqlara yayılırdı. Azərbaycanın müstəqil dövlət kimi siyasi fəaliyyətinin bir sıra konseptual istiqamətləri də məhz bu dövrdə işlənib hazırlanmışdı [28,s.23]. «...Naxçıvanda fəaliyyət göstərdiyi dövrlərdə... Heydər Əliyev əslində Azərbaycanın müstəqilliyinin qorunub saxlanması ideyaları ilə yaşayırdı. O çətin vəziyyətdə, blokada şəraitində, ona qarşı daxili qüvvələrin törətdiyi qəsd, onu hakimiyyətdən kənar etmək cəhdlərinə baxmayaraq Heydər Əliyev təkcə Naxçıvan üçün yox, bütün Azərbaycan üçün düşünürdü» [23,s.242].

Heydər Əliyev bir xalq deputatı, sonra isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyət göstərdiyi dövrdə Naxçıvan parlamentində təkcə Naxçıvan MR üçün yox, bütün respublika üçün böyük əhəmiyyət kəsb edən qərarlar qəbul edildi: «Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında», «Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında», «Naxçıvan MR-in dövlət rəmzləri haqqında», «1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında», «Naxçıvan MR-də yerləşən silahlı qüvvələrin statusu haqqında», «Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında», «Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyəti və idarəetmə orqanları haqqında SSRİ Qanunu barədə» [39, 1996, 10 may] və s.

Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə, xarici dövlətlərlə əlaqələrin yaradılmasına, əhalinin ərzaqla təmin edilməsinə, sosial vəziyyətlərinin yaxşılaşdırılmasına və başqa bir sıra vacib məsələlərin həllinə yönəldildi. Naxçıvanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində mühüm addımlar atıldı. Naxçıvan MR Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında hər il dekabr ayının 31-nin Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü kimi bayram edilməsi barədə qərar qəbul etdi [20,s.271-274].

Azərbaycanda ilk dəfə olaraq iqtisadi islahatlara başlandı.

1992-ci il aprelin 6-da Ali Məclisin sessiyasında iqtisadi islahatlarla bağlı məsələlər müzakirə edildi: «Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında» və «Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi haqqında». İlk növbədə Culfa rayonunun Şurut və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatlarına başlandı [39, 2003, 22 iyul]. Torpaqlar pay norması əsasında həmin kəndlərdə yaşayan əhaliyə paylandı. Kənddə yaşayan hər bir kəndliyə sahibkar hüququ verildi.

Azərbaycanda ilk dəfə olaraq Naxçıvanda milli ordu hissələri formalaşdırıldı, regionun ərazi bütövlüyünün və təhlükəsizliyinin müdafiəsi üçün zəruri təminat əldə edildi. Yeridilən daxili sosial-iqtisadi siyasət xətti və xarici dövlətlərlə yaradılan iqtisadi əlaqələr Naxçıvan əhalisinin güzəranını yüngülləşdirməyə, onu düçar olduğu blokada vəziyyətindən çıxarmağa istiqamətləndirilmişdi [29, 2001, 9 may]. Bölgənin düşdüyü iqtisadi çətinlikləri aradan qaldırmaq üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Həyata keçirilən tədbirlər Naxçıvanın qorunub saxlanılmasına və yaşamasına şərait yaratdı. «Həmin illər Naxçıvan üçün çox çətin, muxtar respublikanın gələcəyi üçün həlledici dövr idi. Heydər Əliyevin nüfuzu, təcrübəsi, iradəsi həmin dövrdə Naxçıvanı qorudu... Naxçıvan yaşadı, burada sülh və əmin-amanlıq təmin olundu» [39, 2004, 15 iyun].

1.8.Erməni yaraqlılarının Naxçıvana hücumları

Erməni daşnaklarının «Böyük Ermənistan» yaratmaq planlarında Naxçıvan mühüm yer tutur. Dağlıq Qarabağ münaqişəsi başlayandan erməni işğalçıları Naxçıvanın sərhəd kəndlərini atəşə tuturdular. 1990-cı il yanvarın 19-da Kərkinin işğalından sonra ermənilərin Sədərəyə, Şərura, Gərməçatağa, Buzqova, Şadaya, Günnütə, Cağazirə və b. yaşayış məntəqələrinə hücumları artmışdı. Yerli əhalidən ölən və yarananlar olurdu. Bakı-Şərur sərnişin qatarı Mehri rayonu ərazisində atəşə tutulurdu. Sərnişin qatarlarının təhlükəsiz hərəkəti barədə söz versələr də, ermənilər verdikləri sözə əməl etmirdilər. 1991-ci il aprelin 20-də Ordubad-Mehri zonasında

Naxçıvan MR Ordubad rayonunun və Ermənistanın Mehri və Sisyan rayonlarının yerli hakimiyyət və hüquq mühafizə orqanları rəhbərlərinin görüşü olmuşdu. Azərbaycan dəmir yolunun Mehri sahəsində dəmiryol nəqliyyatının təhlükəsiz və fasiləsiz işləməsi məsələləri müzakirə edildi [22,s.127]. Qatarların hərəkəti bərpa edilsə də, aprelin 28-dən etibarən yenidən dayandırıldı. Çünki həmin gün erməni yaraqlıları Sədərək qəsəbəsini atəşə tutmuş, nəticədə 13 nəfər yaralanmış, onlarla yaşayış evi və ictimai bina dağıdılmışdı. Mayın 7-də Batabat yaylağındakı və Culfa rayonunun Ərəfsə kəndi yaxınlığındakı milis postlarına atəş açılmışdı. Mayın 13-də SSRİ Daxili İşlər Nazirliyinin nümayəndəsinin iştirakı ilə Naxçıvan MR Sədərək rayonu və Ermənistanın Yexeqnadzor və Ararat rayonları sovet və hüquq mühafizə orqanları nümayəndələrinin görüşü keçirilmiş, sərhədyanı rayonda vəziyyət müzakirə olunmuşdu.

Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən xilas etmək, ermənilərin silahlı basqınlarından qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Naxçıvan MR Ali Məclisinin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı [19,s.544].

Bir həftə sonra Sədərək rayonundakı milis postu yenə atəşə tutuldu. Erməni quldurları Ordubad rayonu ərazisindən iki nəfər çobanı və min başa yaxın mal-qaranı, Şahbuz rayonu Güney Qışlaq kəndi ərazisindən 250 baş xırdabuynuzlu heyvanı aparmışlar. Sentyabrın 11-də Azərbaycan dəmir yolu hərbiləşdirilmiş mühafizə dəstəsinin üç atıcısı zorla Mehriyə aparılmış, onların tabel silahı alınmış və döyülmüşlər. Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Ermənistan Ali Sovetinin sədri L.Ter-Petrosyanla telefonla danışmış, Azərbaycan dəmir yolunun Mehri stansiyasında sərnişin və yük qatarlarına və həmsərhəd kəndlərə basqınların, adamların tutulub girov saxlanılmasının, mal-qaranın qaçırılmasının kökünü kəsmək üçün tədbirlər görülməsini tələb etmişdir [22,s.190].

Sentyabrın 20-də Ermənistanın Sisyan rayonu ərazisindən 60 nəfərlik quldur dəstə Batabatdakı Biçənək adlanan yerdə yerləşən teleradio ötürücüsünü dağıtmış, cihazları sıradan çıxarmışlar. Erməni yaraqlıları tərəfindən zorla aparılmış 2 çobanın - Xəlil Xəlilo-

vun, Əşrəf Abbasovun - meyitləri sərhəd yaxınlığından tapılmışdır. Oktyabrın 16-da Ordubad ilə Mehri rayonunun sərhəddində tərəflər girov tutulmuş adamları bir-birinə qaytarmışlar.

Noyabrın 5-də Naxçıvan Bakı istiqamətində və əks istiqamətdə sərnişin qatarlarının hərəkəti bərpa olunmuşdur. Erməni tərəfi ilə danışıqlar zamanı tələb olunmuşdur ki, dəmir yolunun Mehri sahəsində qatarların hərəkətinin təhlükəsizliyi təmin edilsin. Ermənistan prezidenti Heydər Əliyevi əmin etmişdir ki, erməni tərəfi Mehri rayonunun ərazisində qatarların təhlükəsiz hərəkətini təmin edəcəkdir. Noyabrın 28-də yük qatarlarının hərəkəti bərpa edildi. Sərnişin qatarlarının təhlükəsizliyinə erməni tərəfi təminat vermədiyindən onların hərəkəti dayandı.

Dekabrın 8-də erməni yaraqlıları Ordubad dəmir yolu stansiyası təmir briqadasının 12 işçisini girov götürdülər. Heydər Əliyevin Ermənistan prezidenti ilə danışığından sonra dekabrın 19-da 12 nəfər geri qaytarıldı. Eyni zamanda, dekabrın 16-dan saxlanılan Bakı - Şərur qatarı azad edildi.

Azərbaycan xalqı Naxçıvan MR-dəki hadisələri, Heydər Əliyevin xalqı, ordunu səfərbər etməsini, düşünülmüş diplomatik tədbirlər görməklə düşmənin güclü hücumlarının qarşısını uğurla almasını böyük ümid və həyəcanla izləyirdi. Erməni silahlı birləşmələri qısa fasilədən sonra 1992-ci il mayın 5-də sərhədi keçərək, Naxçıvan MR-in sərhədyanı yaşayış məntəqələrinə yenidən basqın etdilər. Sədərək qəsəbəsi üzərinə hücumda beş piyadaların döyüş maşınının, iki zirehli transportyorun və bir tankın köməyi ilə 700-ə yaxın silahlı erməni hərbi qulluqçusu iştirak etmişdir [22,s.288]. Sədərək qəsəbəsi, Havuş, Günnüt, Yuxarı Yaycı kəndləri yaxınlığındakı döyüşlər zamanı 42 nəfər yaralanmış, 3 nəfər həlak olmuşdu. Mayın 7-də səhər tezdən Sədərək qəsəbəsi və Havuş kəndi müxtəlif toplardan atəşə tutulmuş, 20 nəfər yaralanmışdı. Sədərəkdə böyük dağıntılar olmuşdu [22,s.289].

Mayın 5-də Naxçıvan şəhərində, mayın 7-də Şərur rayonunun mərkəzində mitinq keçirildi. Heydər Əliyev hər iki mitinqdə çıxış etmiş, sabitliyi saxlamaq naminə bütün qüvvələrin birləşməsini zəruri hesab etmişdi. Azərbaycan ərazisindən buraya elektrik enerjisi və yanacaq verilməsini təmin edən kommunikasiya xətləri Ermənistanda

bağlanılmışdı. Telefon və teleqraf rabitəsi pozulmuş, dəmir yolunda hərəkət dayanmışdı. Naxçıvan Muxtar Respublikası yenə işıqsız və qazsız qalmışdı.

Mayın 8-də «Milliyyət» qəzetində Naxçıvandakı hərbi vəziyyətlə bağlı məlumatlar verilmişdi. S.Dəmirəl ABŞ prezidenti Corc Buş ilə telefon danışığında bildirmişdi ki, Ermənistan Naxçıvana hücumları davam etdirsə, Türkiyə kənar müşahidəçi kimi qala bilməyəcəkdir [29, 1992, 8 may].

Sədərək rayonunda təhlükəsizliyi təmin etmək məqsədilə orada hərbi vəziyyət elan edildi. 1992-ci il may ayının əvvəllərində Naxçıvan MR-də, Azərbaycanın Ermənistanla sərhədlərində gərginlik yenidən artdı. Düşmən Naxçıvan tərəfdən hücum olacağından ehtiyatlanaraq oradakı hərbi hissələrin başını qatmaq, həm də Azərbaycanda yaranmış xaosdan bəhrələnərək yeni torpaqlar ələ keçirmək niyyətində idi. Mayın 18-də Muxtar Respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və s. qəsəbə və kəndlərinə güclü hücumlar başlandı. Erməni daşnakları hətta zəhərli kimyəvi silahdan istifadə edirdilər. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Naxçıvanlıların hamısı Sədərəyin müdafiəsinə qalxdı. Onlar qəhrəmanlıqla vuruşurdular. Qəsəbənin yüz metrliyindəki Mil dağından 10 gün müddətində 17 şəhidin cəsədini götürmək mümkün olmadı. Heydər Əliyevin şəxsi nüfuzu bir günlük atəşkəs yaratmağa kömək etdi, şəhidləri 1992-ci il mayın 28-də döyüş zonasından götürüb dəfn etmək mümkün oldu [39, 1992, 28 may]. Kəndlərə xeyli ziyan dəymiş, evlər və inzibati binalar dağıdılmışdı. On minlərlə insan çadırlarda, meşələrdə ağır şəraitdə yaşamağa məcbur olmuşdu [36, 2001, 15 sentyabr].

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev erməni təcavüzünün qarşısını almaqda diplomatik vasitələrdən geniş istifadə etdi. Hələ martın 23-də onun Türkiyəyə səfəri zamanı Baş nazir Süleyman Dəmirəl bütün dünyaya bəyan etmişdi ki, Naxçıvan MR-in statusunda bir dəyişiklik meydana gələrsə, mövcud müqaviləyə əsasən Türkiyə öz sözünü deyəcəkdir. Mayın 18-də gecə Türkiyə Nazirlər Kabineti toplanıb geniş bəyanat qəbul etdi. Türkiyə rəhbərliyinin və Heydər Əliyevin birgə səyləri sayəsində erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. 57 dövlət bu

təcavüzü pislədi. NATO xüsusi bəyanat verdi [8,s.333]. Rusiya burada geri çəkilməyə məcbur oldu. MDB Birləşmiş Silahlı Qüvvələrinin Baş komandanı marşal Şaposnikovun qeyd etdiyi kimi, Türkiyənin Naxçıvana kömək etməsi Üçüncü dünya müharibəsinə gətirib çıxara bilərdi. Mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi.

Yenicə hakimiyyətə gələn AXC-Müsavat iqtidarı əvvəlki hakimiyyət kimi ölkəni idarəetmə qabiliyyətinə malik deyildi. Onlar da Naxçıvana ögey münasibət bəsləyir, xalq arasında gündən-günə nüfuzu artan Heydər Əliyevə qarşı ciddi mübarizəyə başlamışdı. 1991-ci ilin dekabr ayından Naxçıvan MR-ə qaz, 1992-ci ilin iyul ayından elektrik enerjisi verilmirdi. 1992-ci ilin aprel ayından buraya qatarların hərəkəti tam dayandırılmışdı [8, s.334-335]. Muxtar respublika blokadaya düşmüşdü.

1.9. Milli ordunun formalaşması Naxçıvandan başlandı

Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqillik aktını qəbul etsə də, hələ əsl müstəqilliyə gedən yol çox uzun idi. Özgə ordusunu yedirdən bir ölkə özünü müstəqil hesab edə bilməzdi. Bunun üçün ilk növbədə sovet imperiyasının işğalçı qoşun hissələri ölkədən çıxarılmalı idi. Azərbaycanın o vaxtkı rəhbərləri isə buna nail olmağa tələsmirdilər. Azərbaycanda müstəqillik aktının qəbul edilməsinə ay yarım qalmış, hələ sovet hakimiyyətinin mövcud olduğu bir vaxtda Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə bu prosesin - sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılmasının əsası qoyuldu [39, 2004, 19 avqust]. Naxçıvanda Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması ilə əlaqədar ordu quruculuğuna başlanıldı. Naxçıvan MR Ali Məclisinin 7 sentyabr 1991-ci il tarixli sessiyası bu barədə qərar qəbul etdi [9, s.479-480, 763]. 26 oktyabr sessiyasında Naxçıvan Muxtar Respublikası ərazisində olan hərbi hissələrin statusu haqqında məsələ müzakirə olundu və qərar qəbul edildi. Qərarda Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Sovet İttifaqı hərbi qüvvələrinin statusu ilə əlaqədar bütün məsələləri

hərtərəfli öyrənmək və təhlil etmək, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısını almaq məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiyanın yaradılması nəzərdə tutulmuşdu [19, s.514-516].

Heydər Əliyevin prinsipial və qətiyyətli mövqeyi sayəsində Naxçıvanda yerləşmiş qoşun və sərhəd hissələrinin fəaliyyəti ilə bağlı bütün məsələlər Azərbaycanın mənafeyinə uyğun həll edildi. Məhz onun ciddi tələblərindən sonra müəmmalı şəkildə 1990-cı ilin sonunda Naxçıvan MR ərazisində yerləşən sərhəd məntəqələrinin Ermənistan ərazisindəki sərhəd məntəqələrinə tabe etdirilməsi barədə qərar ləğv edildi. Onlar yenidən Naxçıvan ərazisində yerləşən 41-ci sərhəd dəstəsinin tabeliyinə qaytarıldı.

1991-ci il noyabrın 6-da SSRİ Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini N.Şam və SSRİ Baş Dövlət Sərhəd İdarəsinin şöbə rəisi A.Bessonov, eləcə də Zaqafqaziya hərbi dairəsindən, sərhəd qoşunları qərərgahından yüksək rütbəli hərbçilər Naxçıvana gəldilər. Ali Məclisin sədri son zamanlar sərhədçilər tərəfindən törədilən hüquqa zidd hərəkətlərdən danışdı. Muxtar respublikanın ali hakimiyyət orqanları ilə hərbi hissələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilmiş «Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin statusu haqqında» qərarın məqsəd və məzmunu barədə onlara məlumat verdi. Noyabrın 7-də Ali Məclisin Sədri Heydər Əliyevin muxtar respublika ərazisində yerləşən bütün hərbi hissələrin komanda heyəti ilə görüşü oldu.

Ali Məclisin qəbul etdiyi «Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında» qərarı bu sahədə aparılan bütün danışıqlara bir nöqtə qoydu. Qərarda deyirdi ki, Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlər Azərbaycan xalqına, muxtar respublika əhalisinə məxsusdur. Muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən aparılmamalıdır. [19, s.522].

Ali Məclisin qərarı ilə Rusiya qoşun hissələrinin Naxçıvandan

çıxarılması və Milli ordunun yaradılması prosesi başlandı. 1992-ci ilin iyul ayında Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi idarəsi və 75-ci motoatıcı diviziyanın komandanlığı ilə danışıqlar aparıldı. Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edildi. Naxçıvan MR Ali Məclisin Rəyasət Heyətinin 25 iyun 1992-ci il tarixli iclasında Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Müdafiə Nazirliyi tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edildi [19, s.542]. Azərbaycanda birinci olaraq Rusiya qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycan Müdafiə Nazirliyinin yeni yaradılan hərbi hissəsinin sərəncamına verildi.

1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycan Milli Ordusuna verilməsi haqqında sənədlərin imzalanması ilə Rusiya ordusunun hərbi hissələri avqustun 18-də Naxçıvan Muxtar Respublikasını tərk etdi [19, s.771; 39, 1998, 24 iyun].

Aparılan danışıqların nəticəsində Sovet İttifaqının sərhəd qoşunlarının Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsi ləğv olundu. 41-ci sərhəd dəstəsinin funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının Naxçıvanda yaradılan birinci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalandı. İlk milli sərhəd qoşunlarının yaradılması da Naxçıvandan başlandı. Sərhəd qoşunları dəstəsində Azərbaycanın milli bayrağı qaldırıldı.

1992-ci il sentyabrın 29-da Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin gərgin əməyi və çevik diplomatik gedişləri sayəsində heç bir insidentə yol verilmədən Naxçıvan ərazisini sonuncu rus sərhədçisi də tərk etdi [13, 1998, 16 dekabr].

Bütün keçmiş müttəfiq respublikalar içərisində ilk dəfə olaraq sovet imperiyasının ordu hissələri bütünlüklə Naxçıvandan, ondan bir müddət sonra isə Azərbaycandan çıxarıldı.

1.10. Blokadanın aradan qaldırılması uğrunda mübarizə

Dağlıq Qarabağ hadisələrinin başlanması, Ermənistanın təcavüzkar mövqeyi Naxçıvana gələn şose yolunu bağladı. Yük və

sərnişin qatarları isə atəşə tutulur, yollar dağıdılır, qatarların Naxçıvana hərəkətinə hər cür maneçilik törədilirdi. Sərhədlərinə müntəzəm hücumlar edilən Muxtar Respublikanı ölkə ilə - Azərbaycanla bağlayan yeganə dəmiryolu 1992-ci il aprelin 24-də, qalan kommunikasiya xətləri isə iyulun 13-də kəsildi.

Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb fəaliyyət göstərməsi, bir qədər sonra Naxçıvan MR Ali Məclisinə rəhbərlik etməsi Naxçıvanı düçar olduğu bəlalardan və təhlükələrdən xilas etdi. Ermənilər uzun müddət mühasirədə saxladıqları Naxçıvanı diz çökdürməklə Azərbaycana daha ağır zərbə vurmaq istəyirdilər. Heydər Əliyev qardaş Türkiyə və İran rəhbərləri ilə apardığı danışıqlar və xüsusən şəxsi əlaqələri nəticəsində muxtar respublikanı sözün həqiqi mənasında məhv olmaq təhlükəsindən xilas etdi. Naxçıvanın xilası insanlarda belə bir inamı daha da möhkəmləndirdi ki, yalnız Heydər Əliyev Azərbaycanı düşdüyü bəlalardan xilas edə bilər.

Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri kimi fəaliyyətinin əsasında Naxçıvanın ərazi bütövlüyünün qorunması, blokadanın aradan qaldırılması, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması, iqtisadi əlaqələrin qurulması, insanların təhlükəsizliyinin təmin edilməsi və b. həyati əhəmiyyətli məsələlər dayanırdı. Oktyabr ayının ilk günlərindən başlayaraq İran İslam Respublikası Naxçıvana ərzaq məhsulları göndərdi. Naxçıvan MR üçün yüklər vurulmuş ilk avtomobil karvanı Astaradan İran ərazisi vasitəsilə Naxçıvana gəldi [22, s.201]. Oktyabrın 29-da Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində müvəqqəti körpünün açılışı oldu. Noyabrın 18-də bu körpü vasitəsilə Türkiyənin Konya şəhərindən ərzaqla dolu maşın karvanı Naxçıvana gəldi. İran və Türkiyə dövləti, ayrı-ayrı şirkətlər Naxçıvana yardım göstərməklə kifayətlənmir, burada yeni müəssisələr tikmək, mövcud müəssisələri modernləşdirmək, avadanlıqlarla təchiz etmək, muxtar respublikanı azad iqtisadi zonaya çevirmək üçün kömək edəcəklərini bildirirdilər. Konsulluqların açılması üçün razılıq əldə edildi. Bir qədər sonra Türkiyənin Naxçıvana yeni təyin olunmuş baş konsulu Orxan Ərtoğrul 1993-cü ilin yanvarında Heydər Əliyev tərəfindən qəbul edildi. Naxçıvan Muxtar Respublikasının paytaxtında ağıryüklü sərnişin və nəqliyyat təyyarələrini qəbul etməyə imkan verən yeni

aeroport martın 1-də işə salındı. Sınaq uçuşları müvəffəqiyyətlə nəticələndi.

Muxtar Respublika blokada şəraitinə düşdüyündən, qatarların hərəkətləri dayandığından, Bakı ilə əlaqələr lazımi səviyyədə olmadığından əhali çətin vəziyyətə düşdü. Heydər Əliyev çox ağır şəraitdə Naxçıvan MR-i müvəffəqiyyətlə idarə edirdi. Naxçıvanlılar hər cür çətinliyə, aclığa, qışda 40 dərəcəyə çatan şaxtaya dözürdülər. Qaz olmadığından, enerji fasilələrlə verildiyindən və az olduğundan ağacların 70 faizi kəsilib yandırıldı.

1992-ci il martın 22-25-də Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə səfər edib qardaş ölkənin dövlət başçıları ilə danışıqlar apardı. Heydər Əliyevin Baş nazir Süleyman Dəmirəl ilə görüşündə Naxçıvan MR-in statusu məsələsindən də bəhs olundu. Bununla əlaqədar Süleyman Dəmirəl qeyd edirdi ki, Türkiyə xarici qüvvələrin Naxçıvanın statusunu dəyişdirmək cəhdlərinə etinasız qalmayacaq və muxtar respublikaya hər cür yardım göstərəcəkdir. Səfərin gedişində - martın 24-də 13 maddədən ibarət əməkdaşlıq haqqında protokol imzalandı. Sənəddə Türkiyə və Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutuldu. Türkiyə Naxçıvana 100 milyon dollar kredit verdi və bunun hesabına ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi [19, s.607]. Sədərək-Türkiyə yolu tikildi. Qarşılıqlı avtonəqiliyyat əlaqələri yarandı. «Türksat» rabitə şirkəti Naxçıvanın Bakı ilə telefon əlaqəsini bərpa etdi.

Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında Heydər Əliyevin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına qovuşurdu. Heydər Əliyev deyirdi: «Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxdıqdan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk islam dünyasına bir qapıdır».

Türkiyə Araz çayı üzərində körpü salmaq barədə öhdəlik götürmüşdü. Həmin öhdəlik qısa müddətdə icra olundu. Türkiyə mətbuatında Türkiyəni Naxçıvanla birləşdirəcək körpünün tikinti-

sinin tamamlanmaq üzrə olduğu və onun may ayında açılacağı bildirilirdi. Naxçıvan körpüsü Türkiyənin Qafqaz və Orta Asiya dövlətlərinə keçidini təmin edən bir qapı idi. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında «Sədərək-Dilucu» 228 m-lik «Ümid körpüsü» açıldı [34, s.11]. Körpünün rəsmi açılışında Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük nümayəndə heyəti gəlmişdi. Baş nazir Süleyman Dəmirəl körpünün açılışını Azərbaycanla Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. Heydər Əliyev həmin körpünü «arzu və ümidlərin körpüsü» kimi dəyərləndirdi. Muxtar respublika parlamentinin qərarında deyilirdi: «Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edilsin» [9, 1999, 9 iyun].

Muxtar respublikanın İranla da əlaqələri genişlənirdi. Heydər Əliyev 1992-ci il avqustun 22-26-da İran İslam Respublikası Prezidentinin dəvəti ilə Tehrana səfər etdi. Naxçıvan MR-in ehtiyacları ilə bağlı qonşu dövlətlə danışıqlar aparıldı [19, s.653]. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında 16 maddədən ibarət protokol imzalandı [19, s.658-662]. Bağlanmış protokola əsasən muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, hər ayda 100 ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olundu. Oktyabr-noyabr aylarında İran İslam Respublikasından Naxçıvana yardımlar, neft, dizel yanacağı, kömür və ərzaq məhsulları göndərildi. Dekabrın 3-də Şahtaxtı-Poldəşt arasında üzən körpü istifadəyə verildi [19, s.774]. Həmin gün İrandan Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanıldı. Türkiyədən-İqdir şəhərindən Naxçıvana elektrik xətti çəkildi [5, v.30-31]. Muxtar respublika Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. İranla Naxçıvan arasında Poldəşt və Culfada müştərək bazarlar açıldı.

Heydər Əliyevin gərgin əməyi, diplomatik fəaliyyəti sayəsində Naxçıvan MR-in nəqliyyat, enerji blokadası yarıldı, əhali sözün əsl mənasında aclıqdan və ölümdən xilas oldu.

Naxçıvanın Türkiyə və İranla iqtisadi, ticarət, mədəni əməkdaşlığının genişlənməsi bəzi qüvvələrin «narahatlığına» səbəb oldu. Onlar bu əlaqələri Naxçıvanda separatizm meyillərinin güclənməsi kimi təqdim edirdilər. Dövlət nümayəndələri muxtar respublikaya kömək etmək əvəzinə, onun rəhbərliyinə təzyiq göstərir, konstitusiya hüquqlarını məhdudlaşdırmağa çalışırdılar. Muxtar respublika Ali Məclisi Rəyasət Heyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilirdi: «Ali Məclisin Rəyasət Heyəti bəyan etməyi zəruri hesab edir ki, Bakıda və Naxçıvanda ayrı-ayrı dairələr tərəfindən Naxçıvan Muxtar Respublikası rəhbərliyinin fəaliyyətindəki separatizm haqqında yayılan şayiələr uydurmadır, böhtan xarakteri daşıyır və heç bir əsası yoxdur. Türkiyə və İranla əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının ümumi siyasətinin tərkib hissəsidir, uzun müddət blokada şəraitində olan muxtar respublikanın sosial-iqtisadi problemlərinin həll edilməsinin zəruriliyindən irəli gəlir» [9, 1999, 9 iyun].

Heydər Əliyev Naxçıvanın düşdüyü blokada vəziyyətindən çıxarılmasında və əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında dünyanın iri dövlətlərinin humanitar yardım göstərməsi istiqamətində fəaliyyət göstərirdi. Elə bu məqsədlə də Heydər Əliyev 1993-cü il yanvarın 20-də ABŞ prezidenti B.Klintona məktub göndərdi. Məktubda deyilirdi: «... Sizə çatdırmaq istəyirik ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası artıq səkkiz aydır ki, ağır iqtisadi blokada şəraitindədir. Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə bağlayan və Ermənistanın ərazisindən keçən bütün kommunikasiya xətləri pozulmuşdur. Buna görə də muxtar respublikanın iqtisadiyyatının zəruri ehtiyatlarla təmin olunmasında, əhalinin ərzağa, elektrik enerjisinə, yanacağa olan minimum tələbatının ödənilməsində son dərəcə çətinliklər yaranıb» [22, s.378].

ABŞ prezidenti Heydər Əliyevin məktubuna dərhal reaksiya vermiş, ABŞ-ın Bakıdakı səfiri Riçard Mayls Naxçıvana gəlmiş, Naxçıvanın ehtiyaclarını öyrənmişdir. Bir aydan sonra ABŞ-ın Naxçıvana təcili humanitar yardımı başlanmışdır. ABŞ-dan uçan və bir milyon ABŞ dolları dəyərində olan tibb ləvazimatı və ərzaq məhsulları ilə yüklənmiş «Boinq» təyyarəsi martın 9-da Naxçıvana gəlmiş-

dir. Martın 21-də Fransadan Naxçıvana humanitar yardım göndərilmişdir. Martın 24-də Türkiyə hökuməti Naxçıvana 25 milyon Amerika dolları həcmində kredit ayırmışdır. Türkiyə və İran dövlətlərinin, şirkətlərinin və qeyri-hökumət təşkilatlarının Naxçıvana yardımları davam etmişdir.

Heydər Əliyev fevralın 12-də Bakıda Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəylə görüşmüş, blokada şəraitində yaşayan Naxçıvanın ağır sosial-iqtisadi vəziyyətindən və onların həlli yollarından bəhs etmişdir.

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin məqsədyönlü siyasəti, müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi və xalqın ona olan sarsılmaz inamı və dəstəyi Naxçıvanı real erməni işğalından xilas etdi və blokadanın aradan qaldırılmasına, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərdi.

1.11. Naxçıvanda dövlət çevrilişinə cəhd

Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Mövcud siyasi böhran aradan qaldırıldı. İqtisadi islahatlar həyata keçirildi, sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı. Hərbi quruculuq məsələlərinə xüsusi diqqət verildi. Naxçıvanda mütəmadi hal almış erməni hücumlarının qarşısı alındı.

Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidlər artırdı. AXC hakimiyyəti isə onun uğurlarına ögey münasibətdə qalaraq, fəaliyyətini separatçılıq kimi qələmə verməyə çalışır və Naxçıvan MR-də hakimiyyət çevrilişi etmək, qeyri-demokratik yolla hakimiyyəti dəyişmək cəhdləri edirdi. İstər A.Mütəllibov, istərsə də onu əvəz etmiş Ə.Elçibəy hakimiyyəti Naxçıvana ögey münasibətdə idilər. Naxçıvanı taleyin hökmünə buraxmışdılar. Hər iki hakimiyyətin Naxçıvanla bağlı siyasəti siyasi ambisiyalardan uzağa getmirdi.

AXC Naxçıvanda da öz hakimiyyətini qeyri-qanuni yolla ələ almaq istəyirdi. Onlar Baş nazir vəzifəsini ələ keçirərək Becan Fərzəliyevin həmin vəzifəyə təyin edilməsinə nail olmuşdular. Lakin bu

onları qane etmirdi. Əsas vəzifəyə - Muxtar Respublika Ali Məclisinin sədri vəzifəsinə yiyələnmək istəyirdilər. Ona görə də istər respublika rəhbərliyinin, istərsə də Naxçıvandakı cəbhəçilərin əsas məqsədi Naxçıvanda vəziyyəti gərginləşdirmək, müxtəlif təxribatlar törətmək yolu ilə Heydər Əliyevi Ali Məclisin sədri vəzifəsindən uzaqlaşdırmaq idi. Cəbhəçilərin Ali Məclisin sessiyasında təfriqə salmaq və bununla Heydər Əliyevə qarşı müəyyən planları həyata keçirmək cəhdləri boşa çıxandan sonra çevriliş etmək yolunu tutdular. O vaxtkı daxili işlər naziri İsgəndər Həmidov məhz polisin əli ilə bu işi reallaşdırmağa çalışdı.

İyul ayının axırlarından Xalq Cəbhəsi qüvvələrinin müxtəlif yollarla polisi siyasətə cəlb etmək, ondan öz siyasi məqsədləri naminə istifadə etmək cəhdləri görünməyə başladı [9, 1997, 23 oktyabr].

Azərbaycan Respublikasının daxili işlər naziri İsgəndər Həmidov Naxçıvana gəlir və avqustun 20-21-də Naxçıvan MR Ali Məclisində olur. O, əvvəlki nazirin vəzifədən azad olunmasını, həmin işə daha layiqli, təcrübəli adamın təyin olunmasının zəruriliyini bildirir. Ali Məclisin Sədri Heydər Əliyev onun təklifi ilə razılaşır. Razılıq əldə olunur ki, nazir vəzifəsi hələlik birinci müavin Ə.Ələkbərova həvalə edilsin [9, 1997, 23 oktyabr]. İ.Həmidov isə bu vəzifədə AXC-nin fəal üzvü S.Mustafayevi görmək istəmiş, 18 avqust 1992-ci il tarixdə 1718 nömrəli əmr vermişdi. Heydər Əliyevlə söhbətindən sonra bu vəzifəyə kadr təyin etməyin onun səlahiyyətinə aid olmadığını bilib, bu məsələni hələlik açmamışdır. Heydər Əliyev İranda olarkən İ.Həmidov S.Mustafayevin nazir təyin olunması haqqındakı əmri Naxçıvan MR DİN-nə göndərmişdir. Naxçıvan MR DİN-nin polis əməkdaşları bu təyinatı qəbul etməmiş, 1 sentyabr 1992-ci il tarixdə Azərbaycan daxili işlər nazirinin müavini R.Quliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikası DİN polis əməkaşlarının iclası keçirilmiş və bu iclasın etiraz bəyanatını Azərbaycan və Naxçıvan MR rəhbərliyinə göndərmişlər [19, s.383-385]. Naxçıvan MR Daxili İşlər Nazirliyinin polis əməkdaşlarının hüquq və şərəfini Müdafiə Komitəsi Respublika Prezidentinə, Ali Sovetə və Baş Prokurora müraciət etmişdir [19, s.385-389].

Naxçıvan MR Ali Məclisinin 17 sentyabr 1992-ci il tarixli sessiyası Naxçıvan MR daxili işlər naziri vəzifəsini müzakirə etdi. Na-

mizədlərin adları gündəliyə salındı. Alternativ qaydada seçki keçirildi. Ə.Ələkbərov 86 səsdən 69 səs, S.Mustafayev isə 3 səs topladı. Ə.Ələkbərov Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə seçildi [19, s.388; 37, 1999, 9 may].

AXC-nin Naxçıvanda hakimiyyəti qeyri-qanuni yolla yiyələnmək üçün polisi ələ keçirməsi taktikası baş tutmadı.

Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyəti 15 oktyabr 1992-ci il tarixdə «Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaranmış vəziyyət haqqında» məsələ müzakirə etdi. Qəbul edilmiş qərar respublika Prezidentinə və Ali Sovetə göndərildi.

İ.Həmidov planın baş tutmayacağını gördükdə başqa bir hüquqa zidd hərəkətə yol verdi. O, Azərbaycan Respublikası DİN-nin əmri ilə Naxçıvan MR daxili işlər naziri və müavinini - Ə.Ələkbərovu, N.Həsənovu, qərargah rəisi O.Zalovu, şöbə və bölmə rəislərini M.Həsənov, B.Əyyubov, A.Qurbanov və başqalarını daxili işlər orqanlarından çıxardı.

Naxçıvanda sifarişi Bakıdan alan qüvvələr öz pozuculuq fəaliyyətlərini daim davam etdirirdilər. Onlar Heydər Əliyevə qarşı təxribat törətmək üçün cəhdlər edirdilər. AXC Naxçıvan şöbəsi Heydər Əliyevin əleyhinə qızğın təbliğat aparırdı. Oktyabrın 24-də isə AXC hakimiyyəti ələ almaq üçün silahlı çevriliş etdi. Naxçıvanda xalq cəbhəsinə məxsus silahlı dəstələr muxtar respublika Daxili İşlər Nazirliyi, Televiziya və Radio Verlişləri Komitəsi, Rabitə İdarəsi, şəhər elektrik şəbəkəsi binalarını, habelə telestudiyanı zəbt edib hakimiyyət əleyhinə bəyanat verdilər [39, 1992, 28 oktyabr]. 24 oktyabr çevriliş cəhdinə ümumi rəhbərliyi o vaxt Naxçıvandan Azərbaycan Ali Sovetinə deputat seçilmiş F.Quliyev həyata keçirirdi. Təşkilatçılıq işlərinə və çevrilişçi dəstələrə AXC Naxçıvan şöbəsinin sədri A.Quliyev, Naxçıvanda Daxili İşlər naziri olmaq istəyən cəbhəçi S.Mustafayev rəhbərlik edirdi [18, 2002, 24 oktyabr]. Çevriliş cəhdində Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsinin 300 nəfərə yaxın silahlı dəstəsi iştirak edirdi [24, s.99]. Lakin xalq çevriliş cəhdini dəstəkləmədi. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Hətta Nehrəm, Cəhri kəndlərindən adamlar piyada Naxçıvan şəhərinə yürüş etdilər. Qısa bir vaxtda 50 mindən çox adam Heydər Əliyevi müdafiə etmək üçün Ali Məclis binasının

qarşısına gəldi [8, s.336].

Belə bir şəraitdə Ali Məclisin Sədri Heydər Əliyev prezident Əbülfəz Elçibəylə, Ali Sovetin sədri İsa Qəmbərovla dəfələrlə telefon danışıqları aparır, Naxçıvan cəbhəçilərinin qeyri-qanuni hərəkətlərinin qarşısını almaq, yaranmış gərginliyi aradan qaldırmaq üçün təcili tədbirlər görmələrini tələb edirdi. Ali Məclisin sədrinin təşəbbüsü ilə sədr müavinləri və eyni zamanda Xalq Cəbhəsinin üzvləri olan Q.Məmmədov və A.Kələntərli prezident Əbülfəz Elçibəylə telefonla danışıb, lazımi ciddi tədbirlər görülməsini xahiş edirlər. Təəssüf ki, bütün bu xahişlər, çağırışlar və tələblər nəticə vermədi, prezident və digər rəhbər şəxslər tərəfindən heç bir qəti tədbir həyata keçirilmədi. Çevriliş cəhdində iştirak edən cəbhəçilərə xəbərdarlıq edildi ki, əgər onlar bir saat ərzində Daxili İşlər Nazirliyinin və dövlət televiziya və radio verlişləri komitəsinin binalarını azad etməsələr, silahsız xalq kütləsi özünün təzyiqi ilə buna nail olacaqlar. Camaat Xalq Cəbhəsi silahlılarını dövlət idarələrindən qovub çıxardı. Bakıda hazırlanmış xüsusi cəza dəstəsi Naxçıvana gəlməyə cəsarət etmədi.

Oktyabrın 25-də Naxçıvan MR Ali Məclisinin növbədənkənar sessiyası keçirildi. Sessiyada Heydər Əliyev haqlı olaraq dedi: «Açıq demək lazımdır ki, bu çevriliş cəhdi Muxtar Respublikanın DİN-i və Televiziyanı tutmaq deyil, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və onun rəhbərliyinə qarşı yönəldilmişdi» [29, 1992, 10 noyabr].

1.12.Naxçıvanın muxtariyyət statusunun ləğv edilməsinə cəhd

Heydər Əliyevi muxtar respublikada hakimiyyətdən uzaqlaşdırmaq üçün iqtidar hətta Naxçıvanın muxtariyyət statusunu ləğv etməyə və ya muxtar respublika Ali Məclisinin hüquqlarını məhdudlaşdırmağa cəhd göstərirdi. Respublikanın dövlət katibi 1992-ci il noyabr ayının 2-də Bakı Dövlət Universitetində çıxışında və «Müxalifət» qəzetinə verdiyi müsahibədə Naxçıvanın muxtariyyət statusuna qarşı çıxmışdı [27, 1993, 4 fevral]. Respublikanın bir qrup ziyalıları dövlət katibinin bu məsuliyyətsiz çıxışından narahat olmuş və mətbuatda ona cavab verilmişdi [29, 1993, 16 mart]. AXC-nin II qurultayında da Naxçıvanın mövcud statusunun ləğvindən bəhs

edilmişdi [19, s.322].

AXC-Müsavat hakimiyyəti dövründə prezident aparatının hüquq şöbəsinin müdiri Naxçıvanın muxtariyyətinin ləğv olunması məsələsini Ali Sovetin gündəliyinə çıxarmağa cəhd etmişdi. Bütün bunlar Naxçıvanın muxtariyyət statusunu müəyyən edən, qüvvədə olan Moskva və Qars beynəlxalq müqavilələrinə, habelə 1969-cu il Vyana konvensiyası tələblərinə zidd idi. Naxçıvanın ərazi baxımından Azərbaycandan ayrı düşməsi və ermənilərin Naxçıvanı ələ keçirə bilməməsi üçün ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdi və bu 1921-ci ilin beynəlxalq müqavilələri ilə (Moskva və Qars) rəsmiləşdirilmişdi. Muxtariyyətin ləğvi beynəlxalq müqavilələrin avtomatik ləğvi deməkdir. Bu isə Naxçıvanın siyasi vəziyyətini pisləşdirir və gələcəyini təhlükə altında qoyur.

Lakin Heydər Əliyev diplomatik uzaqgörənliyi sayəsində Naxçıvanın statusunu qoruyub saxladı. 1992-ci ilin martında Türkiyə Respublikasının rəhbərliyi ilə görüşərək Moskva və Qars müqavilələrinin prinsipial müddəalarının qüvvədə olduğunu bütün dünyaya bəyan etdi. Muxtar Respublikanın Ali Məclisi 1992-ci il 25 oktyabr tarixli qərarı ilə mövcud şəraitdə AXC-Müsavat iqtidarının Muxtar Respublikanın statusu ilə bağlı əsassız, zərərli iddialarını qəti rədd etdi. Qeyd olundu ki, «...xüsusi coğrafi və geosiyasi şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər hansı bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan MR-in hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır» [19, s.414].

AXC iqtidarının Heydər Əliyevə görə Naxçıvan Muxtar Respublikasının beynəlxalq müqavilələrlə təsbit olunmuş muxtariyyət statusunu ləğv etmək cəhdi də boşa çıxdı. AXC iqtidarı Heydər Əliyev - Xalq lideri qarşısında məğlub oldu.

Heydər Əliyev o hadisələrdən bir neçə ay əvvəl deyirdi: «Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır» [19, s.830].

1.13.Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması

Heydər Əliyevin Naxçıvan MR-da tarazlı, cəsarətli və uğurlu siyasəti bütün Azərbaycanın diqqət mərkəzində idi. Xalq ona böyük ümidlər bəsləyirdi. Ölkənin mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə əmək adamları dəfələrlə Naxçıvana, Heydər Əliyevin yanına gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş etdilər [18, 1997, 2 dekabr].

Respublika əhalisinin böyük bir hissəsi ölkəni düşdüyü vəziyyətdən çıxarmaq üçün yeni bir partiyanın yaradılmasını zəruri hesab edirdi. Mövcud partiya və təşkilatlara xalqın inamı qalmamışdı. Respublikanın müxtəlif bölgələrində «Heydər Əliyev partiyası» adlı təşkilatlar yaradılırdı. 1992-ci ilin aprel-may aylarında Bakıda Heydər Əliyevdən xəbərsiz onun tərəfdarları mitinqlər keçirir, yaş senzi ilə bağlı Konstitusiyaya edilmiş ədalətsiz əlavənin ləğvini istəyirdilər. Heydər Əliyevin yüz minlərlə tərəfdarlarının vahid, mütəşəkkil, güclü bir təşkilatda birləşməsi tarixi zərurətə çevrilmişdi.

1992-ci ilin avqustunda «Səs» qəzetində çap olunmuş «Heydər bəyi biz çağırmalıyıq!» adlı müraciət qısa müddət ərzində cəmiyyətdə böyük rezonans doğurdu. Həmin il oktyabr ayında ictimaiyyətin mütləq əksəriyyətinin göstərdiyi inadlı və qətiyyətli təsiri altında ölkənin tanınmış ziyalılarının Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə ünvanladıqları «Azərbaycan Sizin sözünüzü gözləyir» müraciəti [38, 1992, 16 oktyabr] bu kompaniyaya rəsmən start verdi. Bu tarixi sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin - Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı. 91 ziyalının timsalında milyonların arzusunun, siyasi seçiminin əks olunduğu məktuba Heydər Əliyev «Yeni, müstəqil Azərbaycan uğrunda» cavabı ilə [19, s.442-446] Əliyevçilərin, yəni xalqın öz milli maraqları istiqamətində mütəşəkkil mübarizəsinə xeyir-dua verdi.

Yeni Azərbaycan Partiyasının təsis konfransını Bakıda keçir-

mək mümkün olmadı. Konfrans 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi. Müxtəlif bölgələrdən 550-dən çox nümayəndə gəlmişdi. Konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunub qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Konfransda YAP-ın İdarə Heyəti, Siyasi Şurası və Nəzarət-Təftiş Komissiyası seçildi [19, s.447; 41, s.30].

Partiyanın 21 noyabr 1992-ci il tarixli bəyanatında qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlətin yaradılması, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirmək uğrunda mübarizə aparmaqdan ibarətdir. «Yeni Azərbaycan Partiyası parlament tipli partiyadır» [9, 1999, 9 iyun]. «Bizim şüarımız müxalifət naminə müxalifət ola bilməz. Bizim prinsipimiz - konstruktivlikdir» [19, s.448].

Heydər Əliyev təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri idi. Heydər Əliyevin məsləhətlərinə məhəl qoymayıb sərişin təsiz siyasəti ilə ölkəni parçalanmaq, vətəndaş müharibəsi həddinə gətirmiş iqtidar başlanmış təhlükəli proseslərin qarşısını almaqda gücsüzlüyünü görüb son anda kömək üçün ona müraciət etdi. 1993-cü ilin iyununda Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan onu gözləyən fəlakətlərdən xilas oldu. Ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı.

1.14. Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi

Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət sabit qalsa da, idarəçilik sahəsində müəyyən boşluqlar, hakimiyyət orqanları arasında anlaşılmazlıqlar yaranmağa başlamış, bir çox sahələrdə mənfi hallar baş qaldırmış, nizam-intizam pozulmuş, işlər zəifləmişdi [24, s. 127]. Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvana başçı seçilmiş Namiq Həsənov prezidentin ona göstərdiyi etimadı

doğrulda bilmədi, muxtar respublikada idarəçilik sahəsində ciddi problemlər yarandı. Ölkə rəhbərliyinin, prezidentin səylərinə baxmayaraq, həmin dövrdə muxtar respublika inkişaf edə bilmədi [21, s. 271].

90-cı illərin ortalarında Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə daxil oldu, dövlət quruculuğunda mühüm işlərə başlamaq üçün ictimai-siyasi sabitlik yarandı. Milli Məclisin qərarı ilə Prezident Heydər Əliyevin sədrliyi ilə 1995-ci il iyun ayının 2-də Konstitusiya Komissiyası yaradıldı. Bu komissiya «Azərbaycan Respublikasının Konstitusiyası» layihəsini hazırladı və 1995-ci il oktyabr ayının 15-də ümumxalq müzakirəsinə verdi. Layihəyə düzəliş və əlavələr edildi. Müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası 1995-ci il noyabr ayının 12-də referendum yolu ilə qəbul olundu. Azərbaycan Respublikasının dövlət quruculuğunun qanuni, hüquqi əsasları yaradıldı.

Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan MR-ə Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi [6, s.54]. Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhəddinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Ali Məclisin - parlamentin sədri muxtar respublikanın ali vəzifəli şəxsidir. İcra Hakimiyyəti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında məsuliyyət daşıyır. Naxçıvan MR-in Ali Məclisi, məhkəmələri qanunla və prezident fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin həllində müstəqildirlər. Muxtariyyətin mövcud olduğu illər ərzində Naxçıvan heç zaman belə yüksək statusa malik olmayıb [9, 1999, 20 iyun]. Muxtar dövlətə xas olan bütün əlamətlər nəzərə alındı.

Azərbaycan Respublikasının yeni Konstitusiyasının 8-ci fəsli Naxçıvan Muxtar Respublikasına həsr edilib. Bununla əlaqədar olaraq, Naxçıvan MR Ali Məclisinin 23 dekabr 1995-ci il tarixli qərarı ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiya yaradıldı. Komissiya muxtar respublikanın yeni Konstitusiya layihəsini hazırlayaraq Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyaya təqdim etdi. Həmin layihə Azərbaycan Res-

publikasının Konstitusiya layihəsini hazırlayan komissiyada dörd dəfə müzakirə olundu. Konstitusiya layihəsi üzərində üç ilə yaxın ən müxtəlif səviyyələrdə müzakirələr getdi. Bir sıra müxalif qüvvələr Naxçıvanın muxtariyyət statusu əleyhinə çıxdılar. Ölkə əhalisinin fikrinə, beynəlxalq təşkilatların rəyinə görə unitar dövlətin tərkibində də muxtar qurum ola bilər. Beynəlxalq ekspertlərin rəyincə Naxçıvan MR-in Konstitusiya layihəsi demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat verir, demokratik dövlətin siyasi və hüquqi təşkili prinsiplərinə uyğundur. Bu, muxtariyyətin əsaslarının müasir tələblərə uyğun qurulmasına zəmin yaradır. Muxtar respublikanın Konstitusiya layihəsi 1921-ci il Moskva və Qars müqavilələri ilə müəyyən edilmiş, Azərbaycan dövlətinin ayrılmaz, toxunulmaz və bölünməz tərkib hissəsi olan Naxçıvanın coğrafi-siyasi vəziyyətinə uyğundur. Bu layihə Azərbaycan dövlətinin öz ərazisində tam suveren hakimiyyətə malik olduğunu təsdiq edir. Konstitusiya layihəsi Naxçıvanın siyasi və sosial xüsusiyyətlərini, tarixi ənənələrini özündə əks etdirir. Layihə Naxçıvanın dövlət quruluşunu, onun təşkilini, ali hakimiyyət orqanlarının səlahiyyətlərini müəyyən edir, muxtar dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı əlaqələrini, Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları ilə münasibətlərini tənzimləyir [9, 1998, 16 yanvar].

Azərbaycan Respublikası Konstitusiya Komissiyasının 1998-ci il yanvarın 14-də keçirilən iclasında Naxçıvan MR-in Konstitusiya layihəsi müzakirə edilərkən ölkə prezidenti, komissiyanın sədri Heydər Əliyev dedi: «Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq» [15, s.89].

Naxçıvan MR-in Konstitusiya layihəsinin son variantı prezident Heydər Əliyevin 12 aprel 1998-ci il tarixli məktubu ilə müzakirə edilmək üçün Naxçıvan MR Ali Məclisinə göndərildi. Konstitusiya layihəsi daxil olan təkliflərlə birlikdə Naxçıvan MR yeni Konstitusiyası layihəsini hazırlayan komissiyanın 23 aprel 1998-ci il tarixli iclasında müzakirə edildi. 1998-ci il aprelin 28-də Naxçıvan MR-in yeni Konstitusiyası Muxtar Respublikanın Ali Məclisində qəbul

edildi və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olundu [9, 1998, 30 dekabr].

İlkin variantda təklif olunan 12 fəsil, 146 maddə son variantda daha yığcamlaşdırılaraq 6 fəsil, 50 maddə oldu, nəticədə isə Konstitusiya daha dolğun, daha bitkin bir sənədə çevrildi.

1.15.Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi

Azərbaycan Respublikası müstəqilliyini bərpa etməsi və yeni Konstitusiyasını qəbul etməsi ilə ölkədə demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu üçün hüquqi əsas yaratdı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritor və proporsional sistemlə ilk seçkilər keçirildi [8, s.379]. Həmin gün Naxçıvan MR parlamentinə də demokratik seçkilər keçirildi [9, 1995, 22 noyabr]. Seçki dairələrində 45 nəfərə qarşı 153 nəfər deputatlığa namizədliyini irəli sürdü [31, s.500]. Keçirilən seçkidə 36 seçki dairəsi üzrə seçkilər baş tutdu. Muxtar respublikada səsvermə hüququ olan vətəndaşlardan 176236 nəfər, yəni ümumi seçicilərin 89,9%-i iştirak etdi [31, s.501]. 8 seçki dairəsində seçkilər baş tutmadığından təkrar seçkilər 26 noyabrda keçirildi.

1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası oldu. Sessiyada digər məsələlərlə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin seçilməsi məsələsinə baxıldı. Naxçıvan Muxtar Respublikası Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini Vasif Talıbov yekdilliklə Ali Məclisin sədri seçildi.

1995-2000-ci illərdə Naxçıvan MR Ali Məclisinin 7 sessiyası keçirildi. Burada muxtar respublikanın dövlət quruculuğu, büdcə və maliyyə məsələləri, ictimai-siyasi, sosial-mədəni inkişaf və başqa mühüm əhəmiyyətli məsələlər müzakirə edildi və qərarlar qəbul edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun problemlərin həlli istiqamətində gündəlik nəzarəti, qayğısı və köməkliyi, muxtar respublikanın iqtisadiyyatının, sənayesinin, sosial sahələrin, tikinti, abadlıq işlərinin aparılmasına, infrastrukturun digər sahələrinə əsaslı təsir etdi, həlli çatmış prob-

lemlərin, çətinliklərin tez bir zamanda operativ həll edilməsinə zəmin yaratdı, muxtar respublika inkişaf və tərəqqi yollarında inamla addımlamağa başladı [30, s.5].

2000-ci ilin noyabrında Azərbaycan Respublikasında yeni parlament seçkiləri təşkil olundu. Mərkəzi Seçki Komissiyasında 17 siyasi partiya və bir seçki bloku qeydiyyatdan keçdi. Demokratik konqresə üzv partiyaların demək olar ki, hamısı seçkilərdə iştirak etdi. Xalqın fəal iştirakı ilə 2000-ci il noyabrın 5-də keçirilən parlament seçkiləri nəticəsində Azərbaycan Respublikasının yeni parlamenti yarandı və qanunvericilik fəaliyyətinə başladı [8, s.380].

Naxçıvan MR Ali Məclisi Sədrinin 31 iyul 2000-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 2000-ci il noyabr ayının 5-nə təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 5 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı. 210 min seçicini əhatə edən 259 seçki məntəqəsi yaradıldı [31, s.524]. 5 seçki dairəsində 16, 45 seçki dairəsində isə 95 nəfərin namizədliyi qeydə alındı.

Seçki günü seçici siyahılarında 209412 nəfər seçici olmuş, onlardan 164892 nəfəri seçki bülleteni alaraq seçkidə iştirak etmişdir. Yəni seçicilərin 78,7 faizi seçkilərdə iştirak etdi. Naxçıvan MR Ali Məclisinə seçkilərin nəticələrini Naxçıvan MR Ali Məhkəməsi 20 noyabr 2000-ci il, Naxçıvan MR MSK 21 noyabr 2000-ci il tarixli qərarları ilə 45 birmandatlı dairə üzrə deputatların seçildiyini təsdiq etdi [39, 2000, 22 noyabr].

2000-ci il dekabrın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirildi. Sessiyada Vasif Talıbov ikinci dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. 1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik etmiş Vasif Talıbovun məqsədyönlü, düşünülmüş, səriştəli idarəetmə taktikası, prinsipial mövqeyi, dövlətçiliyə sədaqəti, bacarığı və enerjisi, Naxçıvan diyarının ərazi bütövlüyünün qorunub möhkəmləndirilməsi məsələlərini bacarıqla həll etməsi onun həmin vəzifəyə yekdilliklə seçilməsi ilə nəticələndi. Sessiyada Naxçıvan Muxtar Respublikasının 2001-ci il Dövlət büdcəsi təsdiq edildi, Ali Məclisin 6 daimi kommisiyası yaradıldı [39, 2000, 9 dekabr].

2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altı sessiyası keçirilmiş, burada muxtar respublikanın daxili həyatı, dövlət quruculuğu, ictimai-siyasi, sosial-iqtisadi inkişafı, Dövlət büdcəsi və onun icrası haqqında və başqa məsələlər müzakirə edilmişdir. 2003-cü ilin yanvarın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında «2003-cü ilin Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ili elan edilməsi haqqında» qərar qəbul edildi. Qərarda deyilir: «Xalqımızın əvəzedilməz liderinin 35 ilə yaxın bir müddətdə Azərbaycanın rəhbəri kimi siyasi fəaliyyəti, milli və müstəqil dövlət quruculuğu təcrübəsi müasir tariximizin ən mühüm mərhələsini təşkil edir... Tarixdə tək-tək şəxsiyyətlərə qismət olubdur ki, xalqının sonsuz və dərin məhəbbətini qazana bilsin, həyatı, əməlləri öz ölkəsinin həyatı ilə bağlı olsun, vəhdət təşkil etsin. Möhtərəm Heydər Əliyevin dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər, daim xalqının milli maraqlarından çıxış etməsi, beynəlxalq sistemdə cüzi dəyişikliyi belə nəzərə almağı bacaran planetar təfəkkür sahibi olması onu nəinki iyirminci yüzilliyin, eyni zamanda iyirmi birinci yüzilliyin də dahi şəxsiyyəti kimi bütün dünyaya tanıtmışdır. Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini və anadan olmasının 80 illiyini nəzərə alaraq... 2003-cü il Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ili elan edilsin» [39, 2003, 9 yanvar].

2004-cü il yanvarın 6-da ikinci çağırış Naxçıvan Muxtar Respublika Ali Məclisinin beşinci sessiyasında Heydər Əliyev ili adlandırılan 2003-cü ilin əsas yekunları təhlil edildi. «2003-cü ildə muxtar respublikada cari qiymətlərlə 610 milyard manata yaxın, yaxud 2002-ci illə müqayisədə 16 faiz artıq ümumi məhsul istehsal edilmişdir» [39, 2004, 8 yanvar].

300-ə qədər yeni sosial obyektlər istifadəyə verildi və ya əsaslı bərpa edildi, ordu quruculuğu sahəsində ciddi işlər görüldü, tikinti-energetika kompleksi hərəkətə gətirildi, geniş abadlaşdırma, quruculuq tədbirləri davam etdirildi, suvarma-meliorasiya işləri artırıldı və s.

Üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 iyul 2005-ci il tarixdə sərəncam imzaladı və

Azərbaycan Milli Məclisinə seçkilər 2005-ci il noyabrın 6-na təyin edildi. Bu sərəncama uyğun olaraq Naxçıvan MR Ali Məclisi sədrinin 25 iyul 2005-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər də 2005-ci il noyabr ayının 6-na təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 7 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı.

Hələ 7 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində seçkilərə hazırlıqla bağlı qarşıda duran vəzifələr geniş müzakirə olundu. Ali Məclisin sədri Vasif Talıbov Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda 6 noyabrda həm Ölkə Parlamentinə, həm də Muxtar Respublika Ali Məclisinə seçkilərin keçiriləcəyini xatırlatdı, bu şərəfli və məsuliyyətli siyasi tədbirin yüksək səviyyədə, tam demokratik şəkildə, qanunvericiliyə uyğun qaydada təşkilini bütün aid qurumların qarşısında qəti vəzifə kimi qoydu. 9 iyul 2005-ci il tarixdə 2-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında «Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında» Naxçıvan MR Qanunu qəbul olundu. 13 fəsildən, 105 maddədən ibarət bu qanunda [35, s.187-282] ümumi, bərabər, azad, gizli, birbaşa seçki prinsipləri təsbit olundu, bunun üçün müvafiq hüquqi baza yaradıldı. Ali Məclisin həmin sessiyasında Naxçıvan Muxtar Respublikası MSK-nın hamısı bitərəf olmaqla 7 nəfərdən ibarət yeni tərkibi də təsdiq edildi.

Azərbaycan Milli Məclisinə 7 dairə üzrə 42 namizəd qeydə alınmış, seçkilərdə 32 namizəd iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə 45 dairə üzrə müxtəlif siyasi partiyalara mənsub, yaxud bitərəf olan 145 namizəd qeydə alınmışdı.

Ölkə Prezidenti İlham Əliyevin imzaladığı «Seçki praktikasının təkmilləşdirilməsinə dair» 11 may 2005-ci il və «Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında» 25 oktyabr tarixli sərəncamları seçkilərin azad, şəffaf və demokratik keçirilməsinə, seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələrinə imkan yaratdı.

Azərbaycanda keçirilən parlament seçkilərində ilk dəfə olaraq «exit-poll»un təşkili ilə əlaqədar müddəalara da xüsusi diqqət yetirildi.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatına görə 125 seçki dairəsi üzrə 5137 seçki məntəqəsi yaradılmış və həmin məntəqələr üzrə 4 milyon 660 min seçici qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikası üzrə Azərbaycan Respublikasının Milli Məclisinə 7 seçki dairəsi üzrə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 45 seçki dairəsi üzrə 275 mülki və 23 hərbi (qapalı) seçki məntəqələri yaradıldı ki, bu seçki məntəqələrində də 236441 nəfər seçici siyahılarına daxil edildi [35, s.19].

Naxçıvan Muxtar Respublikasında seçki dairələri üzrə seçicilərdən 137143 nəfəri, yəni 58,1 faizi seçkilərdə iştirak etdi. Ölkəmizin seçki tarixində ilk dəfə olaraq keçirilən «exit-poll»un nəticələri Mərkəzi Seçki Komissiyasının nəticələri ilə üst-üstə düşdü. Azərbaycan üzrə «exit-poll» keçirilmiş 65 dairədən 58-də, Naxçıvan MR-də isə seçki dairələrinin hamısında ümumi göstərici mərkəzi Seçki Komissiyasının ilkin nəticələri ilə adekvat idi.

Seçkinin nəticələrinə görə dairələrin böyük əksəriyyətində YAP təmsilçiləri qalib gəldi. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində deputat yeri əldə etmiş 45 nəfərdən 39-u (86,7%) YAP-ı, 2-si (4,4%) AXCP-ni təmsil edir. Seçilmiş deputatlardan 4 nəfəri (8,9%) isə bitərəfdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 21 noyabr 2005-ci il tarixdə 45 seçki dairəsi üzrə seçkilərin nəticələrini bütövlükdə təsdiq etdi.

2005-ci il noyabrın 28-də üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I sessiyası keçirildi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, sədrin müavinlərinin, Daimi Komissiya sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, 2006-cı il Dövlət büdcəsinin təsdiqi, «Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında» Naxçıvan Muxtar Respublikasının Qanunu və b. məsələlər təsdiq edildi [39, 2005, 29 noyabr]. Heydər Əliyev dövlətçilik məktəbinin layiqli yetirməsi, tanınmış ictimai-siyasi xadim Vasif Talıbov yenidən – üçüncü dəfə açıq səsvermə yolu ilə yekdilliklə Muxtar Respublika Ali Məclisinin sədri seçildi.

Üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquz sessiyası keçirilmiş, bu sessiyalarda muxtar respublikanın

iqtisadi həyatı, müxtəlif illərdə (2005-2010-cu illərdə) Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları, İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) seçilməsi, Ombudsmanın hesabatları, müxtəlif illər üzrə Dövlət büdcəsinin təsdiqi və icrası vəziyyəti və b. məsələlər müzakirə edilmiş, qərarlar qəbul edilmişdir.

2006 və 2007-ci illərdə Muxtar Respublikada çox böyük quruculuq tədbirləri həyata keçirilmiş, ümumi daxili məhsul 2005-ci illə müqayisədə 2006-cı ildə 27 faiz artmış (405657 min manat təşkil etmişdir), 29 istehsal müəssisəsi fəaliyyətə başlamış, sənaye istehsalının həcmi müvafiq olaraq 64 faiz artmış (70444 min manat olmuşdur), 2006-cı ildə 8044 yeni iş yeri açılmış, 757 obyektdə tikinti, əsaslı təmir, yenidənqurma, bərpa və təmir işləri görülmüşdür [39, 2007, 11 yanvar]. 2007-ci il muxtar respublikada sənayenin, tikintinin, kənd təsərrüfatı, meliorasiya, kommunikasiya və sosial-mədəni sahələrin, maliyyə-bank sektorunun inkişafı baxımından da yaddaqalan olub. İl ərzində 793 obyektə tikinti, əsaslı təmir, yenidənqurma və bərpa işləri aparılıb ki, bu da təxminən hər gün ərzində 2,5 obyektin istifadəyə verilməsi demək olub [9, 2009, 22 yanvar]. 2008-ci il Naxçıvan Muxtar Respublikasında inkişaf və tərəqqi ili elan edilmişdir. Bu ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 35,5 faiz artaraq 795764 min manat olmuşdur. Sənaye məhsulu istehsalı 26,7 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 11,5 faiz artmışdır. Ümumiyyətlə, 2008-ci ildə muxtar respublika üzrə müxtəlif təyinatlı 854 obyekt istifadəyə verilmiş, 91 obyektdə isə tikinti-quraşdırma və təmir işləri davam etdirilmişdir [37, 2009, 8 fevral].

Naxçıvan Muxtar Respublikasında 2009-cu il nizam-intizam ili elan edilmişdir. Bu, təkcə əmək intizamının gücləndirilməsi kimi başa düşülməmiş, hər bir işçinin ona tapşırılan sahədə məsuliyyətinin gücləndirilməsi, işə və onun nəticəsinə şüurlu münasibət, idarəetmə və icra mədəniyyətinin artırılması kimi dərk edilmiş və tətbiq olunmuşdur [39, 2009, 29 dekabr]. Muxtar respublikada 2009-cu il ilk növbədə sosial-iqtisadi sahədə yeniləşmə və quruculuq tədbirlərinin daha da dərinləşməsi dövrü kimi yadda qalmışdır. 2004-2008-ci illər üzrə regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası ilə bağlı həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində muxtar

respublikada 37 mindən çox yeni, o cümlədən 23675 daimi iş yeri açılmış, 1236 yeni istehsal və xidmət sahələri yaradılmış, 334 yeni sənaye müəssisəsi istifadəyə verilmişdir. Əgər 1995-ci ildə muxtar respublikada 56 sənaye müəssisəsi vardısa, ötən 15 il ərzində bu müəssisələrin sayı 420-yə çatmışdır. 2009-cu ildə ümumi daxili məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini üstələmiş, adambaşına düşən həcmi isə 2435 manat təşkil etmişdir [9, 2009, 30 dekabr]. Yeniləşmə ili olan 2010-cu ildə də Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri ictimai həyatın bütün fəaliyyət istiqamətlərində əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir. Məhz bu baxımdan hazırki dinamik inkişaf muxtar respublikanın tarixinin intibah mərhələsi kimi yaddaşlara həkk olunmaqdadır. Həyata keçirilən irimiqyaslı islahatların nəticəsidir ki, bu gün Naxçıvan Muxtar Respublikası iqtisadi fəallıq üzrə öz statusunu aqrar bölgədən sənaye regionuna dəyişməklə yeni imic qazanmışdır. Hazırda muxtar respublikanın təbii ehtiyatlarının və istehsal imkanlarının səfərbər edilməsi ilə iqtisadi və sosial inkişafda yeni uğurlu nəticələr əldə edilməkdədir.

Muxtar respublikada həyata keçirilən qurulucuq tədbirləri ilə yerindəcə tanış olan Ölkə Prezidenti İlham Əliyev demişdir: «Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvan rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm» [9, 2009, 5 avqust].

Dördüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 sentyabr 2010-cu il tarixdə sərəncam imzaladı və Azərbaycan Milli Məclisinə seçkilər 2010-cu il noyabrın 7-nə təyin edildi. Bu sərəncama uyğun olaraq Naxçıvan MR Ali Məclisi sədrinin 4 sentyabr 2010-cu il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər də 2010-cu il noyabr ayının 7-nə təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri 7 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı. Respublikada seçkilərin de-

mokratik, şəffaf, azad və ədalətli keçirilməsi üçün həm seçki ərəfəsində, həm də təbliğat-təşviqat dövründə bir sıra tədbirlər həyata keçirildi. Aprel ayında Bakıda "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda beynəlxalq konfrans keçirildi. Respublikamızda seçki praktikasının daha da təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və qabaqcıl dünya təcrübəsinin tətbiq olunması üçün Seçki Məcəlləsinə bir sıra əlavələr və dəyişikliklər edildi. Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının Milli Məclisi və Naxçıvan MR-in Ali Məclisi seçkilərinə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirildi. Müşavirədə seçkilərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə uyğun təşkil edilməsi aid təşkilatlardan tələb edildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, muxtar respublika Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı və ATƏT-in Bakı ofisinin təşəbbüsü ilə Naxçıvanda "Seçki prosesinə qeyri-qanuni müdaxilənin yolverilməzliyi" mövzusunda sessiya keçirildi.

Azərbaycan Milli Məclisinə 125 dairə üzrə 690, o cümlədən Naxçıvan Muxtar Respublikasında 7 dairə üzrə 38 nəfər namizədliyini irəli sürmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə 45 dairə üzrə müxtəlif siyasi partiyalara mənsub, yaxud bitərəf olan 140 namizəd qeydə alınmışdı. Azərbaycan Respublikasında yaradılmış 5414 seçki məntəqələri üzrə 4.928.594 seçici qeydə alınmış, bunlardan 2.442.365 nəfər sesvermədə iştirak etmişdir (50,14 faiz).

Naxçıvan Muxtar Respublikası üzrə Ali Məclisə seçkilərin keçirilməsi üçün yaradılmış 316 seçki məntəqəsi üzrə 256317 seçici siyahısına daxil edilmiş, onlardan 174780 nəfəri, yəni 68,2 faizi səsvermədə iştirak etmişdir.

Səsvermənin gedişini 1000-dən artıq beynəlxalq müşahidəçi və 47 minə qədər yerli müşahidəçi izləmişdir. Naxçıvan Muxtar Respublikasının seçki məntəqələrində namizədlərin vəkil etdiyi 127 nəfər şəxs 273 nəfər yerli müşahidəçi, həmçinin 33 nəfər beynəlxalq və 32 nəfər müxtəlif siyasi partiyaların müşahidəçiləri seçkilərin gedişini

və səslərin hesablanmasını izləmişlər. 118 dairədə "exit-poll" həyata keçirilmiş, seçkilərin nəticələri elektron-seçki sistemi ilə hesablanmışdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 29 noyabr 2010-cu il tarixində 125 seçki dairəsi üzrə seçkilərin nəticələrini təsdiq etdi. Naxçıvan MR-in Ali Məhkəməsi 19 noyabr 2010-cu il tarixdə muxtar respublikada seçkilərin nəticələrini təsdiq etdi. Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinə 125, Naxçıvan MR Ali Məclisinə 45 nəfərin deputatlığı qəbul edildi.

8 dekabr 2010-cu il tarixdə dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I sessiyası keçirildi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, sədr müavinlərinin, Daimi komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, "Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunun, 2011-ci il Dövlət büdcəsinin təsdiqi və b. məsələlər təsdiq edildi. Görkəmli ictimai-siyasi xadim, Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafında müstəsna xidmətləri olan Vasif Talıbov yenidən - dördüncü dəfə yekdilliklə Muxtar Respublika Ali Məclisinin sədri seçildi.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Ali Məclisinə keçirilən seçkilər Seçki Qanununun tələblərinə uyğun demokratik, şəffaf və azad surətdə, seçkilərin yüksək fəallığı şəraitində keçirilmiş və ən layiqli namizədlər deputat seçilmişlər. Formalaşdırılan Naxçıvan Muxtar Respublikası Ali Məclisi muxtar respublikanın qarşısında duran vəzifələrin uğurla yerinə yetirilməsi üçün lazımi siyasi, sosial-iqtisadi və təşkilati tədbirləri həyata keçirmişdir.

1.16. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd edilməsi

Naxçıvan Muxtar Respublikasının yaranmasının böyük tarixi-siyasi əhəmiyyəti vardır. Bu, həm də Azərbaycan xalqının tarixində özünəməxsus yer tutur. Bu cəhətləri nəzərə alan Azərbaycan Respulikasının Prezidenti Heydər Əliyev 1999-cu il fevralın 4-də «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haq-

qında» fərman imzaladı. Fərmanda deyilir: «Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir...» [9, 1999, 5 fevral]. Naxçıvan muxtar diyarının Naxçıvan MSSR-yə çevrilməsi Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyəti idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının tədbirlər planı haqqında» 12 fevral 1999-cu ildə sərəncam imzaladı. Sərəncamda deyilir: «Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş elmi-praktik konfransların, yaradıcılıq ittifaqlarının, yubiley sessiyalarının, Naxçıvana həsr olunmuş musiqi və rəngkarlıq əsərlərindən ibarət festival və sərgilərin keçirilməsi, «Naxçıvan statistika güzgüsündə» tarixi-statistik məcmuəsinin hazırlanması və nəşri nəzərdə tutulmuşdur...» [37, 1999, 13 fevral].

Tədbirlər planında Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr olunmuş ümumrespublika təntənəli gecəsinin keçirilməsi, Azərbaycanın şəhər və rayonlarında muxtar respublikanın yubileyi ilə əlaqədar tədbirlərin təşkil edilməsi, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş beynəlxalq elmi simpoziumun keçirilməsi, Naxçıvan diyarının, İrəvan xanlığının və qərbi Azərbaycanın tarixinə dair tədqiqat əsərlərinin nəşr edilməsi, elm və təhsil müəssisələrində elmi sessiya və konfransların keçirilməsi də öz əksini tapmışdır.

Yubiley münasibətilə çap məhsullarının buraxılması, Naxçıvanın tarixinə və mədəniyyətinə dair yeni tədqiqatların, sənədlər toplusunun nəşr edilməsi, «Naxçıvan ensiklopediyası»nın hazırlanmasından ötrü xüsusi qurumun yaradılması, həmin ensiklopediyanın nəşr olunması, Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin nəzdində Naxçıvanın tarixini və mədəniyyətini tədqiq edən qurumun yaradılması da tədbirlər planına daxil idi.

Naxçıvan Muxtar Respublikasının təşkil edilməsinin 75 illiyi ilə əlaqədar Bakı şəhərində, müxtəlif rayonlarda tədbirlər, elmi

konfranslar keçirildi. Naxçıvan diyarına muxtariyyət statusunun verilməsi və onun muxtar respublikaya çevrilməsi tarixi ilə əlaqədar Azərbaycan Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunda, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Neft Akademiyasında, Azərbaycan Dövlət Pedaqoji Universitetində, Naxçıvan Dövlət Universitetində və b. elm və təhsil müəssisələrində elmi konfranslar keçirildi və konfransın materialları çap edildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə keçirilən bayram şənliklərində iştirak etmək üçün 1999-cu il oktyabrın 10-da Naxçıvana gəldi. Hələ Binə hava limanında jurnalistlərə verdiyi müsahibələrində qeyd etdi ki, «Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan xalqının, respublikasının həyatında tarixi hadisədir. Bu respublikanı vaxtilə yaradanlar çox müdrik, uzaqgörən insanlar olublar, Azərbaycan torpaqlarının ayrı-ayrı iddiaçılar tərəfindən parçalanmasının qarşısını alıblar» [21, s.12].

Azərbaycan Prezidenti Naxçıvanda keçirilən tədbirlərdə – «Kazım Qarabəkir Paşa məscidi»nin, Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun, Ticarət tədris mərkəzinin, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının, C.Məmmədquluzadənin ev muzeyinin və b. yeni müəssisələrin açılışında iştirak və çıxış etdi. Oktyabrın 12-də muxtar respublikanın 75 illiyinə həsr olunmuş təntənəli yubiley iclası keçirildi. Tədbirdə Türkiyə Cümhuriyyətindən, İran İslam Respublikasından gələn rəsmi nümayədələrlə yanaşı, xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirləri, respublika paytaxtından gəlmiş elm, mədəniyyət xadimləri, şairlər yazıçılar da iştirak edirdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov muxtar respublikanın yaranması, inkişaf tarixi, qazandığı nailiyyətlər haqqında məruzə etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yubiley tədbirində dərin məzmunlu çıxışında qeyd etdi ki, Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün... Moskva müqaviləsinin və xüsusən Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin

burada böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir [9, 1999, 14 oktyabr].

Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd edilməsi bir daha təsdiq etdi ki, Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri bu diyara muxtariyyət, dövlətçilik statusunun verilməsi olmuşdur. «Naxçıvanın beynəlxalq hüquqi təminata malik muxtariyyət statusu bu bölgəyə göz dikən ermənilərə göz dağı» [12, 2004, 14-20 fevral] olmuşdur.

1.17. Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfərləri

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2002-ci il iyunun 15-də Naxçıvana gəldi. Naxçıvanlılar əlamətdar bayram günündə - Milli Qurtuluş günündə dövlət başçısını yüksək sevinc və hərarətlə qarşıladılar. Gəlişinin ilk günü Heydər Əliyev bildirdi ki, blokadada, çətin şəraitdə olan Naxçıvana xüsusi qayğı göstərmək, kömək etmək lazımdır. Naxçıvan blokada şəraitində olduğuna görə, mənim Naxçıvan haqqında siyasətimin bir hissəsi insanların Naxçıvanda məskunlaşması, yaşamasıdır [18, 2002, 18 iyun].

Heydər Əliyev Naxçıvanda Olimpiya-İdman Kompleksinin açılışında, «N» saylı hərbi hissədə keçirilən mərasimlərdə iştirak etdi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında müdavimlərlə görüşdü. İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Naxçıvan MR-də yerləşən hərbi hissələrin komandirləri ilə müşavirə keçirdi. Dövlətimizin başçısı hərbi hissələrin problemləri, qayğıları ilə maraqlandı, dövlət sərhədlərinin daha möhkəm qorunması sahəsində qarşıda duran vəzifələrdən danışdı, hərbiçilərə öz əmrlərini və tapşırıqlarını verdi. İyunun 18-də görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin xatirəsinə yaradılmış muzeyin açılış mərasimində iştirak və çıxış etdi. Muzeyin otaqlarını gəzdi və eksponatlarla tanış oldu. Azərbaycan Prezidenti həmin gün Naxçıvan Ali Məclisində Muxtar Respublikanın dövlət hakimiyyəti

orqanlarının nümayəndələri ilə müşavirə keçirdi. Müşavirəni Prezident Heydər Əliyev açdı. Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov Muxtar Respublikanın sosial-iqtisadi həyatı barədə məlumat verdi, bu sahədə görülən işlərdən danışdı.

Azərbaycan Prezidenti müşavirədə geniş nitq söylədi. Dövlətimizin başçısı Muxtar Respublikanın hakimiyyət orqanları qarşısında duran vəzifələrdən danışdı, tövsiyyələrini və konkret tapşırıqlarını verdi.

İyunun 19-da Ölkə başçısı şəhərlə tanış oldu, Əcəmi seyrangahını gəzdi. Prezident Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında keçirilən tədbirlərdən razı qaldığını bildirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev 2002-ci ildə ikinci dəfə Muxtar Respublikaya səfər etdi. Dövlətimizin başçısı avqustun 10-da Naxçıvana gəldi. Naxçıvanlılar Ölkə başçısını yüksək coşğunluqla və sevinclə qarşıladılar.

Avqustun 11-də Heydər Əliyev Şahbuz rayonunun zəhmətkeşləri ilə görüşdü, rayonun sosial-iqtisadi vəziyyəti ilə tanış oldu, sakinlər qarşısında çıxış etdi. Ölkə başçısı kolanılılarla, biçənəklilərlə görüşüb söhbət etdi, Batabatda oldu. Həmin gün Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə Naxçıvan MR Ali Məclisində müşavirə keçirildi. Müşavirə Naxçıvan Hava Limanının yenidən qurulmasına həsr olundu. Naxçıvan hava limanı 1974-cü ildə tikilmiş və «YAK-40» təyyarələri üçün nəzərdə tutulmuşdu. 1992-ci ildə burada uzunluğu 3300 metr olan ikinci uçuş-enmə zolağı tikilmişdi. Naxçıvan ermənilər tərəfindən blokadaya alındığından, dəmir yolu və şose yolu işləmədiyindən əhali ancaq təyyarələrdən istifadə etməli olurdu. Hazırkı hava limanı isə tələbatı ödəmir. Müşavirədə Beynəlxalq hava limanının tikilməsi müzakirə edildi və bu işin 2003-cü ilin sonunadək qurtarılması qərara alındı. Müşavirədə çıxış edən Heydər Əliyev dedi: «Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr burdan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də böyük əhəmiyyəti olacaqdır» [9, 2002,

13 avqust].

Prezident Heydər Əliyev avqustun 7-də AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzaladı. [9, 2002, 8 avqust]. Avqustun 12-də həmin sərəncamdan irəli gələn vəzifələrlə bağlı Naxçıvan MR-in Ali Məclisində Muxtar Respublikanın rəhbər işçilərinin, Ali Məclisin deputatlarının, MEA-nın nümayəndə heyətinin, tanınmış alimlərin, ictimaiyyətin iştirakı ilə geniş müşavirə keçirildi. Azərbaycan Prezidenti bildirdi ki, «...mən Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzalamışam. Bu sərəncamda da bu bölmənin qarşısında duran vəzifələr haqqında qısa fikirlərimi bildirmişəm.

Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var» [42, 2002, 13 avqust].

Azərbaycan Prezidenti çıxışında Naxçıvan Bölməsinin yaradılması zəruriliyindən və qarşıda duran vəzifələrdən bəhs etdi. Qeyd etdi ki, «...bizim böyük məqsədimiz Naxçıvanın tarixini bütün, hərtərəfli öyrənmək, tədqiq etmək» [14, s.23], Gəmiqaya kimi abidəni öyrənməklə «Azərbaycanın qədim tarixini təsdiq edən sübutlar tapmaqdır» [14, s.23].

Ölkə Prezidenti Heydər Əliyev qeyd etdi ki, Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması geniş müzakirə edilməlidir. Müşavirədə MEA-nın prezidenti M.Kərimov çıxış etdi, təkliflərini bildirdi. Müzakirələrdə S.Babayev, İ.Həbibbəyli, L.Hüseynzadə, İ.Hacıyev, V.Əliyev və b. çıxış edib arzu və təkliflərini bildirdilər.

Avqustun 12-də Ölkə başçısı muxtar respublikada böyük bir ərazidə suvarmanın təmin olunmasında mühüm rol oynayacaq Vayxır su anbarında əsaslı yenidənqurma və bərpa işlərinin gedişi ilə ya-

xından tanış olmaq üçün buraya gəldi. Heydər Əliyev əraziyə baxdı, mütəxəssislərin rəylərini dinlədi, su anbarının tikintisində işlərin sürətləndirilməsi üçün tövsiyələrini verdi. Avqustun 13-də Naxçıvan MR Ali Məclisində Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə Vayxır su anbarının tikintisinə həsr olunmuş müşavirə keçirildi. Qeyd olundu ki, Vayxır su anbarı 1981-ci ildə layihələşdirilib, 1982-1983-cü illərdə inşaat işlərinə başlanılıb. 40 metr hündürlüyündə torpaq bənd çəkilmiş, 25 milyon kubmetr su tutan su anbarı yaradılmış, su buraxıcı qurğunun qapıları, tuneli, qəza su tullayıcısının şaxtası və tuneli başa çatdırılıb istismara verilib [9, 2002, 16 avqust]. Vayxır su anbarının inşası 1989-cu ildə dayandırılıb, layihə gücünə çatdırılmayıb. Müşavirədə Vayxır su anbarının layihə gücünə çatdırılması, üzərində 4,5 meqavat gücündə hidroelektrik stansiyasının tikilməsi, görüləcək bütün işlərin yüksək keyfiyyətlə aparılması diqqətə çatdırıldı. Naxçıvanın xüsusi qayğıya ehtiyacı olduğu göstərilməklə, bu qayğıdan, köməkdən, yardımdan səmərəli istifadə edilməsi də xüsusi qeyd edildi.

Avqustun 14-də Azərbaycan Prezidenti Naxçıvan MR-in Sədərək, Şərur və Babək rayonlarının sakinləri ilə görüşlər keçirdi, onların problemləri ilə maraqlandı, həlli üçün konkret tapşırıqlar verdi. Ölkə başçısının Azərbaycan Respublikası ilə Ermənistan Respublikasının sərhəddində yerləşən Sədərək rayonu ərazisində Ermənistan prezidenti ilə təkbətək görüşü oldu. Görüş 4 saatdan çox davam etdi.

Azərbaycan Prezidentinin Naxçıvana səfərləri bu bölgənin sosial-iqtisadi inkişafına təkan verdi, yeni müəssisələrin – elm, təhsil, mədəniyyət müəssisələrinin yaranması ilə nəticələndi, bir sıra iri proqramların həyata keçirilməsinin əsasını qoydu.

Ölkə başçısı Naxçıvanda görülən işləri, həyata keçirilən tədbirləri, quruculuq və abadlıq işlərini yüksək qiymətləndirdi, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun təşkilati fəaliyyətindən razı qaldığını bildirdi.

1.18. Naxçıvan Muxtar Respublikasının 80 və 85 illiyinin qeyd edilməsi.

Prezident İlham Əliyevin Naxçıvana səfərləri.

Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü il fevralın 9-da «Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında» sərəncam imzaladı. Sərəncamda Naxçıvan Muxtar Respublikasının yaradılmasının və bu əlamətdar tarixin qeyd olunmasının Azərbaycan üçün böyük tarixi-siyasi əhəmiyyəti vurğulanır və 1999-cu ildə Prezident Heydər Əliyevin imzaladığı «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» geniş məzmunlu fərmanın tarixi əhəmiyyəti qeyd olunur. Sərəncamda deyilir: «Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir» [9, 2004, 10 fevral]. Bu sərəncamla Naxçıvanda quruculuq və yenidənqurma işləri daha da sürətləndi, həyat daha da qaynar oldu.

Ölkə Prezidentinin sərəncamına uyğun olaraq Naxçıvan MR-in yaradılmasının 80 illik yubileyi respublikada, onun ayrı-ayrı şəhər və rayonlarında, elm və təhsil müəssisələrində qeyd edildi, elmi konfranslar keçirildi, mətbu orqanlarda məqalələr çap edildi. AMEA Naxçıvan Bölməsində «Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi» elmi konfransı Naxçıvan MR-in 80 illiyinə həsr edildi [33]. Naxçıvan Dövlət Universitetində keçirilən konfransın materialları çap edildi [32].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 27 fevral tarixi sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı [37, 2004, 28 fevral]. Azərbaycan Prezidenti 2004-cü il

martın 19-da Şərur və Babək rayonlarının əraziləri hesabına Kəngərli rayonunun yaradılması haqqında fərman verdi [37, 2004, 20 mart].

Naxçıvan Muxtar Respublikası mayın 12-14-də özünün əlamətdar və tarixi günlərini yaşadı. İlham Əliyev Azərbaycan Prezidenti kimi bu qədim diyara səfər etdi. Naxçıvan Beynəlxalq Hava Limanının açılışı həyata keçirildi. Dövlət başçısı nitq söylədi və hava limanının rəmzi açılışını bildirən lenti kəsdi. Müasir memarlığın ən mühüm elementlərini özündə cəmləşdirən bu yaraşıqlı hava limanı kompleksi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır, onun xeyirduası, qayğı və himayəsi ilə tikilib ərsəyə gəldi. Tikinti işlərinə 2002-ci il oktyabrın 1-də başlanılmış və bu işləri Türkiyənin «Eren port» şirkəti aparmışdı. Layihənin ümumi dəyəri 193,5 milyon manat idi [18, 2004, 19 may]. Beynəlxalq standartlara uyğun tikilmiş, muxtar respublikanın iqtisadi və sosial həyatında mühüm rol oynayacaq bu hava limanını tikmək üçün yerli mütəxəssislərlə yanaşı, Türkiyədən və Avropa ölkələrindən də gəlmiş mütəxəssislər iştirak etdilər. Lazımi avadanlıq, cihaz və ləvazimatlar isə İngiltərədən, Fransadan, Danimarkadan, Almaniyadan, Rusiyadan, İrandan, Koreyadan, Çindən, Yaponiyadan və Türkiyədən gətirildi. Ən böyük və ağır yüklü «Boinq - 747» tipli təyyarələri qəbul edə bilən Naxçıvan Beynəlxalq Hava Limanı Naxçıvan Muxtar Respublikasının beynəlxalq aləmə daha sıx inteqrasiya olunacağı imkanını yaratdı. Hava limanının açılış mərasimində naxçıvanlıları təbrik edən Ölkə Prezidenti İlham Əliyev dedi: «Naxçıvan hava limanına beynəlxalq status verilibdir. Bu statusdan istifadə edib digər marşrutlar üzərində işləmək mümkün olacaqdır» [37, 2004, 19 may].

Prezident İlham Əliyevin Naxçıvan səfəri tədbirlər planının zənginliyi ilə diqqəti cəlb etdi. Beynəlxalq aeroportla yanaşı, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanasının, AMEA-nın Naxçıvan Bölməsi üçün yeni inzibati binanın, Əlillərin Bərpa Mərkəzinin açılışında iştirak və çıxış etdi. Heydər Əliyev adına təhsil kompleksi, sənaye kompleksi, Vayxır su anbarının tikintisi ilə tanışlıq, «N» saylı hərbi hissədə əsgər və zabitlərlə görüş, Ali Məclisdə müşavirə də keçirildi.

Naxçıvan MR Ali Məclisinin binasında keçirilən geniş müşa-

virədə Prezident İlham Əliyev muxtar respublikada müşahidə edilən sosial-iqtisadi inkişaf tempindən razı qaldığını və genişmiqyaslı quruculuq işlərindən məmnun olduğunu bildirdi. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın (2004-2008-ci illər) icrasına toxunan Prezident Dövlət Proqramının Naxçıvanda uğurla həyata keçirildiyini qeyd etdi, muxtar respublikada gedən inkişaf prosesini, quruculuq işlərini yüksək qiymətləndirdi: «Naxçıvanda gedən proseslər çox uğurludur... sosial-iqtisadi islahatlar, quruculuq işləri, yeni müəssisələr yaradılması-bütün bunlar çox müsbət haldır. Mən çox şadam, çox sevinirəm ki, Naxçıvan belə yüksək ahənglə inkişaf edir» [9, 2004, 11 iyun].

Prezidentin səfərinin üçüncü günü muxtar respublikanın yaradılmasının 80 illiyi münasibətilə tədbir keçirildi. Təntənəli mərasimdə ölkə başçısı İlham Əliyev nitq söylədi. Azərbaycanın qədim diyarı olan Naxçıvanın sürətlə inkişaf etməsini və inamla irəliləməsini fərəh hissi ilə qeyd etdi: «Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır.

Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm» [9, 2004, 16 may].

Dövlət başçısının qədim torpağa səfəri əhali ilə, muxtar respublikanın sakinləri ilə səmimi görüşləri, xoş ünsiyyətləri yaddaşlarda dərin izlər saldı, Naxçıvan Muxtar Respublikasının hərtərəfli yüksəlişinə təkan verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan şəhərindəki Heydər Əliyev adına orta məktəbin açılış mərasimində iştirak etmək üçün 2004-cü il sentyabrın 2-də Naxçıvana gəldi. Yeni istifadəyə verilən məktəb binasının önündə Heydər Əliyevin heykəlinin açılışı oldu. Təməli Heydər Əliyev tərəfindən qoyulan 1206 yerlik 3 mərtəbəli məktəbdə 67 sinif otağı, kompüter sinfi, hərbi hazırlıq otağı, laboratoriyalar, kitabxana, idman salonu, basketbol və futbol meydançaları, tibb məntəqəsi, bufet-yeməkxana şagirdlərin istifadəsinə verildi [39, 2004, 3 sentyabr]. Mərasimdə qeyd edildi ki, 2003-cü

ildə Naxçıvan Muxtar Respublikasında 2390 şagird yeri olan 10 məktəb istifadəyə verilmiş, 2004-cü ildə isə 3274 yerlik 11 yeni məktəb binası tikilir, 2600 yerlik 5 məktəb binasında isə əsaslı təmir və yenidənqurma işləri aparılır [9, 2004, 3 sentyabr].

Ölkə Prezidenti Heydər Əliyev adına orta məktəbin açılışında nitq söylədi. Təhsil islahatının həyata keçirilməsi, yeni məktəblərin tikilməsi, 2005-2007-ci illərdə ölkənin məktəblərində kompüter siniflərinin yaradılması kimi məsələləri önə çəkən İlham Əliyev, Azərbaycanda gənclərin müasir biliklərə və texnologiyalara yiyələnməsi üçün hər cür şərait yaradıldığını bildirdi.

Ölkə başçısı Naxçıvan şəhərində Mülki Müdafiə və Üzgüçülük Mərkəzlərinin açılış mərasimlərində də iştirak etdi.

Azərbaycan Prezidentinin iştirakı ilə Naxçıvan MR Ali Məclisində keçirilən geniş müşavirə isə muxtar respublika əhalisinin üzləşdiyi bir sıra problemlərin həlli baxımından əlamətdar idi. İlham Əliyev Naxçıvanın mavi yanacaqla, elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması üçün aidiyyəti dövlət orqanlarına konkret tapşırıqlar verdi. Müşavirənin yekun qərarı bundan ibarət oldu ki, 2005-ci ilin sonunda Naxçıvana ilk qaz veriləcəkdir [18, 2004, 4 sentyabr].

Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci il dekabrın 19-20-də Naxçıvan Muxtar Respublikasında səfərdə oldu. Səfərin ilk günündə Naxçıvan şəhərində Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etdi. Şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Heydər Əliyev adına Naxçıvan Hərbi Liseyində kursantlar qarşısında çıxış etdi. Əsası 1980-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulan Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi mərasimində iştirak etdi. 100 milyon kubmetr su tutumu olan bu anbarın sayəsində 16 min hektar əkin sahələri suvarılacaqdır. Ölkə Prezidenti Şahbuz rayonunun Ayrınc kəndində tikilmiş orta məktəb binasının açılışında da iştirak etdi. Naxçıvan şəhərində Kitab evinin və Gənclik Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Dekabrın 20-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Naxçıvan Muxtar Respublikasına səfərə gəldi. Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əh-

mədinejad «Azərbaycan Respublikası və İran İslam Respublikası arasında energetika sahəsində əməkdaşlıq haqqında» memorandumu imzaladılar. Azərbaycan Respublikasının Hökuməti və İran İslam Respublikasının Hökuməti arasında inkişaf yardımından istifadəyə dair icra memorandumu da imzalandı.

Hər iki ölkə Prezidenti Naxçıvana təbii qazın verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak və çıxış etdilər. Uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olundu, 15 ildən sonra Naxçıvana qaz verildi [9, 2005, 21 dekabr].

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə oldu. Müşavirədə muxtar respublikada görülmüş işlər və qarşıda duran vəzifələr təhlil edildi. Ölkə Prezidentinin giriş nitqində Naxçıvan Muxtar Respublikasında əldə olunan nailiyyətlər yüksək qiymətləndirildi: «Keçən il mən iki dəfə Naxçıvanda olmuşdum. Bir ildən artıqdır ki, gəlmişdim buraya və bu müddətdə böyük dəyişiklikləri görürəm: yeni tikintilər, müasir, çox böyük zövqlə tikilmiş binalar, abadlıq, quruculuq işləri. Blokada şəraitində yaşayan respublikanın belə böyük uğurlar əldə etməsində, əlbəttə ki, sizin hamınızın, hər birinizin əməyi var.

Xüsusilə mən Naxçıvan Muxtar Respublikasının rəhbərini, Vasif Talıbovu bu münasibətlə təbrik etmək, ona minnətdarlığımı bildirmək istəyirəm» [9, 2005, 22 oktyabr].

Regionların sosial-iqtisadi inkişafına çox böyük əhəmiyyət verən Azərbaycan Prezidenti İlham Əliyev üçüncü səfərindən bir il sonra – 2006-cı il dekabrın 20-21-də yenidən Naxçıvan Muxtar Respublikasına səfər etdi.

Ölkə rəhbəri Naxçıvan şəhərinin mərkəzində xalqımızın ümummilli liderinin abidəsinin və Heydər Əliyev muzeyinin açılışı mərasimində iştirak etdi. Muzeydə 1103 eksponat nümayiş etdirilir. Burada Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, ulu öndər haqqında yazılmış kitablar, ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən istifadə etdiyi əşyalar, eləcə də bütün xarici səfərlərini əks etdirən materiallar toplanmışdır.

Düz bir il əvvəl təməli Prezident İlham Əliyev tərəfindən qo-

yulmuş Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin açılışı oldu. Mərkəzin açılışında Ölkə Prezidenti geniş nitq söylədi: «Bu gözəl mərkəz həm xarici görünüşünə, həm də daxili təchizatına görə dünyanın ən yüksək standartlarına cavab verir. Bu bir memarlıq abidəsidir və əminəm ki, burada göstəriləcək xidmət ən yüksək səviyyədə olmalıdır və olacaqdır. Çünki burada quraşdırılmış avadanlıq dünyanın ən öndə gedən tibb firmalarının istehsalıdır və ən qabaqcıl texnologiyaları əks etdirir. Biz düz bir il bundan əvvəl bu mərkəzin təməlqoyma mərasimini bərabər keçirdik və o vaxt da mən əmin olduğumu bildirmişdim ki, qısa müddət ərzində bu mərkəz tikilib istifadəyə veriləcəkdir. Çox şadam ki, düz bir il ərzində biz buna nail ola bildik və bu gün bu mərkəz naxçıvanlıların sərəncamına verilir» [9, 2006, 21 dekabr].

«Gəmiqaya» şirkətinin gözəl memarlıq üslubunda inşa etdiyi, ən müasir standartlara cavab verən bu mərkəzin ümumi sahəsi 1385 kvadrat metrdir. Zirzəmi qatından və beş mərtəbədən ibarət bu səhiyyə müəssisəsi dünyanın qabaqcıl ölkələrində ən son texnologiyalar əsasında istehsal edilmiş cihaz və avadanlıqlarla təchiz olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev ölkə miqyasında, eləcə də Naxçıvan Muxtar Respublikasında əhalinin, sənaye müəssisələrinin enerji ilə təminatı, enerji təhlükəsizliyi məsələsinə xüsusi əhəmiyyət verir. Prezident bu səfərində üç mühüm elektrik stansiyasının açılışını həyata keçirdi. Bununla əlaqədar Ölkə Prezidenti çıxışında demişdir: «Naxçıvan özü enerjiyə olan tələbatını ödəyəcəkdir. 87 meqavat gücündə modul elektrik stansiyasının tikintisi, 50 meqavat gücündə elektrik stansiyasının bərpası, Heydər Əliyev Su Anbarında tikilmiş 4,5 meqavat gücündə Vayxır elektrik stansiyası – bütün bunlar son müddət ərzində görülmüş işlər, Naxçıvanın enerji təhlükəsizliyini təmin edən məsələlərdir» [9, 2006, 21 dekabr].

Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan da çox sürətlə inkişaf edir. Prezidentin regionlara səfərləri də sosial-iqtisadi inkişafa təkan verir. Son illərdə Naxçıvan Muxtar Respublikasında 100-dən artıq yeni məktəb binası tikilmiş və ya əsaslı təmir olunmuşdur. Azərbaycan Prezidenti Naxçıvan şəhərindəki 792 yerlik 7 nömrəli orta məktəbin və Ordubad şəhərində internat-məktəb kompleksinin

açılışında iştirak etmişdir. 430 şagird yerlik Ordubad internat-məktəb kompleksinə yataqxana korpusu, 204 yerlik yeməkxana, idman salonu və meydançası, dəriçilik, çəkməçilik, xalçaçılıq sənətlərini öyrənmək üçün peşəyönümlü kabinələr, laboratoriyalar və yardımçı tikililər daxildir.

Prezident bu səfərində akademik Y.Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyi ilə, Naxçıvan şəhərində «Cahan Holdinq» şirkətlər qrupunun istehsal sahələri ilə tanış olmuş, «Duzdağ» sanatoriyasının təməlini qoymuşdur. Səfərin yekununda Prezident İlham Əliyevin sədrliyi ilə Naxçıvan MR Ali Məclisində geniş müşavirə keçirilmiş, əldə olunan uğurlar və qarşıda duran vəzifələr təhlil edilmişdir. Ölkə Prezidenti Naxçıvanda aparılan quruculuq, abadlıq işlərindən, sosial infrastrukturun yeniləşməsindən razı qaldığını bildirmişdir.

Ölkə Prezidenti İlham Əliyev 2007-ci il oktyabr ayının 17-də və 2008-ci ilin iyun ayının 3-4-də Naxçıvanda səfərdə olmuşdur. Səfərlərdə Prezident İlham Əliyev Naxçıvan Dövlət Universiteti Konseravatoriyasının, Culfa və Şərur rayon Mərkəzi Xəstəxanalarının açılışında iştirak və çıxış etmişdir. Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan iyunun 4-də (2008) Naxçıvana rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunmuş, ölkələrimizin qlobal layihələri birgə uğurla həyata keçirməsi, beynəlxalq aləmdə bir-birinin mövqelərini tam dəstəkləməsi, regional əməkdaşlıqla fəal iştirakı bildirilmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən birgə mətbuat konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan bəyanatla çıxış etmişlər. Ölkə rəhbərləri Naxçıvan şəhərindəki Heydər Əliyev muzeyi ilə tanış olmuş, «Duzdağ» Fizioterapiya Mərkəzinin açılışında iştirak etmişlər. Prezident İlham Əliyev Şahtaxtı-Poldəşt sərhəd keçid məntəqəsinin açılışında iştirak etmiş, «N» saylı hərbi hissədə olmuş, Dədə Qorqud meydanı və Turizm Mərkəzi, Zərifə Əliyeva adına Şahtaxtı kənd orta məktəbi ilə tanış olmuş, Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin- Doğum Mərkəzinin təməlinin qoyulması

mərasimində iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri izsiz qalmadı, muxtar respublikanın sosial-iqtisadi, ictimai-mədəni inkişafına müsbət təsirini göstərdi.

Heydər Əliyev siyasəti Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir və öz müsbət təsirini göstərir. Muxtar respublika dinamik inkişaf yolundadır və infrastruktur baxımından müasirləşir.

Naxçıvan Muxtar Respublikasının yubileylərinin qeyd olunması xüsusi yer tutur. Ötən dövrlər ərzində Naxçıvanın muxtariyyət bayramı 6 dəfə (1949, 1964, 1974, 1984, 1999, 2004) qeyd edilmişdir. Muxtar Respublikanın yubileyləri ulu öndərin Azərbaycana birinci və ikinci rəhbərliyi dövründə daha yüksək, yaddaqalan səviyyədə keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında» 2009-cu il 6 fevralda Sərəncam imzalamışdır. Həmin sərəncamda Naxçıvanın Azərbaycan tarixində oynadığı rol və istiqlaliyyət yolundakı əvəzsiz xidmətlər yüksək qiymətləndirilmişdir: «Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda parlaq inkişaf yolu keçmişdir...

Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına... dəyərli töhfələr verir» [9, 2009, 7 fevral].

Naxçıvan Muxtar Respublikasının yubileylərinin keçirilməsinin böyük siyasi, tarixi və elmi əhəmiyyəti vardır. 85 illik yubileyin ölkəmizdə geniş şəkildə qeyd olunması muxtar respublikaya göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq yolu ilə gedən Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi sahədə böyük inkişafa nail olmuş, intibah və dirçəlişə qovuşmuşdur. Ümummilli lider Heydər

Əliyev şəxsiyyəti olmasaydı, Naxçıvan yaşayaraq bu günkü günə gəlib çata, onun muxtariyyəti və ərazisi qorunub saxlanıla bilməzdi.

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn Ölkə Prezidenti İlham Əliyevi muxtar respublika sakinləri çox böyük coşqu və yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Prezident İlham Əliyev Heydər Əliyev sarayının yenidən qurulmasından sonrakı vəziyyəti ilə tanış olmuş, Doğum Mərkəzinin, Badamlı mineral sular zavodunun, Şərur rayonu Olimpiya İdman Kompleksinin açılışında iştirak və çıxış etmişdir. Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində iştirak edən İlham Əliyev geniş məruzə etmiş, Naxçıvanın muxtariyyət dövründə keçdiyi tarixi yolu və qazandığı uğurları yüksək qiymətləndirmiş, diyarın qorunub saxlanılmasında və muxtariyyət statusunun möhkəmləndirilməsində ulu öndər Heydər Əliyevin tarixi rolundan bəhs etmişdir.

Prezident çıxışında həm də Naxçıvanın son illərdəki uğurlarında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və muxtar respublika əhalisinin fəaliyyətinə yüksək qiymət vermişdir.

Naxçıvan Muxtar Respublikasının 85 illiyinin siyasi və tarixi əhəmiyyəti nəzərə alınaraq bununla bağlı elmi konfranslar Rusiya Federasiyasının paytaxtı Moskvada və Sankt-Peterburq şəhərlərində keçirilmişdir. «Rusiya-Azərbaycan münasibətləri: keçmişi, bu günü, gələcəyi» mövzusunda keçirilən konfrans Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr edilmişdi. Konfransda Azərbaycandan getmiş nümayəndələrlə yanaşı, Moskva və Sankt-Peterburqdan olan alim və ziyalılar da çıxış etmişlər [9, 2010, 15 may].

Naxçıvan Muxtar Respublikasının son illərdəki dinamik inkişafı, quruculuq və müasirləşmə baxımından böyük infrastruktur layihələrinin həyata keçirilməsi bir sıra beynəlxalq tədbirlərin burada keçirilməsinə əsas verir. Bu mənada Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsi təsadüfi deyildir. Həm də Türk dövlət başçılarının zirvə toplantısının Naxçıvanda keçirilməsinin çox böyük geosiyasi, ideoloji, simvolik mənası və tarixi əhəmiyyəti vardır.

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü 2009-cu il

oktyabrın 2-3-də Naxçıvan şəhərində keçirildi. Qeyd etməliyik ki, ilk zirvə görüşü 1992-ci ildə Ankarada, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdir [9, 2009, 4 oktyabr]. Bu zirvə görüşü sayca 9-cu idi. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Abdulla Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev oktyabrın 2-də Naxçıvana gəldilər. Oktyabrın 3-də isə Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev zirvə toplantısında iştirak etmək üçün Naxçıvana gəldi. Ölkə Prezidentləri oktyabrın 2-də türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət etdilər, əklil qoydular və Heydər Əliyev muzey-kompleksi ilə tanış oldular. Prezidentlər «Əcəmi» seyrangahı ilə tanış oldular, burada ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdilər. Sonra Prezidentlər «Əcəmi» seyrəngahında açıq səma altındakı muzeyin eksponatlarına baxdılar, Mömінə xatın türbəsi ilə tanış oldular. Türkdilli xalqların milli musiqisindən ibarət olan konsert dövlət başçılarında böyük maraq doğurdu. Heydər Əliyev Sarayında təşkil olunan konsert proqramı türk xalqlarının birliyi ideyasını ideoloji çalarlarla ifadə etdi. Oktyabrın 2-də zirvə görüşü keçirildi. 2 və 3 oktyabr tarixlərində keçirilən möhtəşəm tədbirlər silsiləsi türk dünyasının birliyi, həmrəyliyi, bu günü və gələcəyi baxımından çox mühüm töhfələrlə yadda qaldı. Türk xalqları arasındakı mədəni və iqtisadi əlaqələri dərinləşdirmək, qarşılıqlı əməkdaşlığı artırmaq, ortaq tarixi, milli-mənəvi dəyərləri öyrənmək, qorumaq və təbliğ etmək, türkdilli ölkələrin beynəlxalq sülh və sabitliyə xidmət edən müsbət fəaliyyətlərini artırmaq, ölkələrin yerləşdiyi coğrafiyanı əməkdaşlıq, sabitlik və sülh bölgəsinə çevirmək, onların beynəlxalq siyasi arenada ortaq maraqlarından çıxış etməsini təmin etmək IX zirvə görüşünün əsas mahiyyəti kimi nəzərə çarpdı.

Dövlət başçıları tərəfindən yeni təkliflər də səsləndi. Ölkə başçısı İlham Əliyev TÜRKSOY Fondunun, Qazaxıstan prezidenti Nursultan Nazarbayev Türkdilli Akademiyanın yaradılmasını, Türkiyə prezidenti Abdulla Gül Olimpiya oyunlarına bənzər ənənəvi türk idman oyunlarının da yer aldığı idman tədbirlərinin keçirilmə-

sini məqsədəuyğun hesab etdilər [39, 2009, 9 oktyabr]. Qırğızıstan prezidenti Kurmanbek Bakiyev iqtisadi layihələrin, xüsusilə də energetika, nəqliyyat və turizm sahəsində ümumi səylərin möhkəmləndirilməsini təklif etdi [9, 2009, 4 oktyabr].

Sonda Prezidentlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan sazişini imzaladılar. Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün yekunu olaraq Naxçıvan bəyannaməsi qəbul edildi.

Aparılan müzakirələr, irəli sürülən məsələlər və qəbul edilən qərarlar baxımından əvvəlki sammitlərdən fərqlənən IX zirvə görüşünün ən böyük xüsusiyyəti heç şübhəsiz tədbirin Naxçıvanda keçirilməsi oldu. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim yurd yeri tarixində ilk dəfə bu qədər dövlət rəhbərini, xarici qonağı qarşıladı. Burada ilk dəfə türk dövlətlərinin bayraqları birgə dal - ğalandı.

Türk dünyası, bütün dünya mənfur qonşuların apardığı işğalçılıq siyasəti nəticəsində blokada vəziyyətinə düşmüş muxtar respublikanın necə inkişaf etdiyini, nələrə qadir olduğunu gördü.

Ölkə başçısı Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsini çox gözəl və əlamətdar hadisə hesab edərək bu qədim diyarın türk dünyasında çox böyük və xüsusi yeri olduğunu göstərərək dedi: «Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim dəyərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün böyük əhəmiyyət daşıyırdı. Azərbaycanın üçrəngli bayrağı böyük fasilədən sonra, hələ Sovet İttifaqı zamanında ilk dəfə olaraq məhz Naxçıvanda ucaldılmışdır» [39, 2009, 9 oktyabr].


Zirvə görüşünün təşkili ilə bağlı Türkdilli ölkə liderlərinin dövlət başçısı İlham Əliyevin ünvanına söylədikləri xoş sözlər, səmimi hisslər bu istiqamətdə Naxçıvanda görülmüş işlərə verilmiş yüksək qiymət oldu. Tədbir elə şəkildə təşkil olunub keçirildi ki, hər

şeydə Naxçıvan amili, Naxçıvanın özünəməxsusluğu, qonaqpərvərliyi öz əksini tapdı.

Beləliklə, müstəqillikdən sonrakı illərdə Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslərin təhlili və ümumiləşdirilməsi göstərir ki, blokada vəziyyətinə düşən muxtar respublika ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində qorunub saxlanılmış və inkişaf etdirilmişdir. Heydər Əliyev tərəfindən Azərbaycanın müəyyən edilmiş iqtisadi inkişaf strategiyası Ölkə Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun gərgin əməyi sayəsində Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ən inkişaf etmiş bölgəsinə çevrilmişdir.



Naxçıvan Muxtar Respublika Ali Məclisinin
Sədri Heydər Əliyev



Heydər Əliyev seçicilər arasında



Naxçıvan, 17 noyabr 1991-ci il



Naxçıvan MR Ali Məclisin Sədri Heydər Əliyev
bir qrup qadını qəbul edərkən



Azərbaycan Prezidenti Heydər Əliyev
Naxçıvana gəlmişdir




Azərbaycan Prezidenti Heydər Əliyev
Naxçıvanda



Azərbaycan Prezidenti Heydər Əliyev
Hüseyn Cavid məqbərəsinin açılışında çıxış edərkən




Azərbaycan Prezidenti Heydər Əliyev
Hüseyn Cavid məqbərəsinin açılışında



Azərbaycan Prezidenti Heydər Əliyevin
Naxçıvan MR-in 75 illik yubileyində çıxışı



Azərbaycan Prezidenti Heydər Əliyevin
məktəblilərlə söhbəti



Azərbaycan Prezidenti Heydər Əliyevin
Cəlil Məmmədquluzadənin ev muzeyinin açılışında çıxışı



Azərbaycan Prezidenti Heydər Əliyevin
Naxçıvan şəhəri ilə tanışlığı




Azərbaycan Prezidenti Heydər Əliyev
hərbçilərlə



Azərbaycan Prezidenti Heydər Əliyev
Kazım Qarabəkir paşa məscidinin açılışında



Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvan MR
Olimpiya İdman Kompleksinin açılışında çıxışı



Heydər Əliyev Batabatda



Heydər Əliyev naxçıvanlılarla söhbət edərkən



Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan MR-in 80 illik yubileyində çıxışı




Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyi



Heydər Əliyev muzeyi ilə tanışlıq



İran İslam Respublikasının prezidenti
Mahmud Əhmədinejadla görüş



Nuh türbəsi ilə tanışlıq



Türkdilli ölkələrin dövlət başçılarının
IX zirvə görüşü



Türkdilli ölkələrin dövlət və hökumət
başçıları

Prezidentlər Heydər Əliyevin
heykəli önündə



Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupu
həmsədrlərini Naxçıvanda qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin
Naxçıvan MR-in 85 illik yubileyində çıxışı

Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb
Tayyib Ərdoğanla görüş



Türkiyə Cümhuriyyətinin Prezidenti
Abdulla Güllə görüş



Naxçıvan Muxtar Respublikasının inkişaf
yolları müzakirə olunur



Vasif Talıbovun Azərbaycan-Türkiyə biznes forumunda çıxışı



Azərbaycan-Türkiyə biznes forumu






İsveçrə Konfederasiyasının Prezidenti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşdə



Naxçıvan kəhrizləri ilə tanışlıq



Naxçıvan kəhrizlərinin planı ilə tanışlıq

İKİNCİ FƏSİL

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI

2.1. Sosial-iqtisadi inkişafın səciyyəsi

Naxçıvan Muxtar Respublikasının son 15 ildəki sosial-iqtisadi inkişafı böyük inkişaf və tərəqqi illəri, inkişafdan intibaha gedən yol kimi səciyyələndirilir [1, 2010, 14 yanvar]. Bu illərdə muxtar respublikada gedən quruculuq, abadlıq işlərinin, iqtisadiyyatda, mədəni həyatda, insanların güzəranında baş verən dəyişikliklərin kökündə bir tərəfdən Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, ikinci tərəfdən isə düzgün idarəetmə dayanır.

Naxçıvan Muxtar Respublikasında 1995-2010-cu illərdə aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahədəki irəliləyişlər diyarı Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirmişdir. Sənayedə, tikintidə, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar ona görə qazanılır ki, Heydər Əliyev yolunun sabaha gedən həyat gəmisinin sükanı etibarlı əllərdədir.

Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi nəticəsində Naxçıvan tamamilə dəyişilmiş, yenidən qurulmuş, alınmaz bir qalaya çevrilmişdir. Ali Məclis Sədrinin ümummilli liderimizin dövlətçilik ideyalarına sədaqəti, ardıcıl və yorulmaz fəaliyyəti sayəsində regionda əldə edilmiş mühüm nəticələr əslində Azərbaycanın tərkibində yeni bir Naxçıvan ərsəyə gətirmişdir.

Ulu öndərimizə sədaqət, aydın siyasi mövqe, yorulmaz fəaliyyətdən ibarət olan inkişafın Naxçıvan modeli müasir muxtar respublikanın tərəqqisinin əsasını təşkil edir. Respublika mətbuatında Naxçıvanın son on beş ildəki sosial-iqtisadi inkişafını "Naxçıvan möcüzəsi" adlandırırlar [8, 2009, 29 dekabr; 2010 14 yanvar]. "Naxçıvan möcüzəsi"nin əldə edilməsini Ali Məclis Sədrinin özü belə xa-

rakterizə edir: **"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar"** [8, 2009, 29 dekabr].

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyevin Heydər Əliyev ideyalarına sədaqəti və yaradıcılıqla həyata keçirməsi, Ali Məclis Sədri Vasif Talıbovun səfərbəredici və təşəbbüskar rəhbərliyi Naxçıvanın hərtərəfli inkişaf və tərəqqisini təmin etmişdir. Naxçıvan diyarındakı sürətli və hərtərəfli inkişaf Ali Məclisinin Sədri Vasif Talıbovun ardıcıl və yorulmaz fəaliyyətinin, məqsədyönlü və qətiyyətli mövqeyinin, fədakar işinin konkret və uğurlu nəticəsidir. Sonralar 1999-cu ilin oktyabrında muxtar respublikanın 75 illiyi ilə əlaqədar Naxçıvan şəhərində keçirilən yubiley şənliklərində iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu barədə danışarkən qeyd etmişdi: "Mən məmnuniyyətlə demək istərdim ki, son dörd il ərzində Naxçıvan MR-də işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq bu dörd il müddətində o sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər" [15, 1999, 15 oktyabr].

Son on beş ildə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında çox böyük uğurlar əldə edilmişdir. Problemlərə bələdlik, insanlarla işləmək qabiliyyəti, torpaq və vətən sevgisi, sözlə işin, əməllə əqidənin birliyi Vasif Talıbovu xalqın gözündə ucaltmış, ona inam və yüksək hörmət hissi yaratmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvana hər səfərində burada görülən işlərdən, həyata keçirilən tədbirlərdən razı qaldığını dönədönə dilə gətirmişdir: "Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir, çox sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır... Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir... Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvan-

lıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm" [1, 2009, 5 avqust].

1995-2010-cu illər sosial-iqtisadi inkişaf baxımından Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələ təşkil edir. Bu dövrdə Ermənistan tərəfindən blokadada saxlanılmasına baxmayaraq, muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, 1996-cı ildən başlanan sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyllər daha da möhkəmləndirilmişdir. Muxtar respublikada iqtisadi islahatların həyata keçirilməsi, dövlət büdcəsinin sabitləşməsi, vergi-bank sisteminin təkmilləşdirilməsi, iqtisadiyyatın idarə olunması sahəsində islahatların həyata keçirilməsi dövlət vəsaitinə xeyli qənaət olunmasına və dövlət büdcəsinin mədaxil hissəsinin yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. 1996-98-ci illərdə muxtar respublika büdcəsinin mədaxil hissəsi plandan artıq, məxaric hissəsi isə qənaətlə yerinə yetirilmişdir. Sonralar aparılan iqtisadi islahatlar büdcə daxilolmalarına müsbət təsir göstərmişdir. Muxtar respublikanın dövlət büdcəsinə 2005-ci ildə bütün mənbələr hesabına 21,0 milyon manat daxil olmuşdur ki, bu da 2000-ci ildə olduğundan 16,8 milyon, yaxud 5 dəfə çoxdur. 2009-cu ildə isə dövlət büdcəsinə nəzərdə tutulan 28,5 milyon manatdan 2,3 dəfə çox, yəni 65,9 milyon manat vəsait daxil olmuşdur. Ümumi daxili məhsul 1994-cü ildəki 37287,7 min manatdan 2009-cu ildə 973649,3 min manata yüksəlmişdir, yəni 26,1 dəfə artmışdır. Ümumi daxili məhsulun həcmi 2010-cu ilin 6 ayında 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 20,8 faiz artaraq 512 milyon manatdan çox olmuşdur. Muxtar respublikada ilk dəfə olaraq 2009-cu ildə ümumi daxili məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini ötmüşdür. Həmin dövrdə adambaşına düşən ümumi daxili məhsulun həcmi isə 21,5 dəfə çoxalaraq 113,4 manatdan 2434,7 manata çatmışdır. 2010-cu ildə də iqtisadiyyatın əsas sahələrinin inkişafı istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, əldə olunmuş uğurlu nəticələr sosial-iqtisadi inkişafı xarakterizə edən və əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcminin artmasına zəmin yaratmışdır. Özündə ciddi nəticələri əks etdirən bu

artımın səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, 2010-cu ildə muxtar respublikanın tarixində ilk dəfə olaraq ümumi daxili məhsulun həcmi 1 milyard manat səviyyəsini keçmişdir. Ümumilikdə ötən il bu göstərici əvvəlki illə müqayisədə 17 faiz artaraq 1 milyard 171 milyon manata, onun hər bir nəfərə düşən həcmi isə 18 faiz artaraq 2883 manata çatmışdır [28, s. 5]. 1995-ci ildən başlayaraq muxtar respublika iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət məhsul istehsalının artımında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində öz təsirini göstərməkdədir.

2.2. Sənayenin inkişafı. Yeni sənaye sahələrinin yaradılması

1990-95-ci illərdə muxtar respublikada sənaye müəssisələrinin əksəriyyəti öz fəaliyyətini dayandırmış, 1996-97-ci illərdən başlayaraq bu müəssisələrin istehsal fəaliyyəti tədricən bərpa olunmuşdur. Bu dövrdə muxtar respublikada 163 sənaye müəssisəsi fəaliyyət göstərirdi [11, s. 111]. Halbuki 90-cı illərin ortalarında muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idi. Muxtar respublika rəhbərliyinin bu sahəyə ciddi diqqət yetirməsi sayəsində 1999-cu ildə diyarın sənaye müəssisələrində 2883,9 min manatlıq sənaye məhsulu istehsal edilmiş, 15 adda məhsul istehsalı təmin olunmuşdur. 2000-2005-ci illər ərzində muxtar respublika sənayesində 229 yeni təsərrüfat subyektinin fəaliyyətə başlaması öz növbəsində bu dövr ərzində sənaye məhsulu həcminin üç dəfə artmasına zəmin yaratmışdır [23, s. 10]. Nəticədə 2005-ci ildə muxtar respublikada sənaye məhsulunun həcmi 41,2 milyon manat olmuşdur. Bu da 2000-ci illə müqayisədə üç dəfə çoxdur. Sənaye məhsulu həcminin artması mövcud istehsal müəssisələrinin öz fəaliyyətini bərpa etməsi ilə yanaşı, həm də yeni istehsal müəssisələrinin istifadəyə verilməsi nəticəsində mümkün olmuşdur. Belə ki, təkcə 2005-2006-cı illərdə 44 istehsal müəssisəsi fəaliyyətə başlamışdır. 2007-ci ildə 32, 2008-ci ildə isə 37 sənaye müəssisəsi məhsul istehsal etməyə başlamışdır. 2008-ci ildə muxtar respublikada 164452 min manatlıq sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2007-ci ildə istehsal olunan 122680 min manatlıq

məhsuldan müqayisəli qiymətlə 26,7 faiz çoxdur [26, s. 5-6]. Həyata keçirilən məqsədyönlü islahatların nəticəsində sənaye muxtar respublikada dinamik inkişaf edən sahələrdən birinə çevrilmişdir. Sənaye müəssisələrinin işinin bərpası, istehsal olunan məhsulun həcminin və çeşidinin artırılması istiqamətində aparılan tədbirlərin uğurlu nəticəsi kimi 2009-cu ildə 212,5 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2008-ci ildəki göstəricini 24,5 faiz üstələmişdi.

Sənaye sahəsində həyata keçirilən irimiqyaslı islahatların uğurlu yekunudur ki, 1995-2010-cu illərdə muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə başlamışdır. Əgər 1996-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2010-cu ilin sonunadək bu müəssisələrin sayı 423-ə (11 dəfə çox) çatmışdır Hazırda sənayə sektorunda 24 istehsal sahəsinin yaradılması işi davam etdirilir.

Muxtar respublikada 239 adda sənaye məhsulu istehsal edilir. 2009-cu ildə istehsal edilmiş sənaye məhsulunun ümumi dəyəri 212469,1 min manat olmuşdur [27, s.7]. 62220 min ABŞ dolları dəyərində sənaye məhsulları xarici ölkələrə və respublikamızın digər bölgələrinə ixrac olunmuşdur ki, bu da 2008-ci illə müqayisədə 2,9 dəfə çoxdur. 2010-cu ildə muxtar respublikada 318565 min manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu illə müqayisədə 44 faiz çoxdur [15, 2011, 29 yanvar]. Sənaye məhsulu həcminin 91 faizini istehsal, 9 faizini isə xidmət sahələri təşkil etmişdir. Sahibkarlığın inkişafına, qeyri-dövlət sektorunun davamlı yüksəlişinə yönəldilmiş komleks tədbirlərin nəticəsidir ki, istehsal olunan sənaye məhsulunun 88 faizi, yaxud 279460 min manat özəl sektorun payına düşmüşdür [28, s. 7]. Bu, 2009-cu illə müqayisədə 50 faiz çoxdur.

Yeni sənaye müəssisələrinin yaradılması həm istehsal olunmuş yeni məhsul növlərinin, həm də bu sektorda işləyən işçilərin say tərkibinin artmasına ciddi təsir göstərmişdir. Belə ki, əgər 1988-ci ildə muxtar respublikanın sənaye müəssisələrində 1620 nəfər işçi çalışırdısa, 2010-cu ildə bu göstərici 8 dəfə artaraq 12855-ə çatmışdır [15, 2011, 29 yanvar].

Naxçıvan Muxtar Respublikasında sənayeləşmənin həyata keçirilməsi ilə əlaqədar sənaye müəssisələrinin yaradılmasına və in-

kişafına xüsusi fikir verilmişdir. Yaradılan sənaye müəssisələri daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, ixrac yönümlü məhsulların istehsalını da gücləndirmişdir. Xüsusilə son illərdə qurulan sənaye müəssisələri "Gəmiqaya" Şirkətlər Qrupuna aid olan müəssisələr, Naxçıvan Avtomobil Zavodu, Badamlı Mineral Su Zavodu, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının müəssisələri, Kərpic Zavodu, Mebel Fabriki, "Dizayn" MMC-nin müəssisələri, "Şərab-2" Yeddilər Aqrar Sənaye Kompleksi" MMC, "Sirab" Mineral Sular Zavodu ən yüksək standartlar səviyyəsində məhsul istehsal edirlər.

Beləliklə, bu illərdə muxtar respublikada sənaye sahəsində reallaşdırılan islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsalından, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur. Tarixən aqrar region kimi formalaşan Naxçıvan Muxtar Respublikasının aqrar-sənaye regionuna çevrilməsi üçün ciddi əsaslar yaradılmışdır.

2.3. Tikinti-quruculuq və abadlıq işləri

Azərbaycan Respublikasında yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər muxtar respublikada 1995-ci ildən başlayaraq tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq və abadlıq işləri ildən-ilə genişlənir. Yüksək zövqlə, peşəkarlıqla, şərq və qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, salınan gülkarlıqlar, yaradılan səliqə-sahman böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünü təsdiq edir. Bütün bu işlərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov diqqət və həssaslıqla yanaşır, hər bir tikinti, quruculuq və abadlıq işlərinin ən yüksək səviyyədə, keyfiyyətlə aparılmasına nəzarət və rəhbərlik edir, xeyli vaxt ayırır. Bütün bunlara görə Ali Məclisin Sədri tariximizə qurucu və yaradıcı rəhbər

kimi daxil olmuşdur.

Ölkə başçısı, Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında son illərdə görülən işləri, həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: **"Siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir"** [1, 2004,15 may].

Vasif Talıbov Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi 15 il ərzində yeni və müasir bir Naxçıvan qurmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtından tutmuş ən ucqar kəndlərini belə əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikasında inkişaf proqramının əhəmiyyətini əks etdirən mühüm göstəricilərdən biri quruculuq, tikinti-abadlıq işlərinin ön plana keçirilməsidir.

Heydər Əliyev idarəetmə məktəbinin sədaqətli davamçısı olan Vasif Talıbovun 90-cı illərin ortalarından muxtar respublikada başladığı quruculuq işləri nəticəsində yüzlərlə obyekt tikilib istifadəyə verilmiş, yenidən qurulmuş, təmir edilmiş, yollar çəkilmiş, körpülər salınmış, parklar, xiyabanlar və gülkarlıqlar yaradılmışdır. Nəticədə Naxçıvanın siması tamamilə dəyişilmişdir.

Naxçıvan Muxtar Respublikasında 2000-ci ildə 12449,9 min manatlıq tikinti-quruculuq işləri aparılmışdı ki, bu da 1995-ci ilə nisbətən 4 dəfə çoxdur. 2005-ci il ərzində muxtar respublikada tikintidə 126 milyon 51 min manatlıq investisiyadan istifadə edilmişdir. 2005-ci ildə muxtar respublikanın tikinti təşkilatları 102 milyon manatlıq iş görmüşdür. 2000-2005-ci illər muxtar respublikanın tikinti həyatında dəyərli və bənzərsiz binaların, sosial və ictimai obyektlərin, elm, təh-

sil və mədəniyyət müəssisələrinin tikilməsi, yenidən qurulması və təmiri kimi xarakterizə edilir. Bu illərdə 59 orta məktəb, 48 səhiyyə obyekti, 28 körpü, 62 inzibati bina, 9 mədəniyyət obyekti, 9 abidə və dini obyekt tikilmiş, 23 orta məktəb binası, 35 səhiyyə obyekti, 23 körpü, 39 nasos stansiyası, 98 inzibati bina, 22 mədəniyyət obyekti və yüzlərlə müxtəlif xarakterli obyektlər əsaslı təmir olunmuşdur [23, s.19-20].

2006-2010-cu illərdə də muxtar respublika böyük tikinti meydanına çevrilmişdir. Belə ki, 2006-cı ildə 757 obyekt, 2007-ci ildə 793, 2008-ci ildə 854, 2009-cu ildə 726, 2010-cu ildə isə 669 müxtəlif xarakterli obyektlər istifadəyə verilmişdir. Son dörd il ərzində muxtar respublikada 284 yaşayış binasında təmir və bərpa işləri aparılmış, 301 yaşayış binasında istilik xətləri yeniləri ilə əvəz edilmiş, 35 lift quraşdırılmışdır. 2010-cu ilin ilk yarımilində 258 müxtəlif təyinatlı obyekt istifadəyə verilmiş, 286 obyektin isə tikintisi və ya əsaslı təmiri davam etdirilmişdir [15, 2010, 24 iyul]. Kəndlərin, qəsəbələrin ictimai tərəqqisi, bu yaşayış məntəqələrində mərkəzlə paralel infrastruktur quruculuğu tədbirlərinə də xüsusi diqqət yetirilir. Kənd əhalisinə göstərilən xidmətin səviyyəsinin yaxşılaşdırılması, bu sahədə idarəetmənin səmərəliliyini daha da artırmaq məqsədilə son 15 il ərzində 52 kənd, 3 qəsəbə mərkəzi istifadəyə verilib.

Əhalinin maddi rifah halının yaxşılaşdırılması fərdi yaşayış evlərinin tikintisi üzrə müsbət meylli dinamikanı daha da gücləndirmişdir. 2010-cu ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 259414 kvadratmetr yaşayış sahəsi tikilmişdir. Bu isə 1988-ci ildəki 75400 kvadratmetrlik göstərici ilə müqayisədə 184014 kvadratmetr və ya üç dəfə çoxdur.

Ümumiyyətlə, 1995-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində 231 elm və təhsil ocağı, 173 səhiyyə müəssisəsi, 272 mədəniyyət obyekti, 393 inzibati bina, 119 yeni körpü, 353 subartezian quyusu, 153 nasos stansiyası, 3374 yeni istehsal, xidmət və əlavə infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Bir cəhəti qeyd etməliyik ki, muxtar respublikanın rayonlarında, qəsəbə və kəndlərində, xüsusilə sərhəd kəndlərində tikinti-abadlıq işlərinə böyük diqqət və qayğı göstərilir. Tədqiq edilən

dövrdə istifadəyə verilən orta ümumtəhsil məktəblərinin 35,5 faizi, səhiyyə obyektlərinin 71,4 faizi, ucqar dağ və sərhəd kəndlərində inşa edilmişdir. Bütövlükdə bu dövrdə muxtar respublikanın şəhər və rayon mərkəzlərində, habelə kəndlərində abadlaşma işləri geniş vüsət almışdır.

Görülən işlərin həcminin artması öz növbəsində tikinti sektoruna qoyulan sərmayənin həcminin ildən-ilə artmasına səbəb oldu. Əgər 2005-ci ildə Naxçıvan Muxtar Respublikasında bütün maliyyə mənbələri hesabına 126 milyon 52 min manatlıq investisiyadan istifadə edilmişdirsə, 2006-cı ildə tikinti sektorunda 191 milyon 757 min manatlıq sərmayədən istifadə olunmuşdur [24, s. 9]. 2007-ci ildə bu məqsədlə 222 milyon 948 min manat, 2008-ci ildə 309 milyon 598 min manat, 2009-cu ildə 411 milyon 522 min manat vəsait xərclənmişdir. 2010-cu ildə 501 milyon 106 min manat vəsaitdən istifadə olunmuşdur ki, bu da 2009-cu ildəki müvafiq göstəricidən 22 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 443426 min manatı və ya 88 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir.

Son illərdə muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri nəticəsində Naxçıvan şəhəri və rayon mərkəzləri göz oxşayır, şərq və qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyarımıza gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir. Heydər Əliyev Sarayı, Naxçıvan Beynəlxalq Hava Limanı, Duzdağ və Təbriz otelləri, Diaqnostika-Müalicə Mərkəzi, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsinin yerləşdiyi korpus, Universitet Konservatoriyası, Elektron Kitabxana, Tələbə yataqxanası, Hüseyn Cavidin türbəsi, Nuh türbəsi və yüzlərlə göz-oxşayan memarlıq abidələri yüksək peşəkarlıqla təmir və bərpa edilmişdir. Xan Sarayı, Zaviyyə-mədrəsə binası, Came məscidi, Qarabağlar memarlıq kompleksi, İmamzadə kompleksi, Mömünə Xatın və Yusif Küseyir oğlu türbələri restavrasiya olunmuşdur. Bu gün Naxçıvanda tarixi-memarlıq abidələrində şərq elementləri ilə müasirlik qovuşur, bu elementlər isə şəhərə yaraşıq verir, onu gözəlləşdirir. Bütün bunlar Ali Məclis Sədrinin zövqündən, şəhərsalma sahəsindəki səriştəsindən, memarlıq biliyindən, qurub-yaratmaq həvəsindən xəbər verir.

2.4. Kənd təsərrüfatının inkişafı

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında kənd təsərrüfatı hər zaman öncül mövqeyə malik olmuşdur. Muxtar respublikada əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatların ardıcıl həyata keçirilməsi, kənd təsərrüfatında aparılan struktur dəyişiklikləri aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratdı. Muxtar respublikada ərzaq məhsulları istehsalını artırmaq, əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək, sahibkarlıq mühitini yaxşılaşdırmaq məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında yeni istiqamətləri müəyyənləşdirdi. Yeni emal müəssisələrinin yaradılması məhsul istehsalına dövlət maliyyə yardımının göstərilməsi, güzəştli şərtlərlə gübrə satışının təşkili, məhsulun satışı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin artmasına səbəb oldu. Torpaqların meliorasiya və sabit su təminatının yaxşılaşdırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirildi. Qaraçuq-Nehrəm kanalı bərpa olundu. Heydər Əliyev Su Anbarında tikinti işləri sürətləndirildi. 1996-2005-ci illərdə 30 yeni nasos stansiyası tikildi, 57 nasos stansiyasında əsaslı təmir işləri aparıldı, 238 subartezian quyusu qazıldı və ya bərpa edildi. Hazırda muxtar respublikada suvarma tədbirlərinin həyata keçirilməsi məqsədilə 97 nasos stansiyasından, 766 subartezian quyusundan və 339 kəhrizdən istifadə olunur [9, s. 126].

Aqrar sahədə əməkçilərin zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaq məqsədi ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun rayonlarda xidmət bazaları yaradıldı. 2006-cı ildə muxtar respublikaya 82 ədəd, 2007-ci ildə 180 ədəd, 2008-ci ildə 84 ədəd, 2009-cu ildə 108 ədəd, 64 ədəd 2010-cu ilin yanvar-avqust aylarında olmaqla cəmi 518 ədəd müxtəlif təyinatlı texnika alındı [28, s. 119]. 76 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə məhsul istehsalçılarına verildi.

Aqrar sahənin inkişafı üçün müxtəlif layihələr, o cümlədən "Azərbaycanın kənd investisiyası" layihəsi, "Dağ və yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi" proqramı həyata keçirildi.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün əkin sahələrinin strukturunda dəyişikliklər edilir, əkin sahələri artırılırdı. Əkin sahələri 2003-cü ildə 1995-ci ilə nisbətən 83,1 faiz artmışdı. 2006-cı ildə əkin sahələri 49 min 275 hektar təşkil etmişdir. 2010-cu ilin məhsulu üçün 59 min 204 hektar sahədə əkin aparılmışdır ki, bu da 1988-ci ilin məhsulu üçün əkilmiş 15 min 328 manat sahədən 43 min 876 hektar və ya 4 dəfə çoxdur [15, 2011, 29 yanvar]. Əkinçiliyin dinamik inkişaf etdirilməsi üçün məhsul istehsalçılarının mineral gübrələrlə vaxtında təchiz edilməsi zəruridir. 2010-cu il ərzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə məhsul istehsalçılarına ümumi dəyəri 1 milyon 554 min manata yaxın olan 4033 tondan çox mineral gübrə paylanmışdır.

Görülən tədbirlər nəticəsində kənd təsərrüfatında ümumi məhsul istehsalı artmağa başlamışdı. Əgər 2005-ci ildə 98 milyon 255 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdursa, 2009-cu ildə bu göstərici 185 milyon manatdan çox olmuşdur [27, 14]. Ümumiyyətlə, kənd təsərrüfatı malları istehsalının həcmi on beş ildə 4 dəfə artmışdır.

Aqrar islahatlarla əlaqədar olaraq muxtar respublikada kolxoz və sovxozlar ləğv edilmiş, onların torpaq və əmlakı kəndlilərə paylanmışdı. Əgər 1995-ci ildə muxtar respublikada kənd təsərrüfatı məhsulunun 57 faizi özəl sektorun payına düşürdüsə, 2000-ci ildən bu göstərici 100 faiz təşkil etdi.

Muxtar respublikada kənd təsərrüfatının ümumi məhsulunun strukturunda ciddi dəyişikliklər baş vermişdir. Aparılmış islahatlar kənd təsərrüfatı istehsalı sahəsində mövcud potensialın səmərəli şəkildə reallaşdırılmasına imkan yaratdı. Hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun kənd təsərrüfatı strukturunun formalaşmasını şərtləndirdi. Bu, özünü kənd təsərrüfatı məhsulları istehsalının strukturunda da göstərdi. Görülən tədbirlər nəticəsində muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artdı. 1990-2003-cü illərdə taxıl istehsalı 2,5, kartof istehsalı 5,5, tərəvəz istehsalı 2,7, meyvə və giləmeyvələr istehsalı 3,4, bostan məhsulları 7,9 dəfə

artmışdır. Nəticədə 2005-ci ildə 98,3 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdursa, 2006-cı ildə bundan 10 milyon 750 min manat çox – 109 milyon manatlıq məhsul istehsal edilmişdir. Sonrakı illərdə bu göstərici daha da artıq olmuşdur. Belə ki, 2009-cu ildə 185 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 2008-ci illə müqayisədə 13,4 faiz artıma nail olunmuşdur. Həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikanın kənd təsərrüfatı sahəsində dinamik artım davam etdirilmişdir. 2010-cu ildə 247 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu il üzrə müvafiq göstəricini 13 faiz üstələyir.

Muxtar respublika rəhbərliyinin taxılçılığa mühüm əhəmiyyətli sahə kimi yanaşması nəticəsində bu sahədə yüksək artıma nail olunmuşdur. Belə ki, 2000-ci ilə nisbətən 2005-ci ildə taxıl əkini sahəsi 59,3 faiz, məhsul istehsalı isə 71,3 faiz artmışdır. Ümumiyyətlə, muxtar respublikada 1995-ci ildə 23,6 min ton, 2000-ci ildə 54,4 min ton, 2005-ci ildə 93,2 min ton, 2009-cu ildə 94,7 min ton taxıl yığılmışdır. 2010-cu ildə isə taxıl zəmilərindən 96 min ton məhsul toplanmışdır ki, bu da 2009-cu illə müqayisədə 1,4 faiz çoxdur. 1988-ci illə müqayisədə taxıl istehsalının həcmi ötən il 67 min ton artmışdır.

Kənd təsərrüfatının inkişafında taxıl anbarlarının, elevatorların inşası da mühüm yer tutur. Bu zərurət nəzərə alınaraq 2009-cu ildə 18 min ton taxılı uzun müddətə, 20 min ton taxılı isə qısa müddətə saxlamaq gücünə malik Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyatı Anbarı yaradılmışdır. Anbar kompleksi bir tərəfdən məhsul istehsalçılarının taxıl tədarükü zamanı rastlaşdıqları problemləri aradan qaldırırsa, digər tərəfdən muxtar respublikada taxıl ehtiyatlarının yaradılmasında müstəsna rol oynayır.

Muxtar respublikada taxılçılıqla yanaşı kartofçuluğun inkişafına da xüsusi diqqət yetirilmişdir. 11 aprel 2005-ci il tarixdə təsdiq olunmuş 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası nəticəsində idxaldan asılılığın aradan qaldırılmasında mühüm irəliləyiş əldə olunmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində 2010-cu ildə 2740,5 hektar sahədə kartof əkilmişdir. Kartof əkini keçirilmiş sahələrdən 37901 ton məhsul tədarük edilmişdir ki, bu da 2004-cü illə müqayisədə 2,2 dəfə və ya 20843

ton, 1988-ci illə müqayisədə isə 38 dəfə və ya 36896 ton artım deməkdir [28, s. 13].

Muxtar respublikada şəkər çuğunduru istehsalına da xüsusi əhəmiyyət verilmişdir. Şəkər çuğunduru istehsalı 1992-ci ildən başlamış və ilbəil artıma nail olunmuşdur. 2000-ci ildə məhsul istehsalı 1992-ci illə müqayisədə 143,9 dəfə çox olmuşdur. 2003-cü ildə şəkər çuğunduru istehsalı 129 min ton təşkil etmiş, 2010-cu ildə şəkər çuğunduru əkin sahələri 2009-cu ilə nisbətən 41,2 faiz artaraq 1716,4 hektar olmuşdur.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının inkişafında heyvandarlığın xüsusi rolu vardır. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü tədbirlər nəticəsində bu sahədə də böyük nailiyyətlər əldə edilmişdir. Heyvanların müxtəlif xəstəliklərdən qorunması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 noyabr tarixli Fərmanı ilə Dövlət Baytarlıq Xidməti yaradılmışdır. 2000-ci ildə xırdabuynuzlu heyvanların sayı 425,4 min baş olmuşdur ki, bu da 1995-ci illə müqayisədə 146,7 min baş və ya 1,5 dəfə çox idi. Bu artım iribuynuzlu mal-qaranın artımında da özünü göstərirdi. 1995-ci ildə qaramalın baş sayı 55,5 min olduğu halda 2000-ci ildə bu göstərici artaraq 74 min başa çatmışdır ki, bu da 1995-ci ildəkindən 18,5 min baş çox idi. 2007-ci ildə xırdabuynuzlu heyvanların sayı 563897-ə, iribuynuzlu heyvanların sayı isə 94044-ə çatmışdır. 2010-cu ilin əvvəllərində muxtar respublikada qaramalın sayı 98,8 min baş, xırdabuynuzlu heyvanların sayı isə 589603 baş olmuşdur. 01 yanvar 2011-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 101160 baş, qoyun və keçilərin sayı isə 603018 baş olmuşdur ki, bu da müvafiq olaraq 2010-cu ilin göstəricilərini 2,4 və 2,3 faiz üstələmişdir. Bu dövr ərzində ət istehsalı 4 dəfə, süd istehsalı isə 3 dəfə artmışdır.

Heyvandarlıqda məhsuldarlığın yüksəldilməsini, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasını və damazlıq işinin inkişafını təmin etmək üçün son iki ildə muxtar respublikaya 280 baş cins mal-qara gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir.

Bəhs olunan illərdə muxtar respublikada quşçuluğun, arıçılı-

ğın və balıqçılığın inkişafı da diqqət mərkəzində saxlanılmışdır. 2010-cu ildə quşçuluq sahəsində 7 təsərrüfat subyekti fəaliyyətə başlamışdır. Bundan başqa, ətlik və yumurtalıq istiqamətində daha 5 quşçuluq təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilir. 2010-cu ilin sonunda quşların sayı 901 min başdan çox olmuşdur. Bu göstərici isə 1989-cu ilin göstəricisindən 3 dəfə çoxdur. 2011-ci ilin yanvarında muxtar respublikada 52685 arı ailəsi mövcud olmuşdur ki, bunlardan 710 ton bal istehsal edilmişdir [15, 2011, 29 yanvar]. Muxtar respublikanın zəngin su ehtiyatları balıqçılığın inkişafı və qiymətli balıq cinslərinin yetişdirilməsi üçün əlverişli şərait yaradır. Təkcə 2009-cu ildə 5, 2010-cu ildə isə 2 balıqyetişdirmə təsərrüfatı istifadəyə verilmişdir. Ümumilikdə isə hazırda muxtar respublikada 10 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir.

Bütün bunlar bir daha əyani olaraq göstərir ki, muxtar respublika rəhbərliyinin ardıcıl və məqsədyönlü aqrar siyasəti öz müsbət nəticəsini vermiş, kənd təsərrüfatının bütün sahələrində yüksək nəticələr qazanılmışdır. Belə ki, 1995-ci illə müqayisədə 2010-cu ildə taxıl istehsalı 4,1 dəfə, kartof istehsalı 87 dəfə, tərəvəz istehsalı 41,1 dəfə, bostan məhsulları istehsalı 81,3 dəfə, meyvə və giləmeyvə istehsalı 1,6 dəfə, ət istehsalı 72,9 faiz, süd istehsalı 2,1 dəfə, yumurta istehsalı 42,4 faiz, yun istehsalı 74,3 faiz artmışdır.

Naxçıvan Muxtar Respublikasında torpaq islahatı və özəlləşdirmə prosesi ardıcıl olaraq aparılmışdır. 2005-ci ildə muxtar respublikanın 205 kəndindən 198-də, 132 təsərrüfatda torpaq islahatı başa çatdırılmış, 54,9 min hektar torpaq sahəsi xüsusi mülkiyyətə verilmişdi. Muxtar respublikada özəlləşdirmə prosesi 1996-cı ildən başlamış və beş il ərzində 2145 müəssisə və obyekt özəlləşdirilmişdir. Özəlləşdirilmiş obyekt və müəssisələrin satışından dövlət büdcəsinə 315,7 milyon manat vəsait daxil olmuşdur. 2005-ci ilə qədər isə 3457 kiçik müəssisə və obyekt özəlləşdirilmiş, 46 dövlət müəssisəsi isə səhmdar cəmiyyətə çevrilmişdir. 2007-ci ildə özəlləşdirmədən 351, 4 min manat vəsait əldə edilmişdir.

İslahatlar nəticəsində ümumi məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi hər il artmışdır. Sahibkarlığın inkişafı üçün yaradılmış münbit şəraitin nəticəsidir ki, 2010-cu ildə ümumidaxili məhsul istehsalında özəl bölmənin payı 86 faizi ötmüşdür. Hazırda

aqrar sektor, sənaye, ticarət, nəqliyyat, rabitə sahəsində qeyri-dövlət bölməsinin payı 83-99 faiz arasında dəyişir.

2.5. Nəqliyyat və rabitə sahəsində baş verən dəyişikliklər

Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətlənməsində nəqliyyat və rabitənin də xüsusi yeri vardır. İyirmi ilə yaxın blokada şəraitində yaşamasına baxmayaraq muxtar respublikanın nəqliyyat sisteminin inkişaf etdirilməsi məqsədi ilə sistemli tədbirlər görülmüşdür. Doğma diyarın öz qapılarını dünya dövlətlərinin üzünə açdığı bir dövrdə nəqliyyat sisteminin, yolların, hava limanının, avtovağzalların müasir tələblərə cavab verməsinin əhəmiyyəti bir qədər də artıb. Naxçıvan Beynəlxalq Hava Limanının rolu və əhəmiyyəti xeyli yüksəlib. Həm xarici ölkələrə (Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası), həm də respublikamızın Bakı, Gəncə kimi şəhərlərinə gedən sərnişinlər bu limanın xidmətindən istifadə edirlər. Ulu öndərimizin tövsiyəsi, diqqət və qayğısı, ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Beynəlxalq Hava Limanı öz gözəlliyi, müasirliyi və rahatlığı ilə sərnişinləri razı salır. Naxçıvanlıların Azərbaycan Respublikası ilə əlaqələri yalnız hava nəqliyyatı ilə həyata keçirilir. 90-cı illərin ortalarında hava limanının yenidən qurulması, 2004-cü ildə isə Naxçıvan Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi ağır yüklü nəqliyyat təyyarələrinin qəbul olunmasına imkan vermişdir.

Muxtar respublikada yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, yeni yollar salınmış, körpülər tikilmişdir. 1995-ci ildə cəmi 16 km asfalt yol çəkilmişdirsə, 2010-cu ildə bu 198,6 km-ə çatmışdır. İstifadəyə verilmiş yolların 88,4 km-i magistral, 110,2 km-i isə yerli əhəmiyyətli yollardır. Naxçıvan-Sədərək yolu ən yüksək səviyyədə qurulmuşdur. Hazırda Naxçıvan-Culfa yolunda işlər aparılır. Son 15 ildə 119 körpü tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bunların arasında beynəlxalq əhəmiyyətli "Ümid" körpüsünün, Şahtaxtı-Poldəşt körpüsünün çox böyük əhəmiyyəti vardır. Sədərək, Culfa və Şahtaxtı Gömrük idarələrinin sərhəd-keçid komplekslərinin istifadəyə verilməsi, "Bakı-

Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması nəqliyyat və iqtisadi əlaqələrin genişlənməsində mühüm mərhələ olmuşdur.

2010-cu ildə yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, 277 kilometr uzunluğunda yeni yollar salınmışdır. İstifadəyə verilmiş yolların 167 km-i magistral, 110 km-i isə yerli əhəmiyyətli yollardır [15, 2011, 29 yanvar].

Sərnişin daşınmasının və avtobus xidmətinin səviyyəsini yaxşılaşdırmaq məqsədilə 2009-cu ildə Naxçıvan, Şərur, Culfa və Şahbuz şəhərlərində, 2010-cu ildə Ordubad şəhərində avtovağzal kompleksləri istifadəyə verilmişdir.

Sərnişin daşınmasında rahatlığı və təhlükəsizliyi təmin etmək, xidmətin səviyyəsini artırmaq məqsədi ilə muxtar respublikaya xeyli sayda avtobus gətirilmiş və istismara buraxılmışdır. 1988-ci ilin sonunda muxtar respublikada 14216 ədəd avtomobil mövcud idisə, 2011-ci ilin əvvəlində bu göstərici 3 dəfə artaraq 38692 ədədə çatmışdır. 2010-cu ildə muxtar respublikaya 14 yeni avtobus gətirilmişdir. Naxçıvan Avtomobil Zavodu müxtəlif modeldə maşınlar istehsal etməyə başlamışdır.

Naxçıvan Muxtar Respublikasının rabitə sisteminin rolu da xeyli artmışdır. 1995-2001-ci illərdə muxtar respublikada rabitənin inkişafı yüksək xətlə getmişdir. Cənubi Koreyanın "DEU telekom" şirkəti ilə bağlanmış müqaviləyə (1998) əsasən muxtar respublikanın yaşayış məntəqələri telefonlaşdırılaraq abonentlər birbaşa Beynəlxalq Telefon rabitə sisteminə çıxma imkanı əldə etmişlər. Telekommunikasiya sistemində aparılan yenidənqurma işlərinin nəticəsində 35 mindən yuxarı elektron tipli xətt və nömrə, eyni zamanda mobil telefon şəbəkəsi istifadəyə verilmişdir. Ötən dövrdə muxtar respublikada telekommunikasiya sahəsində çox işlər görülüb, əhalinin yeni texnologiyalara olan tələbatı xeyli yüksəlib. Bu gün muxtar respublika üzrə fərdi kompyuterlərin sayı 45 minə çatmış, internetdən istifadə edənlərin sayı 100 mindən çox olmuşdur. Naxçıvanın özünün müstəqil "Naxtel" mobil rabitə sistemi mövcuddur və bunun vasitəsilə muxtar respublika ərazisinin 80 faizi simsiz internetlə təmin olunur. Muxtar respublikada aktiv istifadə olunan mobil telefonların sayı hazırda 358 min ədəddən çoxdur [15, 2011, 29 yanvar]. Əhalinin hər 100 nəfərinə 88 mobil telefon düşür. Hazırda muxtar respublikada mobil telefon

abunəçilərinə xidmət edən 4 mobil operator fəaliyyət göstərir.

Muxtar respublika rəhbərliyinin informasiya və kommunikasiya sisteminin inkişafına böyük əhəmiyyət verməsinin nəticəsidir ki, bu sahədə çox böyük uğurlar əldə edilmişdir. Qısa müddət ərzində muxtar respublika ərazisində mövcud olan rabitə müəssisələri modernləşdirilmiş, yeni rabitə müəssisələri yaradılmışdır. 2005-ci ildə muxtar respublikada 9 rabitə müəssisəsi və 79 poçt şöbəsi mövcud olmuşdur. Rabitə xidmətlərindən gələn gəlirlər xeyli artmışdır. 2000-ci il ərzində muxtar respublikanın rabitə müəssisələri tərəfindən 7,8 milyon manatlıq rabitə xidməti göstərilmişdir ki, bu da 1995-ci illə müqayisədə 3,7 dəfə çox idi. 2007-ci ildə rabitə xidmətlərinin həcmi 16207,6 min manata çatmışdır. 2009-cu il ərzində 3 min 55 yeni telefon çəkilişi aparılmış, poçt və rabitə xidmətlərinin həcmi 2008-ci illə müqayisədə 34 faiz artaraq 31,1 milyon manat təşkil etmişdir. İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi rabitə xidmətlərinin həcminin də artmasına müsbət təsir göstərmiş, 2010-cu ildə muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 36 milyon manatdan çox olmuşdur ki, bu da 2009-cu illə müqayisədə 18 faiz artım deməkdir. Ümumi rabitə xidmətinin 86 faizi və ya 31 milyon 442 manatı mobil rabitənin payına düşmüşdür.

İnformasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması istiqamətində tədbirlər görülmüş, Azərbaycan-Türkiyə optik kabel magistralının Naxçıvan seqmentinin yaradılması hesabına böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsi mümkün olmuşdur. Naxçıvan şəhərində, bir sıra qəsəbə və kəndlərdə yeni nəsil avtomat telefon stansiyaları quraşdırılmışdır. 64 telefon stansiyasında birləşdirici xətt əlaqəsi yaratmaq məqsədilə 554,2 km uzunluğunda radiorele xətti və 119 km fiberoptik kabellərdən istifadə etməklə 7470 telefon kanalı yaradılmış, 61 antena qülləsi tikilmişdir. Muxtar respublika üzrə hər 100 ailəyə düşən stasionar telefon aparatlarının sayı 65-ə çatmışdır.

2.6. Elektroenergetikanın yenidən qurulması və inkişafı

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında elektroenergetikanın xüsusi rolu vardır. Ölkəmizdə elektroenergeti-

kanın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Əvvəllər Naxçıvan Muxtar Respublikası elektrik enerjisi ilə Zaqafqaziyanın vahid energetika sistemindən 220 kilovoltluq Ararat-Babək, 110 kilovoltluq Ararat-Şərur, Aqarak-Ordubad elektrik xətləri ilə və sistemə qoşulan Araz Su Elektrik Stansiyası vasitəsi ilə təchiz edilirdi. Ermənistan Respublikasının həyata keçirdiyi blokada siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik enerjisi verilişi dayandırıldı, yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 meqavat gücündə elektrik enerjisi şəbəkələrə ötürüldü.

1991-92-ci illərdə yaranmış çətin şəraitə baxmayaraq, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə blokadada olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təchiz etmək məqsədilə Türkiyədən 154 kilovoltluq və İrandan Naxçıvana 132 kilovoltluq yüksək gərginlikli elektrik verilişi xətləri çəkildi [1, 2010, 20 oktyabr]. Türkiyədən və İran İslam Respublikasından elektrik enerjisi alınmağa başlandı. 1993-cü ilin ortalarında muxtar respublikaya İran İslam Respublikasından 42 meqovat, Türkiyə Respublikasından isə 63 meqovat gücündə elektrik enerjisi daxil olurdu [15, 2010, 20 oktyabr].

90-cı illərin ortalarından başlayaraq muxtar respublikaya daxil olan elektrik enerjisinin paylanılmasını yaxşılaşdırmaq, itkiləri azaltmaq, enerji təchizatının etibarlılığını yüksəltmək üçün bir sıra mühüm tədbirlər həyata keçirildi. İlk növbədə "Koroğlu", "Araz", "Culfa", "Çeşməbasar", "Arpaçay", "Sədərək", "Xalxal" yarımstansiyaları tikilib quraşdırılmış və onların gücü artırılmışdır. 2010-cu ildə Naxçıvan şəhərində "Xalçaçılıq", "Xətai" və "Sənaye qovşağı" elektrik yarımstansiyaları qurulmuşdur. Ümumilikdə bu dövr ərzində muxtar respublika üzrə 36 ədəd müxtəlif güclü transformator yarımstansiyasının quraşdırılması və 55,1 km uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılmışdır [9, s. 104].

Muxtar respublika əhalisini və istehsal sahələrini elektrik enerjisi ilə təmin etmək üçün 2006-cı ildə görülən tədbirlərin əhəmiyyəti daha böyük olmuşdur. 2005-ci ildə muxtar respublikaya təbii qazın verilməsi yeni elektrik stansiyalarının işə salınmasına

səbəb olmuş, Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində burada 60 meqovat gücündə enerji istehsal etmək imkanları yaranmışdır. Ölkə başçısı İlham Əliyevin himayəsi ilə muxtar respublikada 87 meqovat elektrik enerjisi istehsal etmək gücünə malik modul tipli elektrik stansiyası çox qısa müddətdə tikilərək istifadəyə verilmişdir. Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə, Ordubad rayonu ərazisində Gilan çayı üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyaları tikilmişdir. Bundan başqa Ordubad və Arpaçay su elektrik stansiyalarının inşası üçün texniki-iqtisadi cəhətdən əsaslandırma işləri davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Naxçıvanın enerji ilə təminatı məsələsi dəfələrlə müzakirə edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və muxtar respublikanın elektrik enerjisi ixrac edən bir bölgəyə çevrilməsi məsələsi qoyulmuşdur. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilmişdir. Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan muxtar respublikada bu gün artıq 5 elektrik stansiyası fəaliyyət göstərir. 1988-ci ildə muxtar respublikada 86 milyon kilovat-saat elektrik enerjisi istehsal olunmuşdursa, 2010-cu ildə bu göstərici 6 dəfə artaraq 534 milyon kilovat-saata çatmışdır. Əvvəllər elektrik enerjisinin böyük bir hissəsi qonşu ölkələrdən idxal edildiyi halda, bu gün muxtar respublika artıq elektrik enerjisi ixrac edən bir diyara çevrilmişdir.

2.7. Əhalinin qazla təmin edilməsi

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının uğurlu davamının məntiqi nəticəsidir ki, ölkəmizin ayrı-ayrı bölgələrində olduğu kimi, muxtar respublikamızda da irimiqyaslı layihələr reallaşır, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir. Görülən işlərin bir hissəsini də muxtar respublikamızda əhalinin və təsərrüfat subyektlərinin təbii qazla təmin olunması istiqamətində həyata keçirilən layihələr təşkil edir. Ölkə başçısı İlham Əliyevin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət

Proqramı (2004-2008-ci illər)" və bu Dövlət Proqramının icrasını yüksək səviyyədə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 iyun 2005-ci il tarixli Sərəncamla təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" muxtar respublikamızda irimiqyaslı layihələrin reallaşmasına geniş imkanlar açdı. Hazırda muxtar respublikamızın iqtisadiyyatı inkişaf edir, yeni istehsal müəssisələri yaradılır. Təbii ki, bu inkişafın fonunda təbii qaza olan tələbat da artır. «Azərbaycan Respublikasının yanacaq enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramı (2005-2015-ci illər)»na uyğun olaraq ölkəmizin ayrı-ayrı regionlarında olduğu kimi, muxtar respublikamızda da ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Lakin məkrli qonşularımız 1991-ci ildə muxtar respublikaya qaz verilməsini dayandırdıqdan sonra əhalinin qazla təmin edilməsində problemlər yaranmışdı. Muxtar respublikanı vəziyyətdən çıxarmaq üçün 1992-ci ilin avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasında səfərdə olarkən prezident Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüş, iqtisadi əlaqələrin genişləndirilməsi, həmçinin muxtar respublikanın qaz tələbatını təmin etmək barədə söhbətlər aparmış və razılıq əldə etmişdi.

İran tərəfi Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürmüşdü. Kəmər istifadəyə verildikdən sonra muxtar respublikaya sutkada 1 milyon kub metr qaz verilməli idi. Lakin müəyyən səbəblərdən qaz çəkilişi bir qədər yubandı. İran İslam Respublikası Naxçıvan MR-ə ayda 100 ton maye qaz göndərməyi öhdəsinə götürmüşdü. 1998-ci ildə maye qazla qazlaşdırılmış mənzillərin sayı 46274-ə çatdırıldı. Muxtar respublikanın həyatında baş verən ən əlamətdar hadisə uzun illərin fasiləsindən sonra ölkə Prezidenti İlham Əliyevin bilavasitə himayə və qayğısı nəticəsində 2005-ci ildə İran İR-dən mübadilə yolu ilə Naxçıvan MR-ə təbii qaz kəmərinin çəkilişi oldu. Qısa müddət ərzində Culfa-Naxçıvan yüksək təzyiqli, Naxçıvan-Cəhri orta təzyiqli magistral, Naxçıvan şəhər orta təzyiqli dairəvi qaz kəmərinin çəkilişi başa çatdırıldı. Culfa-Ordubad və Şahbuz-Sədərək ötürücü qaz kəmərinin təmiri və bərpası tamamlandı. 2005-ci ildə 6770 mənzil və 195 fərdi ev qazlaşdırıldı. Sonrakı

illərdə qazlaşdırma prosesi çox sürətlə aparıldı və muxtar respublikada əhalinin və təsərrüfat subyektlərinin qazla təchizatı başa çatdırıldı. 2011-ci ilin yanvarınadək 220 yaşayış məntəqəsində 78157 mənzil qazlaşdırılmış, pulsuz olaraq mətbəx sobaları verilmiş, qaz sayğacları quraşdırılmışdır.

2.8. Əhalinin sosial müdafiəsinin təmin edilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə görülən işlər, həyata keçirilən tədbirlər, qazanılan uğurlar və uğurlardan insanların sosial vəziyyətlərinin yaxşılaşdırılması, yaşayış şəraitinin yüksəldilməsinə yönəldilən tədbirlər insanları razı salır, onların fəal mövqe tutmalarına, Naxçıvanın hərtərəfli inkişafına səbəb olur. 1995-2010-cu illərdə muxtar respublikada əhalinin sosial müdafiəsini təmin etmək sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. İşçilərin aylıq əməkhaqqının və gəlirlərinin artırılmasına, onların sosial müdafiəsinə diqqət artırılmışdı. Naxçıvan MR-də iqtisadiyyatın müxtəlif sahələri üzrə muzdla işləyənlərin orta aylıq əməkhaqqı 1998-ci ildə 163,2 manat təşkil etmişdi ki, bu da 1995-ci ildəki müvafiq göstəricidən 83,7 manat və ya 2,1 dəfə yüksək idi. 2005-ci ildə sənayedə işləyənlərin nominal əməkhaqqı 221 manat, tikintidə 301 manat, nəqliyyatda 210,9 manat, rabitədə 220,2 manat təşkil etmişdi ki, bu da 1995-ci ildəkindən 2,2 dəfə yüksək idi. 2005-ci ildə 2000-ci ilə nisbətən əhalinin nominal pul gəlirləri 2,7 dəfə, adambaşına düşən pul gəliri isə 2,6 dəfə artmışdı [23, s. 65].

Görülən məqsədyönlü tədbirlər əhalinin rifahının və gəlirlərinin yüksəlməsinə səbəb olmuşdur. 2009-cu ildə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 2008-ci ilə nisbətən 15,8 faiz çox olmuşdur. 2010-cu ildə orta aylıq əməkhaqqının məbləği 303 manat olmuşdu. Ümumiyyətlə, 1994-cü illə müqayisədə 2009-cu ildə əhali gəlirlərinin həcmi 36 dəfə artaraq 25,6 milyon manatdan 913,4 milyon manata çatmışdır [27,s. 26].

İnsanların tələbatlarını ödəmək üçün bu gün muxtar respublikada 108 növdə, 319 çeşiddə ərzaq, 184 növdə, 461 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 292 növdə, 780 çeşiddə məhsul istehsal olunur

[15, 2011, 29 yanvar]. İstehsal olunan 89 növdə ərzaq, 158 növdə qeyri-ərzaq olmaqla, cəmi 247 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Muxtar respublikada pensiyaçı və müharibə əlillərinin, şəhid və aztəminatlı ailələrin sosial-müdafiəsinə diqqət xeyli artırılmışdır. 2000-ci ildə muxtar respublikada 52254 pensiyaçı var idi. Onlar hər cür diqqət və qayğı ilə əhatə olunmuş, aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara da qayğı göstərilmişdir. Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə də müharibə və hərbi əlillərdən, veteranlardan 50 nəfərinə "Tavriya" markalı avtomobil, 152 nəfərə isə müxtəlif sanatoriya və pansionatlara göndəriş verilmişdir. 2009-cu ildə ailələrə 3 milyon 447 min manatdan artıq ünvanlı dövlət sosial yardımı ödənilmişdir [27, s. 35]. Beləliklə, muxtar respublikada aparılan məqsədyönlü iqtisadi və sosial siyasət əhalinin rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmışdır.

Muxtar respublika iqtisadiyyatında əldə olunmuş sabit artım tempi səmərəli məşğulluğun təşkili və yeni iş yerlərinin yaradılması üçün də əlverişli mühit formalaşdırmışdır. 2000-2005-ci illər ərzində məşğulluq mərkəzləri tərəfindən 6915 nəfər işlə təmin olunmuşdur [23, s. 65]. Sonrakı illərdə bu məsələyə daha böyük diqqət yetirilmişdir. 2006-cı ildə 8044 yeni iş yeri, 2007-ci ildə 5827, 2008-ci ildə 6434, 2009-cu ildə isə 4742, 2010-cu ildə 3556 yeni iş yerləri açılmışdır. Ümumiyyətlə, 1995-2010-cu illərdə 64 mindən çox yeni iş yeri yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" müvəfəqiyyətlə yerinə yetirilmişdir.

Muxtar respublika sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, içməli su ilə təchizatı məsələsinə də xüsusi əhəmiyyət verilmişdir. Bu illərdə muxtar respublikanın əhalisi 70 min nəfər artmışdır. 1991-2000-ci illərdə muxtar respublikada 152,9 min kv metr mənzil sahəsi tikilmişdi. 2007-ci ildə muxtar respublika əhalisi 66,6 min kv metr yaşayış evləri inşa etmişdir. 2010-cu ilin altı ayında əhalinin şəxsi vəsaiti hesabına 130,5 min kv metr yaşayış sahəsi istifadəyə verilmişdir. Son illərdə inzibati, sosial və yaşayış binalarının

təmirinə, yenidən qurulmasına, su, istilik və kanalizasiya sistemlərinin dəyişdirilməsinə və çəkilməsinə çox böyük diqqət yetirilmişdir. 2003-cü ildə dövlət, ictimai və mənzil-tikinti kooperativləri mənzillərinin su kəməri ilə təminatı 94 faiz, mərkəzi istilik sistemi ilə təminatı 81,1 faiz, qaz kəməri ilə təminatı 92 faiz, kanalizasiya ilə təminatı 91,2 faiz olmuşdur.

Naxçıvan Muxtar Respublikasının, onun şəhər, qəsəbə və çoxsaylı kəndlərinin böyük əksəriyyətinin su sistemi tamamilə yenidən qurulmuş, əsaslı təmir işləri görülmüşdür. Şərur-Naxçıvan su kəməri bərpa edilmiş, Naxçıvan şəhərinə yeni su xətti çəkilmiş, Ordubad şəhərinin su xətti bərpa edilmişdir. Onlarla kəndə (Nehrəm, Sirab, Bənəniyar, Qarababa, Göydərə, Əlincə, Xoşkeşin, Xanəgah, Ərəfsə, Əylis, Düylün və b.) içməli su xətti çəkilmişdir. 1993-2001-ci illərdə rayonlarda 32 su nasos stansiyası tikilmiş, çoxlu sayda subartezian quyuları qazılmışdır. Əhalinin içməli suya və suvarma suyuna tələbatını ödəmək üçün son illərdə 148 nasos stansiyası qurulmuş, 331 subartezian quyusu qazılmışdır. 2000-2005-ci illərdə Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonunun 18 kəndinə (Tənənəm, Qaraxanbəyli, Çalxanqala, Qabıllı, Parağa, Dəstə, Zeyvə, Aşağı Yaycı, Bulqan, Tumbul, Qarabağlar, Yuxarı Əylis və s.) içməli su xətləri çəkilmiş, kəhrizlər bərpa edilmişdir. 2009-cu il ərzində 14 nasos stansiyası, 22 subartezian quyusu və 22 kəhriz istifadəyə verilmişdir.

2.9. Ekologiya və yaşıllaşdırma tədbirləri

Muxtar respublikada təbii meşə ehtiyatlarının az olması, son illərdə sənaye potensialının inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, keçən əsrin 90-cı illərində muxtar respublikanın blokadaya düşməsi nəticəsində yanacağın çatışmaması ucbatından ağacların kütləvi şəkildə qırılması muxtar respublikanın ekologiyasına ciddi ziyan vurdu. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən təbiətə dəyən ziyanın aradan qaldırılması üçün ardıcıl tədbirlər müəyyənləşdirmiş, yaşıllaşdırma aylığının keçirilməsini taleyüklü məsələ kimi irəli sürmüşdür.

1996-cı ildən etibarən muxtar respublikada ümummilli liderimizin müəyyənləşdirdiyi quruculuq xəttinə, o cümlədən yaşıllaşdırma aylığının keçirilməsi barədə qəbul etdiyi qərara ardıcıl əməl edilməsinin nəticəsində təbii meşə sahələri artırılmış, parklar, yaşıllıq zolaqları, gülkarlıqlar salınmış, həmişəyaşıl ağaclar əkilmişdir. Qeyd etməliyik ki, Naxçıvan Muxtar Respublikasının ərazisi flora müxtəlifliyinin zənginliyinə görə Azərbaycan florasının 62,4 faizini təşkil edir. Amma bununla yanaşı burada meşə ehtiyatları olduqca azdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin "Naxçıvan Muxtar Respublikasında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 1 mart 2001-ci il tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Həmin sərəncamdan sonra muxtar respublikada hər ilin yaz və payız aylarında yaşıllaşdırma, təmizlik və abadlıq aylığı elan olunmuş, iməciliklərin keçirilməsi ənənə halını almışdır. Həmçinin Ali Məclis Sədrinin "2007-ci ilin yazında və payızında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 24 fevral 2007-ci il tarixli Sərəncamı ilə əlavə tədbirlər keçirildi. Keçirilən iməciliklərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etməsi, müvafiq tapşırıqlar verməsi bu gün muxtar respublikamızın yaşıllıqlar diyarına çevrilməsində böyük rol oynadı. 2009-cu ildə yaşıllaşdırma tədbirlərinin uğurla davam etdirilməsi nəticəsində muxtar respublika ərazisində 497,3 hektar sahədə meşəsalma, meşəbərpa tədbirləri həyata keçirilmişdir ki, bu da 2008-ci illə müqayisədə 2 faiz çoxdur. Həyata keçirilən yaşıllaşdırma tədbirlərində 206718 ədəd meşə tingi, 280140 ədəd meyvə tingi, 12983 ədəd həmişəyaşıl ağac, 49430 ədəd bəzək və gül kolu olmaqla 549271 ədəd ting əkin dövriyyəsinə daxil edilmişdir. Naxçıvan diyarının iqlim şəraiti nəzərə alınaraq damcı üsulu ilə suvarmanın tətbiqinə başlanılmışdır. 2009-cu ildə Naxçıvan-Sədərək magistral yolunun 6-10 kilometrliyində yeni salınmış 50 hektarlıq yaşıllıq sahəsi, Culfa rayonu ərazisində 26 hektar sahə damcı üsulu ilə suvarılır. Ümumiyyətlə, 156 hektar sahədə damcı üsulu ilə suvarmadan istifadə edilir ki, bu zaman su itkisi aradan qaldırılır. 2001-cu ildə yeni yaşıllıq zolaqlarının yaradılması, yaşıllaşdırma tədbirlərinin görülməsi təsdiq olunmuş plan əsasında aparılmış, muxtar respublikada 522,5 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış,

585 mindən çox ağac və bəzək kolu əkilmişdir [15, 2011, 29 yanvar].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 25 may tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi də muxtar respublika ərazisində təbiətin qorunması, əlverişli ekoloji mühitin yaradılması və mövcud ekoloji tarazlığın saxlanılması sahəsində mühüm tədbirlər həyata keçirir. Nazirlik tərəfindən təkcə 2009-cu ildə 145,2 hektar sahədə yeni yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınmış və meşəbərpa tədbirləri həyata keçirilmişdir.

Muxtar respublikada həyata keçirilən yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri öz nəticəsini vermiş, yaşıllıq ərazilər artmışdır. Belə ki, əgər 1990-cı ilin əvvəlində yaşıllıq sahələri muxtar respublika ərazisinin cəmi 0,6 faizini təşkil edirdisə, hazırda bu göstərici 7-8 faiz olmuşdur. Bu müddətdə adambaşına düşən yaşıllığın həcmi isə 0,012 hektardan 0,21 hektara yüksəlib. Halbuki ölkə ərazisində adambaşına 0,14 hektar meşə örtüyü düşür. Son 15 ildə muxtar respublika ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 10124 hektar sahədə yaşıllıqlar – meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmışdır [9, s. 127].

Naxçıvan diyarında ətraf mühitin mühafizəsi, nadir, nəslikəsilmək təhlükəsi olan flora və fauna növlərinin, təbiət komplekslərı və abidələrin qorunub saxlanılması, insanların ətraf mühitdən sağlamlıq, istirahət və turizm məqsədilə istifadəsinin təmin edilməsi üçün xüsusi mühafizə statuslu təbiət əraziləri genişləndirilmiş və inkişaf etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında ilk xüsusi mühafizə olunan təbiət ərazisi ümummilli liderimiz Heydər Əliyevin diqqət və qayğısı ilə 1969-cu ildə yaradılmış Ordubad Dövlət Yasaqlığıdır. Muxtar respublikanın xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu yaradıldı [8, 2010, 10 oktyabr].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı (ərazisi 9118 hektar), 2009-cu il 22 iyun tarixli Fərmanı ilə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı (ərazisi 68911,18 hektar) yara-

dıldı [9, s. 128-129].

Muxtar respublika ərazisində mövcud olan ekoturizm potensialından səmərəli istifadə edilməsi, həmin ərazilərdə nadir, nəsli kəsilmək təhlükəsi olan flora və fauna növlərinin mühafizə edilməsi, elmi-tədqiqat işlərinin aparılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradıldı. Bu Milli Parkın ərazisinə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Culfa, Ordubad rayonlarının inzibati ərazilərində olan dövlət meşə fondu və Şahbuz, Culfa, Ordubad rayonlarının inzibati ərazisində yerləşən yay otlaqlarının torpaqları daxil edildi. Beləliklə, 1995-ci illə müqayisədə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 3,7 dəfədən çox artdı. Ümumiyyətlə, muxtar respublikanın 148 min 816,6 hektar ərazisi xüsusi mühafizə olunan təbiət əraziləridir. Bu göstərici öz növbəsində beynəlxalq normaları da üstələyir.

"Ekologiya ili" elan olunmuş 2010-cu ildə də muxtar respublikada yaşıllaşdırma, təmizlik və abadlıq sahəsində həyata keçirilən tədbirlər daha geniş miqyasda davam etdirilmişdir. 2010-cu ilin yaz əkini dövründə yeni yaşıllıq zolaqları yaradılmış, yaşıllaşdırma tədbirləri aparılmış, muxtar respublika üzrə 248 hektar sahədə meşəsalma və meşəbərpa işləri həyata keçirilmiş, 250 mindən çox ağac əkilmişdir.

Yaşıllaşdırma, təmizlik və abadlıq sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın simasını tamamilə dəyişib. Bu dəyişikliyin ilkin şərti isə təmizlik və yaşıllıqdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Heydər Əliyev ideyalarına söykənən yüksək idarəçilik bacarığı, qətiyyəti və böyük zəhmətsevərliyi nəticəsində blokada şəraitində olmasına baxmayaraq doğma diyarımızın sürətli sosial-iqtisadi inkişafına nail olunmuşdur.



Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin inzibati binası



Naxçıvan şəhərindən bir görünüş



Naxçıvan şəhərində «Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyəti



Naxçıvan şəhərində «Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyəti



Naxçıvan şəhərində «Cahan Holdinq Kommersiya Şirkətləri İttifaq»ının Sənaye Kompleksi



Naxçıvan şəhərində «Cahan Holdinq Kommersiya Şirkətləri İttifaq»ının Tütün Fermentasiya Zavodu



Naxçıvan şəhərində «Cahan Holdinq Kommersiya Şirkətləri İttifaq»ının Radiator Panel və Dam Örtükləri Zavodu



Naxçıvan şəhərində «Cahan Holdinq Kommersiya Şirkətləri İttifaqı»nın Radiator Panel və Dam Örtükləri Zavodu



Naxçıvan şəhərində «Bərəkət Qida Məhsulları»
Məhdud Məsuliyyətli Cəmiyyəti



Babək «Şərab-2 Yeddilər Aqrar Sənaye Kompleksi»
Məhdud Məsuliyyətli Cəmiyyətində yeni istehsal sexi



Naxçıvan şəhərində «Gəmiqaya Mineral Sular» Məhdud Məsuliyyətli Cəmiyyəti



Naxçıvan şəhərində «Dizayn» Məhdud Məsuliyyətli Cəmiyyətinin metal boru və metal profil istehsalı zavodu

«Naxçıvan Avtomobil Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyətində iş prosesi

«Naxçıvan Avtomobil Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunmuş ilk minik avtomobili



Naxçıvan şəhərində 18 min tutumu olan uzunmüddətli taxıl bunkerləri



Ordubad rayonunun Aza kəndində Beton Zavodu və Qum-Çınqıl Karxanası

Naxçıvan şəhərində İstiqlal küçəsində
yaşayış binası

Naxçıvan şəhərində Heydər Əliyev prospektində
yaşayış binası

Naxçıvan şəhərində Təbriz küçəsində yaşayış binası

Naxçıvan şəhərində Təbriz küçəsində yaşayış binası



Kəngərli rayonunun Qıvraq qəsəbəsindən bir görünüş



Beş ulduzlu 400 yerlik Duzdağ Hoteli



Sədərək rayonunun Heydərabad qəsəbəsindən bir görünüş



Sədərək rayonunun Heydərabad qəsəbəsində yaşayış binaları



Şərur Rayon Qarxun Kənd Mərkəzi



Şərur Rayon Maxta Kənd Mərkəzi



Babək Rayon Nehrəm Kənd Mərkəzi



Şahbuz Rayon Biçənək Kənd Mərkəzi



Kəngərli Rayon Xincab Kənd Mərkəzi



Kəngərli Rayon Qıvraq Qəsəbə Mərkəzi



Culfa Rayon Ərəzin Kənd Mərkəzi



Ordubad rayonunda Sabirkənddə Kənd Mərkəzi



Naxçıvan şəhərində Avtovağzal Kompleksi



Şahbuz şəhərində Avtovağzal Kompleksi



Şərur şəhərində Avtovağzal



Culfa şəhərində Avtovağzal Kompleksi



Naxçıvan-Sədərək avtomobil yolu




Naxçıvan-Sədərək avtomobil yolu




Şərur rayonunun Dizə kəndində yenidən bərpa olunmuş körpü



Şərur rayonunda13 km uzunluğunda Yuxarı Daşarx-Gümüşlü avtomobil yolu



Heydər Əliyev Su Anbarı



Şərur rayonunda Arpaçay Su Anbarı



Şərur rayonunda «Muğanlı» nasos stansiyası



Şərur rayonunun Alışar kəndində modul tipli sutəmizləyici qurğu



22 mVt gücündə Biləv Su Elektrik Stansiyası



Heydər Əliyev Su Anbarı üzərində 4,5 mVt gücündə Su Elektrik Stansiyası



87 mVt gücündə Naxçıvan Modul Elektrik Stansiyası



60 mVt gücündə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası

ÜÇÜNCÜ FƏSİL

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MƏDƏNİ İNKİŞAFI

3.1 Təhsil sahəsindəki dəyişikliklər

1995-2010-cu illər ərzində muxtar respublikanın mədəni inkişafında təhsilin, elmin, səhiyyənin, mədəniyyətin inkişafı çox yüksək səviyyəyə çatmış, hər bir sahədə çox böyük uğurlar qazanılmışdır. Ali Məclis Sədrinin bu sahələrə çox böyük diqqət yetirməsi, qayğısına qalması, təşkilatçılıq fəaliyyətində bu sahələri prioritet sahə hesab etməsi onların üstün inkişafını təmin etmişdir. On beş il ərzində bu cür inkişafa, yüksəlişə, yeniləşməyə nail olmaq çox çətindir. Lakin bu uğurlar faktdır, bunlar Naxçıvanın keçdiyi misilsiz inkişaf yoludur. Bu yolun bələdçisi misilsiz dövlət xadimi Heydər Əliyevin idarəetmə məktəbini keçmiş, onun dövlətçilik xəttinin incəliklərini mənimsəmiş, muxtar respublikanı dərindən tanıyan, potensialını və problemlərini yaxşı bilən, təşəbbüskar, coşğun enerjili, aydın proqramlı Vasif Talıbovdur. Ümummilli liderin Naxçıvanla bağlı arzularını yüksək səviyyədə gerçəkləşdirən, ulu öndərin ideya və əməllərinə sonadək sadiq qalan Vasif Talıbov səmərəli fəaliyyəti, təşkilatçılıq bacarığı ilə Naxçıvanda heyrətləndirici dəyişikliklər yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının hərtərəfli və sürətli inkişafında təhsilin xüsusi yeri vardır. Muxtar Dövlətin rəhbəri diyarı irəli aparmaq, modernləşdirmək üçün məqsədyönlü, irimiqyaslı, ardıcıl təhsil siyasəti aparmışdır. İlk növbədə təhsil müəssisələri üçün yeni binalar tikilməyə başlanılmış, təmir olunmuş və maddi-texniki bazası möhkəmləndirilmişdir. Muxtar respublikada yeni məktəblərin tikilməsi, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları və pulsuz dərsliklərlə təmin edilməsi sahəsində ardıcıl iş aparılmışdır.

Müstəqilliyin ilk on ili ərzində muxtar respublikada 40 yeni orta ümumtəhsil məktəbi tikilmiş, 19 məktəb binası isə əsaslı şəkildə yenidən qurulmuşdur [17, s. 76-77]. 2000-2005-ci illərdə isə tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı 17770 nəfər olmuşdur [24, s.19]. Sonrakı illərdə məktəb tikintisi davam etdirilmişdir. 168 məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur.

2003-cü ildə muxtar respublikada 232 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunun da tərkibində 10 ibtidai, 19 əsas, 202 orta təhsil və 1 xüsusi məktəb var idi. Şagirdlərin sayı isə 72179-a çatırdı [6, s. 106-107].

Muxtar respublikanın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sayı da ilbəil artmışdı. Belə ki, 1990-cı ildə 7200, 2003-cü ildə 8687, 2005-ci ildə isə 8496 nəfər olmuşdur ki, onların da 93 faizi ali təhsilli idi.

90-cı ilin əvvəllərindən başlayaraq muxtar respublikanın ümumtəhsil məktəbləri sistemində müəyyən dəyişikliklər baş verdi, liseylər, gimnaziyalar, kolleclər yaradıldı. Naxçıvan şəhərində özəl "Türkiyə oğlanlar" Kolleci (1992), Ordubadda "Qız liseyi" (1993), Şərurda "İqtisad liseyi" (1994) yaradılmışdır. Naxçıvan şəhərində "Xanım qızlar" Kolleci (1992), Babək rayonunun Zeynəddin kəndində kənd təsərrüfatı təmayüllü məktəb-müəssisə kompleksi (1993), C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı fəaliyyətə başladı (1998). 2005-ci ildə Naxçıvan Hərbi Liseyinə onun yaradıcısı Heydər Əliyevin adı verildi. 750 yerlik hərbi lisey kompleksi bütün müasir tələblərə cavab verən sinif otaqlarına, laboratoriyalara, kabinələrə, kitabxana və idman kompleksinə malikdir. Filial kimi 56 nəfər kursantla fəaliyyətə başlayan Hərbi Liseydə indi 641 nəfər şagird təhsil alır. Kursantların təlim-tərbiyəsi ilə 62 nəfər müəllim məşğul olur [6, s. 210].

Muxtar respublikamızda təhsilin məzmunca yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılır və nəticədə zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq

olunmuş, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" ölkəmizdə yeni texnologiyalardan istifadə olunmaqla təhsilin informasiya mühitinin yaradılması işində çox mühüm rol oynamaqdadır. Ali Məclis Sədrinin qayğısı ilə ümumtəhsil məktəblərinə 2781 ədəd kompyuter verilmişdir. Bu isə 18 şagirdin 1 kompyuterlə təmin olunması deməkdir. Kompyuterlərin 2193-ü və ya 78,9 faizi internetə qoşulmuşdur. 197 məktəbdə 255 ədəd elektron lövhədən istifadə edilir [22, 2011, 29 yanvar]. Bunlar muxtar respublikada yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə dövlət qayğısının parlaq ifadəsidir.

Təhsildə keyfiyyət dəyişiklikləri hər il artmaqda davam edir. Bunlar ali məktəblərə qəbulda yüksək bal toplayan abituriyentlərin sayında özünü göstərir. 2004-cü ildə tələbə adını qazananların 64 nəfəri, 2005-ci ildə 87, 2006-cı ildə 135, 2007-ci ildə 160, 2008-ci ildə 219, 2009-cu ildə 232 nəfər 500-dən yuxarı bal toplamışdırsa, 2010-cu ildə 500-700 intervalında yüksək nəticə göstərən abituriyentlərin sayı artaraq 280-ə çatmışdır. 2010-cu ildə yüksək bal toplayan tələbələrdən 9 nəfəri Prezident təqaüdünə layiq görülmüşdür.

Orta məktəblərdə tədrisin əsas göstəricisi məzunların ali məktəblərə qəbulu ilə müəyyən edilir. Müxtəlif illərin göstəricilərinin müqayisəli təhlili Naxçıvan Muxtar Respublikasının təhsil sistemində ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verdiyini göstərir. 2004-2005-ci tədris ilində 5409 nəfər məzun olmuş, bunlar 3074 nəfər ali məktəblərə sənəd vermiş (56,8 faiz), 1024 nəfəri qəbul olmuşdur (33,3 faiz). 2006-cı ildə 3312 abituriyentdən 1110 (35 faiz), 2007-ci ildə 3099-dan 1183 (38 faiz) tələbə adını qazanmışdır. 2008-ci ildə muxtar respublikanın ümumtəhsil məktəblərinin 4714 məzunundan 3216 nəfəri (68 faiz) ali məktəblərə sənəd vermiş və onlardan 1270 nəfəri (35,6 faiz) ali məktəblərə qəbul olunmuşdur. 2009-cu ildə 4390 məzundan 3230 nəfəri (73,6 faiz) ali məktəblərə sənəd vermiş və onlardan 1348 nəfəri (41,7 faiz) qəbul olmuşdur [6, s. 161]. 2010-cu ildə isə 4321 məzundan 3293 nəfəri (76,2 faiz) ali məktəblərə sənəd vermiş və 1622 nəfəri (49 faiz) tələbə adına layiq görülmüşdür [22, 2010, 20 avqust].

Təhsildə keyfiyyət dəyişikliyinin bir göstəricisi də məktəbləri

bitirən məzunlar arasında fərqlənmə attestatı olan şagirdlərin sayının artmasıdır. 2009-cu ildə orta məktəbi bitirən şagirdlərdən 129-u fərqlənmə attestatı almışdırsa, 2010-cu ildə bu göstərici 137-yə çatmışdır. Muxtar respublikanın ümumtəhsil məktəblərinin 32-dən artıq məzunu dünyanın nüfuzlu ali məktəblərində təhsil alır, gənc mütəxəssis kimi yetişirlər.

Son on beş il əzində muxtar respublikamızda yeni təhsil obyektlərinin inşası prosesinin yüksək dinamikası ümumilikdə cəmiyyətimizin tərəqqisi ilə bağlı pozitiv meylləri konkret faktlarla xarakterizə etməyə imkan verir. 1995-2010-cu illərdə muxtar respublikamızda ümumilikdə 225 təhsil ocağı, o cümlədən 8 ali təhsil infrastruktur obyekti, 68374 şagird yerlik 168 orta məktəb, 1835 yerlik 15 uşaq bağçası, 20 musiqi məktəbi və 14 digər təhsil ocağı tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir [11, s. 154].

Məktəblərə, məktəblilərə, onların hərtərəfli inkişafına hər cür qayğı göstərilir. Məktəb kitabxanaları zənginləşdirilir, məktəblilər pulsuz dərsliklərlə təmin olunur. 2005-2009-cu illərdə məktəb kitabxanalarına 1 milyon 13 min 539 nüsxə dərslik, 394 adda 539639 ədəd bədii ədəbiyyat, 1450 ədəd Azərbaycan Milli Ensiklopediyasının xüsusi nəşri, 450 ədəd Naxçıvan Abidələri Ensiklopediyası, 15 fənn üzrə 140 adda 74510 ədəd əyani vəsait, 440 ədəd "Naxçıvan xanlığı" kitabı verilmişdir. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində 2005-ci il avqust ayından ümumtəhsil məktəblərinin I-XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin edilmişdir. Sonrakı illərdə də bu iş davam etdirilmişdir. Muxtar Dövlətin başçısının təşəbbüsü və şəxsi himayəsi sayəsində bir neçə ildir ki, valideyn himayəsindən məhrum olan uşaqlara hədiyyələr verilir. Ata və ana nəvazişindən məhrum olan kimsəsiz şagirdlər geyim, dərslik və digər ləvazimatlarla təmin olunurlar.

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin vahid məktəbli forması ilə təmin olunması muxtar respublika rəhbərliyinin həmişə diqqət mərkəzində olmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri və şagirdləri uyğun formadan istifadə edirlər. Bu da öz növbəsində həm təlimdə, həm də tərbiyədə müsbət rol oynayır.

2005-ci ildən başlayaraq muxtar respublikada təhsil yarmarkaları keçirilir. Həmin il keçirilən təhsil yarmarkasında 119 nəfər gənc mütəxəssis işlə təmin olunmuş və ucqar dağ kəndlərinə göndəriş almışdır. 2006-cı və 2007-ci illərdə də belə yarmarka keçirilmişdir. 2007-ci il təhsil yarmarkasına 178 nəfər ixtisaslı mütəxəssis müraciət etmiş, bunlardan 144 nəfəri kənd məktəblərində işlə təmin olunmuşlar.

Naxçıvan Muxtar Respublikasında məktəbəqədər tərbiyə müəssisələrinin geniş şəbəkəsi mövcud olmuşdur. 1995-2010-cu illərdə məktəbəqədər müəssisələrin geniş şəbəkəsi yaradılmış, yeni binalar tikilmiş və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Bu dövrdə 1835 yerlik 15 məktəbəqədər müəssisə istifadəyə verilmişdir. Məktəbəqədər müəssisələrin 87 faizi yenidən qurulmuşdur.

Muxtar respublikada 44 məktəbdənkənar uşaq müəssisəsi, o cümlədən gənc təbiətçilər, rəsm, idman, şahmat və b. fəaliyyət göstərirdi. Onlarda çoxlu sayda şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdu. Şahbuz rayonunda Uşaq Yaradıcılıq Mərkəzi, Şahmat Məktəbi, Culfa və Şərur rayonlarında Şahmat məktəbi tikilmiş və müasir avadanlıqlarla təchiz olunmuşdur. Bunlardan başqa muxtar respublikada Texniki Yaradıcılıq, Turist-Diyarşünaslıq və Ekoloji Tərbiyə Mərkəzlərinin daha yaxşı fəaliyyəti üçün müvafiq binalar ayrılmış, onlar yüksək səviyyədə təmir edilərək şagirdlərin ixtiyarına verilmişdir. Muxtar respublikada 8 məktəbdənkənar tədris müəssisəsi tikilmiş və ya yenidən qurulmuşdur. Naxçıvan şəhərindəki Şahmat mərkəzində beynəlxalq yarışların keçirilməsi üçün hər cür şərait vardır. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan Regional Peşə-Tədris Mərkəzinin, Tədris Peşə Liseyinin Naxçıvan Regional Mərkəzinin binaları yenidən qurularaq istifadəyə verilmişdir. 2010-cu ilin sentyabr ayında Culfa şəhərində 2 məktəb, 1 uşaq bağçası və 1 məktəbdənkənar müəssisə tikilmiş və ya əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Texniki Yaradıcılıq Mərkəzində, Ekoloji Tərbiyə Mərkəzində və Uşaq Yaradıcılıq Mərkəzində hər cür şərait yaradılmışdır.

Respublikamızda ümumtəhsil məktəbləri müəllimlərinin həyat səviyyəsi və onların əməyinin qiymətləndirilməsi də dövlətimi-

zin diqqət mərkəzində saxlanılmış və qayğı göstərilmişdir. Son bir neçə ildə təhsil işçilərinin əmək haqları bir neçə dəfə artırılmışdır. Ən qabaqcıl 50 məktəb və 100 müəllim ölkə rəhbəri tərəfindən mükafatlandırılmışdır. Son üç ildə muxtar respublikamızdan 9 məktəb ölkə Prezidentinin sərəncamı ilə "İlin ən yaxşı ümumtəhsil məktəbi" və 15 müəllim isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi adına layiq görülərək mükafatlandırılmışlar. Son beş ildə muxtar respublikamızdan 35 nəfərə Azərbaycan Respublikasının Əməkdar müəllimi, 45 nəfərə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adı verilmiş, 32 nəfər isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur [6, s. 195-196].

1996-cı ildən orta ixtisas və ali təhsil müəssisələrinin inkişafına da diqqət artırılmış, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə fikir verilmişdir. 2004-2005-ci dərs ilində üç orta ixtisas təhsil müəssisəsində 1255 nəfər tələbə təhsil alırdı. 1995-2000-ci illərdə bu təhsil müəssisələrində 1500-dən çox ixtisaslı kadr hazırlanmışdır. Hazırda muxtar respublikada Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci fəaliyyət göstərir. Kolleclərdə müvafiq olaraq 5 ixtisas üzrə 525 tələbə, 11 ixtisas üzrə 442 tələbə və 8 ixtisas üzrə 323 tələbə təhsil alır. Ümumiyyətlə, hər üç kollecdə 24 ixtisas üzrə 1295 nəfər tələbə təhsil alır. Tələbələrin təlim-tərbiyəsi ilə 185 müəllim məşğul olur.

Son 15 ildə muxtar respublikada ali təhsil müəssisələrinin həyatında da ciddi dəyişikliklər baş vermişdir.

Özəl ali təhsil müəssisələrinin yaranması, dövlət ali məktəblərində pullu təhsil formasının tətbiqi Naxçıvanda da özünü göstərdi. Ölkə Prezidentinin Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu və bölgələrdə filialları yaradıldı. Naxçıvan Müəllimlər İnstitutu da 13 iyun 2000-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi yaradıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə bu filial 2003-cü ildə müstəqil ali məktəbə çevrildi. İki ixtisasla fəaliyyətə başlayan Müəllimlər İnstitutunda hazırda 5 ixtisas üzrə yüksək ixtisaslı kadrlar hazırlanır. Naxçıvan Müəllimlər İnstitutunun əyani və qiyabi şöbəsində 721 nəfər tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 65 nəfər professor-müəllim heyəti məşğul olur.

Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələrindən biri də Naxçıvan Özəl Universitetidir. Bu təhsil müəssisəsi 1994-cü ildə Bakı Özəl Ali Kollecinin Naxçıvan filialı kimi fəaliyyətə başlamış, 1999-cu ildən isə müstəqillik statusu qazanmışdır. Universitetdə 900 nəfər olmaqla 15 ixtisas üzrə bakalavr, 3 ixtisas üzrə magistrlər hazırlanır. Professor-müəllim heyətinin tərkibi 72 nəfərdən ibarətdir.

1967-ci ildən Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaranan, 1972-ci ildən müstəqil ali təhsil müəssisəsinə çevrilən və 1991-ci ildən Naxçıvan Dövlət Universiteti adlandırılan bu təhsil ocağının əsl inkişaf dövrü 1996-cı ildən sonra baş vermişdir. Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra bu ali təhsil müəssisəsinin həyatında bir canlanma hiss olunmuşdur. 1996-cı ilin oktyabrında prof. İsa Həbibbəylinin universitetin rektoru təyin edilməsi ilə bu ali təhsil müəssisəsinin gələcək uğurları üçün əsas yaradılmışdır. Vasif Talıbovun dəfələrlə dövlət və hökumət nümayəndələri ilə birlikdə universitetə gəlməsi, problemlərlə tanış olması, kollektiv üzvləri ilə görüşməsi, tövsiyyə və tapşırıqlarını verməsi universitetin inkişafını sürətləndirmişdir. Onlarla yeni tədris korpusları, 1600 yerlik əsas korpus, Tibb fakültəsinin yerləşdiyi korpus, Sosial-İdarəetmə və Hüquq fakültəsi, Olimpiya-İdman Kompleksi, Konservatoriya binası, Memarlıq və Mühəndislik fakültəsi, Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsi üçün binalar tikilmiş və ya yenidən qurularaq əsaslı təmir olunmuşdur. Tələbələrin yaşayış və məişət şəraitinin yaxşılaşdırılması üçün 462 yerlik Tələbə yataqxanası və Sosial Xidmət Mərkəzi ən yüksək səviyyədə tikilərək və yenidən qurularaq tələbələrin istifadəsinə verilmişdir. Universitetin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni-yeni kabinə və laboratoriyalar, ixtisaslaşdırılmış otaqlar yaradılmışdır.

Ümummilli lider Heydər Əliyev 4 dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Universitetin yaradılması və inkişafı bilavasitə ulu öndərimizin adı ilə bağlıdır. Möhkəm milli əsaslara malik olan universitet respublikamızda ən qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilmişdir. Ölkəmizin elmi-pedaqoji ictimaiyyəti Naxçıvan Dövlət Universitetini "klassik universitet", "Azərbaycanın Oksfordu" adlandırırlar.

1995-ci ildə universitetdə 2354 nəfər tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 197 müəllim məşğul olurdusa, hazırda universitetdə 4317 nəfər tələbə bakalavr və magistratura pilləsində oxuyur və 356 nəfər professor-müəllim heyəti çalışır. Tələbələr 12 fakültədə, 46 ixtisas üzrə təhsil alırlar [13, s. 10].

Naxçıvan Dövlət Universiteti Azərbaycanın dövlət ali məktəbləri ailəsində kampusu olan, şəhərciyə çevrilən tək universitetdir. Universitetin 108 hektarlıq ərazisində 13 tədris korpusu, Elektron Kitabxana, Kliniki xəstəxana, Botanika bağı, Konservatoriya, Olimpiya tipli idman mərkəzi, futbol stadionları, kabel televiziyası və s. yeni nəslin hazırlanmasına uğurla xidmət edir. Avropa universitetlərinə, dünya təhsil sisteminə inteqrasiya olunan Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri yüksək səviyyədədir, 30-dan çox ali təhsil müəssisəsi ilə əməkdaşlıq protokolu imzalamışdır.

Ümumiyyətlə, muxtar respublikada 2 dövlət, 1 özəl ali təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ali təhsil müəssisələrində 66 ixtisas üzrə 5938 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 488 professor-müəllim heyəti məşğul olur.

Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas məktəblərində 534 professor-müəllim heyəti, o cümlədən 2 akademik, 4 müxbir üzv, 21 elmlər doktoru, 178 elmlər namizədi fəaliyyət göstərir.

Bütövlükdə, Naxçıvan Muxtar Respublikasında yeni ali məktəblərin yaranması və universitet quruculuğunun sürətlə inkişaf etdirilməsi burada yüksək ixtisaslı, milli və bəşəri dəyərləri vəhdətdə daşıyan, geniş dünyagörüşə malik mütəxəssislərin, yeni elmi nəsillərin yetişib formalaşmasına ciddi təkan verir.

3.2. Elmin inkişafı

90-cı illərin ortalarında ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər elm sahəsində mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Elmə dövlət qayğısı artdı. Alimlərin əməkhaqqı artırıldı. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında bir sıra elmi müəssisələr fəaliyyət göstərirdi. Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan "Araz" Elm İstehsalat Birliyi, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası,

Elm və Texnika Mərkəzi, Şamaxı Astrofizika Rəsədxanasının Batabat Stansiyası və b. Muxtar respublikanın elmi idarə və müəssisələrində fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparılmış, faydalı elmi nəticələr əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun keçirilməsi Naxçıvanda elmi müəssisələrin fəaliyyətini canlandırdı, Naxçıvanın hərtərəfli və elmi cəhətdən öyrənilməsinə təkan verdi. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. "Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı" (1997), "Uluslararası Dədə Qorqud simpoziumu" (1998, "Van Yüzüncü il" Universiteti ilə birlikdə), "Yaxın tariximizdə Naxçıvan və Qars" (1999, Qars Qafqaz Universiteti ilə birlikdə), "Naxçıvanda kiçik biznesin və sahibkarlığın inkişafı" (2000, ABŞ-ın Perdu Universiteti ilə birlikdə), "Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları" (2001, Azərbaycan Respublikasının Elm və Texnika Komitəsi ilə birlikdə) kimi beynəlxalq simpozium və konfranslar elmin müxtəlif problemlərinə həsr edilmiş, elmi əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun elmin, təhsilin və mədəniyyətin inkişafına üstün münasibəti və həmin istiqamətdə regionda apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə səbəb olmuşdur.

Ali Məclisin Sədri Naxçıvanda elmi qurumların statusunun artırılması, Naxçıvanın hərtərəfli öyrənilməsi üçün yeni elmi müəssisənin yaradılması ilə bağlı ölkə prezidentinə müraciət etmişdir. Müraciət və təklif təqdir olunmuş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi yaradılmışdır [2, s. 6-7]. Bu bölmənin yaradılması strateji məqsədlərə hesablanmış və muxtar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmışdır.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Özəl Universitetinin professor-müəllim heyətinin üzvləri də Naxçıvanda elmin inkişafında, elmi kadrların hazırlanmasında yaxından

iştirak edirlər.

Elmin inkişafı bilavasitə elmi kadrların səviyyəsindən, elmi fəaliyyətindən asılıdır. Naxçıvan Dövlət Universitetində və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantura yolu ilə elmi kadrların hazırlanmasına diqqət yetirilmişdir. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində 4 ixtisas üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksək ixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 1998-2010-cu illərdə həmin Şurada 104 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişlər. 2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində də 3 ixtisas üzrə Dissertasiya Şurası yaradılmışdır. Fəaliyyət göstərdiyi 5 il ərzində bu Dissertasiya Şurasında 33 nəfərin müdafiəsi təşkil edilmişdir. Bu şuralarda muxtar respublikanın elmi iş aparan tədqiqatçıları da namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişlər. 1998-2010-cu illərdə muxtar respublikamızda yaşayan gənc tədqiqatçılardan 100 nəfəri namizədlik dissertasiyası müdafiə edərək elmi dərəcə almışlar. 16 nəfər isə doktorluq dissertasiyası müdafiə etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasına 2003 və 2007-ci illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 2 nəfəri akademik, 7 nəfəri isə müxbir üzv seçilmişlər [6, s. 215].

Elmi-tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Müasir elm texnika və texnologiyanın ən son nailiyyətlərinə istinad ediləndə uğur qazana bilir. Bu cəhətdən həm Naxçıvan Bölməsində, həm də ali təhsil müəssisələrində olan şöbə və laboratoriyaların cihaz və avadanlıqlarla təchizi məsələsi diqqəti cəlb edir. Artıq hər bir elmi işçinin kompyuter ilə təmin edilməsi və internet şəbəkəsindən istifadə etməsi, ən son istehsal edilmiş cihazlar əsasında tədqiqat aparmaq imkanları reallaşır. Hər il bu məqsədlərə xeyli vəsait sərf edilir. Təkcə 2010-cu ilin I yarısında AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyaları üçün 32 adda cihaz və avadanlıqlar alınmışdır [5, s. 101-102]. Naxçıvan Bölməsinin əməkdaşları üçün ən yaxşı təchiz edilmiş şöbə və laboratoriyalar qurulmuşdur.

Elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin nüfuzlu jurnallarında, ölkəmizin və muxtar respublikamızın elmi jurnallarında, xəbərlərində dərc edilir. 1995-2010-cu illərdə muxtar

respublika alimlərinin 128 monoqrafiyası, 450-yə yaxın kitabı, 280-dən çox dərslik, dərs və tədris vəsaiti, 8200-ə yaxın elmi məqaləsi nəşr edilmişdir. Artıq Naxçıvan MR Ali Məclisinin təsis etdiyi «Naxçıvan» (ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik) jurnalı, AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i və Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" jurnalları Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi dövri nəşrlər sırasına daxil edilmişdir.

Ali Məclis Sədrinin bilavasitə dəstəyi, qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasının tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış, bir sıra ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar çap edilmişdir. Belə əsərlərə aid "Naxçıvan Ensiklopediyası"nı (2 cilddə), "Naxçıvanın Tarixi Abidələri" Ensiklopediyasını (ingilis və Azərbaycan dilində), "Naxçıvan: Tarixi və Abidələri"ni (ingilis və Azərbaycan dilində), "Naxçıvanın Tarixi Atlası"nı, "Naxçıvanın Folklor Antologiyası"nı (I və II cildlər), "Naxçıvan Teatrının Salnaməsi"ni (1883-2008-ci illər), "Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı"nı (I və II cildlər) və b. göstərə bilərik.

Naxçıvanlı alimlər hər il dünyanın müxtəlif nüfuzlu jurnallarında elmi məqalələrini nəşr etdirirlər. Bir sıra jurnalların xüsusi nömrələri Naxçıvana həsr olunur. "İrs", "Folklor və ədəbiyyat", "Yol" və b. bu kimi jurnalların xüsusi nömrələri naxçıvanlı alimlərin əsərləri əsasında hazırlanmışdır.

Elm və tədris müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələri geniş müzakirə edilir, uğurlar təqdir edilir, "İlin alimi" adına layiq görülən tədqiqatçılar mükafatlandırılır, nöqsanların, çatışmazlıqların aradan qaldırılması yolları müəyyənləşdirilir. İlk dəfə olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclası və AMEA Rəyasət Heyətinin üzvlərinin iştirakı ilə AMEA Naxçıvan Bölməsinin 2008-ci ilin elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilmiş hesabat yığıncağı Naxçıvanda keçirilmişdir. Hesabat yığıncağında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov proqram xarakterli çıxış etmişdir. Çıxışda əldə olunan uğurlar qeyd edilməklə yanaşı, çatışmazlıqlar da göstərilmiş,

qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Ali Məclisin Sədrinin çıxışında elmi-tədqiqatların faydalı iş əmsalının daha da artırılması, yeni elmi istiqamətlərin müəyyənləşdirilməsi, elmi tədqiqatların davamlı və sistemli xarakter alması mühüm vəzifə kimi tədqiqatçıların qarşısında qoyulmuşdur.

Muxtar respublikada tarix, arxeologiya, etnoqrafiya, toponimika istiqamətlərdə uğurlu tədqiqatlar aparan naxçıvanlı alimlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında", "Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı"nda Açıq Səma Altında muzey yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" və b. sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində mühüm rol oynamışlar. Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələri müəyyənləşdirilmiş, öyrənilmiş və pasportlaşdırılmışdır. Muxtar respublika ərazisində bugünədək 1185 abidə qeydə alınmışdır. Dünya və ölkə əhəmiyyətli 550-yə yaxın abidə əsasında "Naxçıvan Abidələri" Enskilopediyası hazırlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2001-2010-cu illərdə də beynəlxalq və respublika səviyyəli elmi konfranslar, simpoziumlar keçirilmiş, bu elmi tədbirlərdəki məruzələr toplu halında nəşr edilmişdir. "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" (2004), "Azərbaycanda elmin inkişafı və regional problemlər" (2005), "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik (2007), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2008), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009) mövzusunda keçirilən elmi konfrans və simpoziumlar elmin inkişafına təsir etmişdir. Naxçıvanda elmin qayğıkeşi və himayəçisi olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu simpoziumların keçirilməsinə dəstək verdiyi kimi, həmin tədbirlərin bir çoxunda iştirak etmiş və proqram xarakterli çıxışlar etmişdir.

Naxçıvanın elm adamları dünyanın müxtəlif ölkələrində keçi-

rilən elmi tədbirlərdə iştirak və çıxış edirlər. Təkcə belə bir faktı qeyd etməliyik ki, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından 101 nəfəri son üç ildə 142 beynəlxalq səviyyəli elmi simpoziumlara qatılmış, və maraqlı məruzələrlə çıxış etmişlər [3, 4, 5]. Bu isə elmi əlaqələrin genişlənməsinə və elmi potensialın inkişafına müsbət təsir göstərir.

Ümummilli lider Heydər Əliyev həm 70-80-ci illərdə, həm də ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra həmişə respublikada ziyalıların rəğbətləndirilməsinə diqqət və qayğı göstərmişdir. Bu qayğını Naxçıvanın maarifçi ziyalıları və elm adamları daim hiss etmişlər. Naxçıvanın bir qrup elm və təhsil işçisi orden və medallarla təltif olunmuş, yüksək fəxri adlara layiq görülmüş, elm və təhsil işçilərindən 2 nəfəri Azərbaycan Milli Məclisinə, 15 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir.

Ölkə Prezidenti İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun ziyalılara göstərdiyi diqqət və qayğı Azərbaycanın hər yerində, o cümlədən muxtar respublikada yeni mərhələdə elmin, milli ziyalılığın inkişafına özünün müsbət təsirini göstərməkdədir.

3.3. Səhiyyə müəssisələrinin yenidən qurulması

1995-2010-cu illərdə muxtar respublikada bütün sahələr öz dinamik yüksəlişi ilə diqqəti cəlb edir. Belə sahələrdən biri də səhiyyə sahəsidir. Səhiyyə sisteminin yenidən qurulmasını, əhalinin sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları muxtar respublikada uğurla həyata keçirilir. 1996-cı ildən başlayaraq muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən müsbət irəliləyişlər səhiyyə sisteminin fəaliyyətinə də təsir göstərmiş və əhaliyə göstərilən tibbi xidməti yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirilmişdi.

Muxtar respublikada 55 xəstəxana, 5 poliklinika, 49 ambulatoriya, 123 feldşer-mama məntəqəsi, 8 gigiyena və epidemiologiya mərkəzi, 5 təcili-tibbi yardım köməkçi stansiyası, 62 aptek və aptek məntəqəsi vardır. Tibbi xidmət müəssisələrində 693 nəfərə qədər həkim, 2891 orta tibb işçisi çalışır. Əhalinin hər 10 min nəfərinə 102

xəstəxana çarpayısı, 19 həkim, 80 orta tibb işçisi düşür. Xəstəxana çarpayılarının 24,4 faizi kəndlərdə, 75,6 faizi şəhər və rayonların mərkəzlərindədir.

Naxçıvan Muxtar Respublikasında 2003-cü ildə 93,9 min nəfərə ambulator yardımı və çağırış zamanı yardım göstərilmişdi ki, bu da 1990-cı ilə nisbətən 47 min nəfər çox idi. Əhalinin hər min nəfər hesabı ilə bu göstərici müvafiq olaraq 154,4 nəfərdən 254,9 nəfərə qədər artmışdı. Ölkə üzrə əhalinin hər min nəfərinə bu göstərici 109,4 nəfər olmuşdu.

1994-97-ci illərdə ABŞ-ın AMOKO şirkəti ilə "Amerikez" xeyriyyə cəmiyyəti Naxçıvan Muxtar Respublikasında yoluxucu xəstəliklərə qarşı planlı "Soyuq zəncir" adlı immunlaşdırma proqramı həyata keçirdilər. İmmunlaşdırma proqramı sayəsində muxtar respublikada difteriya, poliomielit, göyöskürək xəstəliklərinin və idarə olunan digər yoluxucu xəstəliklərin miqdarı kəskin surətdə azaldı. 1998-ci ildən vərəm xəstəliyinə qarşı mübarizəni gücləndirmək məqsədilə "AMOKO" neft şirkəti və "Amerikez" xeyriyyə cəmiyyəti vasitəsilə 110 min doza tuberkulin şirəsini Naxçıvana gətirdi. Bundan başqa həmin il Türkiyə Cümhuriyyəti Naxçıvandakı Baş Konsulluğun vasitəsi ilə 50 min doza tuberkulin, 1999-cu ildə isə 30 min ABŞ dolları dəyərində vərəmə qarşı spesifik dərman preparatları alındı. 1998-ci ildə 80 min nəfərdən artıq 1-17 yaşadək uşaqlara tuberkulin sınağı aparıldı.

1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda ilk dəfə olaraq "Əfsanə" özəl müayinə və diaqnostika müəssisəsi açıldı. 1999-cu ilin noyabrında Naxçıvan şəhərində "Şəfa" özəl sağlamlıq ocağı-xəstəxana fəaliyyətə başladı.

Muxtar respublikada səhiyyənin inkişaf tempi yüksələn xətlə getmişdir. 1995-2000-ci illərdə 21 səhiyyə müəssisəsi əsaslı şəkildə təmir edilərək istifadəyə verilmişdir.

Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikası, onkoloji və nevroloji dispanserlər, şəhər xəstəxanası əsaslı təmir olunmuş, bu müalicə ocaqları müasir diaqnostik və digər avadanlıqlarla təmin olunmuşdur. Xəstəxanalar kompleksinə tranzit elektrik xətti çəkilmiş, bütün xəstəxanalar mərkəzləşmiş istilik sisteminə qoşulmuşdur.

Ölkə Prezidenti Heydər Əliyev öz fondundan 700 min manat vəsait ayırmış, ən müasir rentgen aparatı alınaraq quraşdırılmışdır. Respublika xəstəxanasında hemodializ aparatı qurulmuş, ultrasəslə müayinə kabineti yaradılmışdır.

Rayon mərkəzlərindən Şərur, Culfa, Şahbuz, Kəngərli və Sədərəkdə Mərkəzi xəstəxanalar tikilmiş və ya yenidən qurulmuş, əsaslı təmir olunmuşdur. Mərkəzi xəstəxanalara ən müasir ultrasəs tibbi müayinə aparatı, avadanlıqlar, təcili yardım maşını verilmişdir.

Muxtar respublikanın iri yaşayış yerlərində, kənd və qəsəbələrində xəstəxanalar, əksər kəndlərində isə feldşer-mama məntəqələri yaradılmışdır.

2001-2005-ci illərdə muxtar respublikada Özəl Tibb Mərkəzi, Gigiyena və Epidemiologiya Mərkəzi, Duzdağ Fizioterapiya Xəstəxanası, Əlillərin Bərpa Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanseri, Mərkəzi Uşaq Xəstəxanası, "İmplant-dent" Stomatoloji Klinikası, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün tədris binası və xəstəxana tikilmiş və ya əsaslı surətdə yenidən qurularaq istifadəyə verilmişdir. Ümumiyyətlə, 2000-2005-ci illərdə 48 səhiyyə obyekti tikilmiş, 35 səhiyyə obyekti əsaslı təmir olunmuşdur [23, s. 19]. Bu səhiyyə ocaqları müasir avadanlıqlar, son model aparatlarla təmin edilmişdir.

2001-ci ildə tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması məqsədilə kardioloji, endokrinoloji, dəri-zöhrəvi dispanseri, göz xəstəxanası tibb şəhərciyə, vərəm əleyhinə dispanser isə yeni təmir edilmiş binaya köçürülmüşdür. Naxçıvan Muxtar Respublikası Narkoloji dispanserinə alkometr aparatı, Respublika Göz xəstəxanasına oftolmoloji mikroskop alınmış, 2002-2003-cü illərdə yeni cihaz və avadanlıqların alınması davam etdirilmiş, Respublika xəstəxanasına USM aparatı, 2 dializ, 1 kompyuter tomoqraf, 2 ədəd rentgen aparatı alınmış və quraşdırılmış, Naftalanla müalicə şöbəsi yaradılmışdır. 15 ədəd qazel tipli avtomaşınlar alınmış, tibb müəssisələrinə verilmişdir.

2005-ci ildə Darıdağ arsenli su müalicəxanası üçün yeni bina tikilib istifadəyə verilmiş, avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublikanın tibb müəssisələrinə 20 ədəd sanitar avtomobili verilmişdir. Ağciyər xəstəlikləri dispanserinə səyyar flüoroterapiya apa-

ratı, laboratoriya alətləri verilmişdir.

Respublika Prezidenti İlham Əliyevin himayəsi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin tikintisi səhiyyəyə göstərilən qay - ğının nəticəsidir. Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində bir sıra struktur dəyişiklikləri aparılmış, Ordubad şəhərində uşaq xəstəxanası, təcili tibbi yardım yarımstansiyası ləğv edilmiş və Mərkəzi Rayon Xəstəxanasının tərkibində şöbələr yaradılmışdır.

2006-cı ildə səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi davam etdirilmiş, bir müalicə və diaqnostika mərkəzi, bir xəstəxana, kəndlərdə 11 həkim ambulatoriyası, 2 feldşer-mama məntəqəsi tikilmiş, 2 xəstəxana əsaslı şəkildə yenidən qurulmuşdur [24, s. 41]. Ambulatoriya, hemodializ aparatı, "Dopler" aparatı və başqa avadanlıqlar alınaraq səhiyyə müəssisələrinə verilmişdir. Onlarla kənddə (Tənənəm, Xincab, Bənəniyar, Qaraqala, Mahmudoba və b.) feldşer-mama məntəqəsi yaradılmış, avadanlıqlarla təchiz edilmişdir.

Muxtar respublika ərazisində qızılca və məxmərəyə qarşı Milli İmmunlaşdırma kampaniyası keçirilmişdir. 7-23 yaş arasında 94457 nəfərdə peyvənd aparılmışdır. İmmunlaşdırmanın əhəmiyyətini nəzərə alaraq 20499 nəfər əlavə olaraq peyvəndə cəlb edilmişdir.

Naxçıvan Muxtar Respublikası rəhbərliyinin səhiyyənin inkişafına göstərdiyi qayğı təkcə yeni tibb ocaqlarının istifadyə verilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məhdudlaşmamışdır. Bu sahədə dövlət siyasətinin mühüm bir istiqaməti də yüksək ixtisaslı həkim briqadalarının muxtar respublikaya gətirilməsi və xüsusilə aztəminatlı ailələrdən olan xəstələrin dövlət vəsaiti hesabına müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkilidir. Bunun üçün muxtar respublikada hər cür şərait yaradılmış, ən müasir cihaz və avadanlıqlarla təchiz edilmiş Müalicə və Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Türkiyə Respublikasından və Bakı şəhərindən Mərkəzi Neftçilər xəstəxanasının həkim və orta tibb işçiləri Naxçıvana gəlir, xəstələrin müayinə və müalicəsində iştirak edirlər. Naxçıvana gələn oftalmoloqlar, kardioloqlar, cərrahlar, plastik və laparoskopik cərrahlar 1045 nəfərdə göz, 140 nəfərdə açıq ürək əməliyyatı, 21 laparoskopik cərrahi müdaxilə, 466 nəfərdə koronarangioqrafiya əməliyyatı, anadangəlmə və qazanılma qüsurları

olan 64 nəfərdə plastik əməliyyatlar aparmışlar [11, s. 155]

Muxtar respublika rəhbərliyinin səhiyyə sahəsinə göstərdiyi qayğı 2009-2010-cu illərdə davam etmişdir. Bunun nəticəsidir ki, bu dövrdə muxtar respublikada Doğum Mərkəzi, Onkoloji Mərkəz, Psixi Xəstəliklər Dispanseri tikilib istifadəyə verilmişdir. Bu səhiyyə müəssisələri içərisində öz möhtəşəmliyi və gözəlliyi ilə Naxçıvan şəhərinin gözəlliyinə gözəllik qatan Doğum Mərkəzinin binasıdır. Ölkə başçısı İlham Əliyev binanın açılış mərasimində iştirak etmişdir. Doğum Mərkəzindəki şöbələr, kabinələr, kabinetlər, əməliyyat otaqları dünya standartları səviyyəsində qurulmuşdur. Son 15 ildə 173 səhiyyə obyektinin istifadyə verilməsi [11, s. 155] səhiyyənin inkişaf səviyyəsi haqqında hər şeyi deyir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında mühüm rol oynayan, insanların sağlamlığı keşiyində duran səhiyyə müəssisələri inkişaf səviyyələri və fəaliyyətləri ilə insanlara sevinc bəxş edir.

3.4. Mədəni-maarif müəssisələrinin inkişafı

Qədim tarixə, zəngin mədəniyyətə malik Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir. İnkişaf səviyyəsinə görə muxtar respublikanın heç bir dövrünü 1995-2010-cu illərlə müqayisə etmək olmaz. Bu, mədəni-maarif müəssisələrinin inkişafına da aiddir. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü işin nəticəsidir ki, bu tərəqqi mədəniyyətin inkişafında da özünü göstərməkdədir. Muxtar respublikada mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının mədəni-maarif müəssisələri, tarix və mədəniyyət abidələri heç vaxt indiki qayğını görməmiş və bu səviyyədə qorunmamışdır. Tarixi mədəni irsin qorunması və təbliği, mədəni potensialın daha da inkişaf etdirilməsi son illər ərzində diqqət mərkəzində saxlanılmış, mədəniyyət ob - yektlərinin inşası və yenidən qurulması davamlı xarakter almışdır. Ümummilli liderimiz xatirəsini əbədiləşdirmək məqsədilə möhtəşəm abidələr ucaldılmışdır. Muxtar respublikanın şəhər və rayonlarında yeni parklar, bulaq-abidə kompleksləri, mədəniyyət evləri, klub və kitabxanalar, şəhidlərin xatirələrinə ucaldılmış abidələr istifadəyə

verilmişdir.

1995-2010-cu illərdə 272 mədəniyyət obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur [11, s. 158]. Bu illər ərzində mədəniyyət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi ilə bağlı mühüm addımlar atılmışdır. Belə ki, 1997-2002-ci illər ərzində muxtar respublikada 8 muzey yaradılmış, muzeylərin sayı 13-dən 21-ə çatdırılmış, maddi-mədəniyyət nümunələrinin sayı 80 mindən 107 minə qaldırılmışdır. Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, Heydər Əliyev Sarayı, Xatirə Muzeyi, Xalça Muzeyi, Açıq Səma Altında Muzey, Naxçıvan Dövlət Tarix Muzeyi, C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Cəmşid Naxçıvanskinin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin ev muzeyləri, Bəhruz Kəngərli Muzeyi, Babək və Sədərək rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmış, yaxud yenidən qurulmuşdur.

Muzeylər üçün yeni binaların ayrılması, təmiri və yenidən qurulması sonrakı illərdə də davam etdirilmişdir. Muzeylər tarixi keçmişimizi gələcəyə aparan əsas vasitədir. Bu vasitə hər cür qorunmalı və inkişaf etdirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 iyul 2002-ci il tarixli Sərəncamı ilə Əcəmi seyrəngahında Açıq Səma Altında muzey yaradıldı. Əsas məqsəd isə qədim tarixə malik olan diyarımızın daş kitabələri, qoç fiqurları, qəbirüstü daşları mühafizə və nümayiş etdirmək, mədəniyyət nümunələri vasitəsilə tariximizin qədimliyini göstərməkdir. Muzey 80 eksponatla fəaliyyətə başlasa da, bu gün onların sayı 300-dən çoxdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı ölkəmizdə bu sahənin inkişafına əlavə stimul vermişdir. Muxtar respublikada muzeylərin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, Naxçıvan Dövlət Tarix muzeyi, Ordubad, Kəngərli, Şahbuz və Heydərabad qəsəbəsindəki tarix-diyarşünaslıq muzeyləri, Naxçıvan Muxtar Respublika Ədəbiyyat muzeyi yeni binalara köçürülmüş, bir sıra muzeylər əsaslı təmir olunmuş, ekspozisiyaları yenidən qurulmuşdur.

Ölkə başçısı 22 may 2009-cu il tarixdə "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planının təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin sərəncamdan sonra Ordubad şəhərində M.S.Ordubadinin ev muzeyi yenidən qurulmuşdur. Naxçıvan Dövlət Xalça muzeyi yeni binaya köçürülmüş, Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilərin ev muzeyi yaradılmışdır. Muzeylərin işindən bəhs edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: **"...İş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsi, tamaşaçıların muzeylərə cəlb olunması işinə də ciddi diqqət yetirilməlidir. Çünki muzey eksponatları bizim tariximizdir, tariximizi qorumaq, öyrənmək, təbliğ etmək isə ən vacib məsələlərdən biridir"**[22, 2010, 20 mart].

Muxtar respublikanın mədəni-maarif müəssisələri arasında kitabxanaların xüsusi yeri vardır. 234 kütləvi kitabxana vardır ki, burada 2.799.200 kitab fondu mövcuddur. Bu kitabxanalar hər il 150-160 min nəfərə kitabxana xidməti göstərir. 2006-cı ildə 139293, 2007-ci ildə isə 46650 nüsxə latın qrafikalı kitab və digər çap məhsulları alınmış və kitabxanalara paylanmışdır. 205 kitab müəssisəsində əhalinin asudə vaxtının səmərəli təşkilini yaxşılaşdırmaq, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, özfəaliyyətin inkişafı sahəsində ardıcıl işlər aparılır. Hazırda muxtar respublikada 22 muzey və 1 rəsm qalereyası fəaliyyət göstərir.

2005-ci ildə muxtar respublikada 2 peşəkar teatr, Naxçıvan, Ordubad və Şərur Xalq teatrları, H.Cavid adına poeziya teatrı fəaliyyət göstərmişdir. "Şərur" Xalq Yallı Ansamblı müxtəlif illərdə Türkiyədə, Misirdə, "Şərur qönçələri" yallı qrupu isə bir sıra ölkələrdə ölkəmizi müvəffəqiyyətlə təmsil etmişlər. Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu illər ərzində Türkiyə Respublikasının, İran İslam Respublikasının müxtəlif şəhərlərində, Bakı şəhərində, respublikamızın digər bölgələrində dəfələrlə qastrol səfərlərində olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi geniş şəkildə qeyd edilmişdir. Teatr kollektivinin bir qrup əməkdaşı ən yüksək mükafatlara, fəxri adlara layiq görülmüşdür.

Məmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı müxtəlif illərdə Bakıda, İran və Türkiyənin müxtəlif şəhərlərində qastrol səfərlərində olmuşdur.

2006-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Dövlət Uşaq Teatrı yaradılmışdır. Qısa zaman ərzində bu teatr muxtar respublikanın mədəni həyatında layiqli yer tuta bilmişdir.

Naxçıvan Dövlət Universitetinin Tələbə teatr studiyası, Tələbə opera studiyasının hazırladığı tamaşalar və operalar Azərbaycan tamaşaçıları ilə yanaşı, Rusiya, Türkiyə və Gürcüstan tamaşaçılarına da yüksək səviyyədə təqdim edilmişdir.

Ümumiyyətlə, 1950-ci ildə Naxçıvanda 1 teatr fəaliyyət göstərmişsə, artıq bu gün Naxçıvan Muxtar Respublikasında 3 dövlət teatrı və 4 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 uşaq dövlət filarmoniyası, Aşıqlar Birliyi fəaliyyət göstərir [11, s. 158-159]. Klub müəssisələrinin sayı 226-a çatmışdır.

Muxtar respublikada Xalq Çalğı Alətləri Orkestri, Kamera Orkestri, Mahnı və Rəqs Ansamblı fəaliyyət göstərir. Naxçıvan Dövlət Filarmoniyası Azərbaycanın digər bölgələrində, eləcə də Türkiyədə qastrolda olmuş, mədəni xidmət göstərmişdir.

Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının Naxçıvan Muxtar Respublikasının 85 illiyi ilə əlaqədar Moskva şəhərində, Türkmənistanda keçirilən Azərbaycan mədəniyyəti günlərində və Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən IX Zirvə görüşündəki konsertdə çıxışları professional musiqi kollektivlərinin formalaşdığını göstərir.

Naxçıvan Muxtar Respublikasının ərazisi tarix və mədəniyyət abidələri ilə zəngindir. Tarix və mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamından sonra bu sahəyə diqqət artırılmışdır. Qeyd etməliyik ki, Naxçıvan diyarının tarixinin və arxeologiyasının öyrənilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15-ə yaxın fərman və sərəncamı olmuşdur. "Nuh peyğəmbərin Naxçıvan şəhərində məzarüstü abidəsinin bərpa

edilməsi haqqında", "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq olunması barədə", "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında"kı Sərəncamları tarixi abidələrimizə, inanc yerlərimizə qayğı və diqqətin ən mübariz nümunəsidir. Bu fərman və sərəncamlardan sonra 20-yə yaxın tarixi abidə bərpa və konservasiya edilmişdir. Bunlara misal olaraq Mömінə Xatın və Qarabağlar memarlıq komplekslərini, Əshabi-Kəhf, İmamzadə, Buzxana abidələrini, Came məscidini, Zaviyyə-mədrəsə binasını, İsmayılxan hamamını, Yusif Küseyr oğlu türbəsini, Xan Sarayını, Ordubadda Aza körpüsünü, Şərq hamamını, qədim Zorxana (Qeysəriyyə) abidəsini, Culfadakı Xanəgah kompleksini göstərmək olar. Naxçıvan şəhərində Dədə Qorqudun, Koroğlunun abidələri ucaldılmış, abidələrin yerləşdiyi meydanlar yenidən qurulmuş, "Nuh peyğəmbər"in məzarüstü türbəsi bərpa olunmuş, "Ana dili" abidəsi yaradılmışdır. Naxçıvan şəhərində qədim Qala tarixi abidəsinin bərpa və təmiri davam etdirilir.

Bəhs olunan illərdə bir sıra mədəniyyət və istirahət parkları təmir olunmuş, yenidən qurulmuşdur. Naxçıvan şəhərində Heydər Əliyev Sarayı, Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, Şərur şəhərində Heydər Parkı və bir sıra ev muzeylərin tikintisi başa çatdırılmışdır. 2009-cu ildə inşa olunmuş kənd mərkəzlərində 11 kitabxana, 11 mədəniyyət evi və klub əhalinin istifadəsinə verilmişdir.

Beləliklə, son on beş il ərzində mədəni-maarif sahəsindəki dəyişikliklər və inkişaf Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun məqsədyönlü fəaliyyətinin, qətiyyətli və prinsipial mövqeyinin və fədakar işinin nəticəsi kimi ortaya çıxmışdır.

3.5. Gənclər və idman siyasəti

Ölkəmizdə gənclərlə bağlı tədbirlər, idman siyasəti uğurla aparılır. Bu təsadüfi deyildir. Ölkə rəhbərinin ölkəmizin gələcəyini, uğurlarını gənclərdə və onların sağlamlığında gördüyündəndir ki, bu sahəyə son illərdə xüsusi diqqət və qayğı var.

Azərbaycan Respublikası Prezidentinin gənclər siyasətini muxtar respublikada qətiyyətlə həyata keçirən Ali Məclis Sədri idmanın inkişafı, idman şəbəkələrinin qurulması üçün 14 idman növü

üzrə federasiyalar yaratmış, onlara rəhbərlik və istiqamət vermişdir.

2 fevral 1996-cı ildə müstəqil Azərbaycan Respublikası gənclərinin birinci Forumunun keçirilməsi respublikanın, eləcə də muxtar respublikanın həyatında müstəsna əhəmiyyətə malik bir hadisə oldu. Forum gənclərlə işin nəzərə çarpacaq dərəcədə canlanmasına səbəb oldu və ölkəmiz qarşısında duran vəzifələrin həyata keçirilməsində gənclərin fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi.

28 fevral 1996-cı ildə Naxçıvan Muxtar Respublika Gənclərinin Birinci Konfransı keçirildi və burada gənclərlə bağlı problemlər müzakirə edildi, vəzifələr müəyyənləşdirildi. Muxtar respublika gənclərinin 28 fevral 1996-cı ildə I, 26 aprel 2002-ci ildə və 9 sentyabr 2005-ci ildə növbəti konfransları keçirilmişdir. Naxçıvanda keçirilən muxtar respublika gənclərinin konfranslarında ictimai-siyasi həyatda gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, onların problemlərinin həllinə diqqətin yönəldilməsi əsas istiqamətlər olmuşdur.

Ölkə Prezidenti 29 iyul 1999-cu il tarixdə "Dövlət Gənclər siyasəti haqqında" Fərman imzaladı, tədbirlər planı təsdiq etdi. Dövlət idarəetmə orqanlarında gənclərin məsul işlərə cəlb olunması, bələdiyyə seçkilərində gənclərin daha geniş təbəqələrinin iştirakının təmin olunması, gənclərin öz yaradıcılıq potensialını gerçəkləşdirməsi üçün şərait yaradılması və digər tədbirlər muxtar respublikada həyata keçirilməyə başlanmışdır.

Muxtar Respublikanın gəncləri Naxçıvandakı ali təhsil müəssisələrində, lisey və kolleclərdə təhsil alır, torpaqlarımızın qorunmasında bilavasitə iştirak edirlər. Gənclərimiz Heydər Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq Sarayında yaradıcı qabiliyyətlərini inkişaf etdirirlər.

Respublikamızda gənclər siyasəti müasir tələblərə uyğun şəkildə inamla inkişaf etdirilir və uğurla həyata keçirilir. Ölkə Prezidentinin 30 avqust 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər)" Naxçıvan Muxtar Respublikasında icrası ilə əlaqədar tədbirlər planı Ali Məclis Sədri tərəfindən imzalanan sərəncamla təsdiq edilmişdir. Tədbirlər planının məqsədi muxtar respublikada gənclərin hərtərəfli

inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır.

Ölkə Prezidentinin xüsusi istedada malik olan gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi ilə bağlı dövlət proqramına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 30 may 2006-cı il tarixdə sərəncamı olmuşdur. Bu sərəncam uşaq, yeniyetmə və gənclərin qabiliyyətlərinin aşkar edilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə, intellektual səviyyələrinin yüksəldilməsinə geniş şərait yaratmışdır. Hazırlanan tədbirlər planına uyğun olaraq rəsm, şeir, inşa yazı, folklor, texniki yaradıcılıq, bilik müsabiqələri və digər müsabiqələr keçirilmişdir.

Böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsinə diqqət və qayğı muxtar respublikada ön planda olmuşdur. "Şahin" və "Cəsurlar" hərbi-idman və turizm oyunlarının keçirilməsi və Naxçıvan komandalarının respublika birinciliyində ən yüksək yer tutmaları muxtar respublikada gənclər siyasətinin əsas istiqamətlərindən olan vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə olmasının aydın göstəricisidir.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri də gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasıdır. Burada həyata keçirilən geniş miqyaslı abadlıq-quruculuq işlərinin gənclər siyasətinə böyük təsiri olmuşdur. Belə ki, Naxçıvan şəhərində "Gənclik Mərkəzi", Şərur rayonunda "Bahar" kinoteatrı, Şahbuz rayonunda "Araz" kinoteatrı və Babək rayonunda "Mədəniyyət evi" tikilərək gənclərin istafadəsinə verilmişdir.

Naxçıvan şəhərində və rayon mərkəzlərində İnternet mərkəzlərinin fəaliyyət göstərməsi gənclərin qlobal şəbəkə vasitələrilə dünyaya açılmalarına geniş şərait yaratmışdır.

Gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə, sosial vəziyyətlərinin yaxşılaşdırılmasına, evlə və işlə təmin olunmasına böyük diqqət göstərilmişdir.

Dövlət Gənclər siyasətinin prioritet istiqamətləri kütləvi bədən tərbiyəsi və idmana diqqəti yönəldərək sağlam gəncliyin yetişməsidir. 1997-ci ildə Milli Olimpiya Komitəsinə Prezident seçilən İlham Əliyev Azərbaycan idmanının ən yüksək zirvələri fəth etmə-

sinə nail oldu. Naxçıvan idmançıları bir sıra beynəlxalq səviyyəli yarışlarda iştirak etmiş və qələbə qazanmışlar. Muxtar respublikanın idmançıları Dünya çempionatlarından qızıl medalla qayıtmışlar. İdmanın sərbəst güləş, karate-do, pauerliftinq, boks, cüdo, kikboks növləri üzrə beynəlxalq turnirlərindən, Dünya və Avropa çempionatlarından qızıl, digər idman növləri üzrə gümüş, bürünc medallarla geri dönmüşlər.

1995-2010-cu illərdə Naxçıvan idmanının əldə etdiyi uğurların əsas şərti muxtar respublika rəhbərinin bu sahəni özünün himayəsinə alması, diqqət və qayğı göstərməsi və maddi-texniki bazasının möhkəmləndirilməsidir. Milli Olimpiya Komitəsi və muxtar respublika rəhbərliyinin qayğısı ilə 2002-ci ildə Naxçıvan şəhərində Olimpiya-İdman Kompleksi tikilərək istifadəyə verildi. 2003-cü ildə bu kompleksdə 20 yaşa qədər şahmatçılar arasında 30 ölkənin 77 idmançısının iştirakı ilə dünya çempionatı keçirildi. Onlardan iki nəfəri muxtar respublikanın şahmatçısı idi.

Muxtar respublika rəhbərliyinin qayğısı ilə bir sıra idman obyektləri tikilərək gənclərin istifadəsinə verildi. Belə ki, Naxçıvan şəhərində, Şərur, Sədərək və Şahbuz rayonlarında stadionlar, Culfa rayon uşaq gənclər idman məktəbi, "Dinamo" idman cəmiyyətinin binası və yanında süni örtüklü mini futbol meydançası, Şərur rayonunda əl oyunları idman kompleksi, boks və güləş idman zalları, "Gənclik" idman mərkəzi, Naxçıvan şəhərində əl oyunları süni örtüklü idman meydançası, Naxçıvan Şəhər Üzgüçülük Mərkəzi, Heydər Əliyev adına Hərbi Liseydə süni örtüklü mini futbol meydançası, Naxçıvan Dövlət Universitetində açıq idman kompleksi, yaşıl örtüklü stadion, süni örtüklü mini futbol meydançası, Olimpiya İdman Korpusu tikilib və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilmişdir. Muxtar respublikada fəaliyyət göstərən orta məktəblərdə idman zalları mövcuddur. Hazırda muxtar respublikada 12 Stadion, 957 Sadə İdman Meydançası, 129 İdman Zalı, 71 Atıcılıq Tiri, 2 Üzgüçülük Hovuzu, 2 Olimpiya İdman Kompleksi, 1 Sağlamlıq Kompleksi, 1 Şahmat Mərkəzi, 7 Uşaq-Gənclər Şahmat Məktəbi, 10 idman federasiyasının fəaliyyət göstərməsi, 27 uyğunlaşdırılmış otaq, Şərur rayonunda əl oyunları mini-idman kompleksi, Naxçıvan şəhərində idman kompleksi bədən tərbiyəsi və idmanın

inkişafı üçün geniş imkanlar açmışdır [29, s. 32]. Ümumilikdə, ötən dövr ərzində muxtar respublikada 33 idman obyekti tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir [11, s. 161]. İdmançılar üçün yaradılan şərait öz nəticəsini verirdi. Bir sıra güclü idmançılar yetişdi. Naxçıvanlı idmançılar beynəlxalq səviyyəli yarışlarda uğurlar qazandılar.

Muxtar respublikada uşaq və gənclərin fiziki sağlamlığı ilə yanaşı əqli inkişaflarına da xüsusi diqqət yetirilmişdir. Şahmat idman növünün maddi-texniki bazası gücləndirilmişdir. Naxçıvan şəhərində, Culfa, Şahbuz və Şərurda yeni tipli, dünya səviyyəli uşaq-gənclər şahmat məktəbləri tikilərək istifadəyə verilmişdir. Naxçıvan şəhərində beynəlxalq standartlara cavab verən yeni şahmat məktəbi tikilmişdir. Gənclər idmanın müxtəlif növləri üzrə məşğul olurlar və bu idmançıların sayı artır. Bədən tərbiyəsi və idmanla məşğul olanlar 1996-cı ildə 21600 nəfər, 2001-ci ildə 25985 nəfər, 2006-cı ildə 32332 nəfər, 2009-cu ildə 36076 nəfər olmuşdur. Bədən tərbiyəsi və idman kadrları artdığı kimi, idman dərəcələri və mükafat alanların da sayı ilbəil artmışdır.

Ümumiyyətlə, muxtar respublika rəhbərliyinin diqqət, qayğı və dəstəyi ilə keçirilən bütün tədbirlər, gənclər və idman sahəsində atılan addımlar nəticəsində muxtar respublikada müasir tələblərə cavab verən, milli mentalitetimizə uyğun gələn gənclər və idman siyasəti formalaşmış və uğurla həyata keçirilməkdədir.

Göründüyü kimi, son 15 il ərzində Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında, sosial-iqtisadi və mədəni inkişafında heç bir dövrlə müqayisə olunmayacaq səviyyədə hərtərəfli inkişaf baş vermiş, inkişafın Naxçıvan modeli yaranmışdır. Bu inkişaf və dəyişikliklər o qədər yüksək səviyyəyə çatmışdır ki, bir çox hallarda bunu inkişafın Naxçıvan möcüzəsi kimi də xarakterizə edirlər. Bəli, "möcüzə" yaradılmışdır, lakin Naxçıvanın sosial-iqtisadi və mədəni həyatında. "Möcüzə"nin əsasında ümummilli lider Heydər Əliyevin düşünülmüş, ölçülüb-biçilmiş siyasətinin nəticəsində hazırlanan siyasi və sosial-iqtisadi kurs, bu kursu yaradıcılıqla inkişaf etdirən və həyata keçirən ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti dayanır.

Naxçıvan Muxtar Respublikasının 1995-2010-cu illər inkişafı

bilavasitə Muxtar Dövlətə uğurla rəhbərlik edən Ali Məclisin Sədri Vasif Talıbovun adı və səmərəli fəaliyyəti ilə bağlıdır. Onun əqidə bütövlüyü, Heydər Əliyev siyasi kursuna sədaqəti, problemlərə bələdliyi, onlara milli mövqedən və dövlətçilik prinsipindən yanaşması, yorulmaz fəaliyyəti, yüksək tələbkarlığı və prinsipiallığı, eyni dərəcədə xeyirxahlığı və vətənpərvərliyi əldə olunan nailliyyətlərin əsas şərti olmuşdur

NƏTİCƏ

Azərbaycan Respublikası müstəqilliyinin bərpa etməsinin 20 illiyini bu il yüksək səviyyədə qeyd edəcək. Müstəqillik hər bir xalqın taleyində əvəzolunmaz tarixi nailiyyətdir. Bu nailiyyətlərdən hər bir vətəndaşımıza fərəh doğuran pay düşür.

Müstəqilliyimizin ilk illəri xalqımız və ölkəmiz üçün ağrı-acılarla əlaqəli olub. Məkrli düşmənlərimiz Azərbaycanın bir sıra tarixi torpaqlarına yiyələnmək üçün əvvəlcə pərdələnmiş, sonra isə açıq silahlı mübarizə yolu ilə fəaliyyətə keçmişdir. Azərbaycan rəhbərlərinin səriştəsizliyi və milli maraqlardan çıxış etməmələri bir sıra ərazilərimizin işğal edilməsi ilə nəticələnmişdir.

Erməni daşnakları Naxçıvanla da bağlı məqsədlərini gizlətməmiş, sərhədlərimizə silahlı basqınlar etmiş, lakin layiqli cavablarını almışlar. Ulu öndər Heydər Əliyevin Naxçıvanda olması, fəaliyyət göstərməsi erməni iddialarının reallaşmasına imkan verməmişdir. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi həyata keçirdiyi tədbirlər Naxçıvanı xilas etmişdir.

Ümummilli lider Heydər Əliyevin səmərəli və gərgin əməyi nəticəsində blokada şəraitinin yaratdığı çoxsaylı problemlərlə üzləşmiş Naxçıvanda sosial-iqtisadi vəziyyətin normalaşdırılması sahəsində mühüm nailiyyətlər əldə edildi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışı ilə ölkəmizin və onun tarixi bölgəsi olan Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi həyatında yeni mərhələnin əsası qoyuldu.

V.Talıbovun Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi Naxçıvanın müasir tarixində mühüm əhəmiyyət kəsb edən hadisə oldu. Məhz onun rəhbərliyi altında Naxçıvanda ümummilli lider tərəfindən əsası qoyulan ictimai-siyasi sabitliyin və sosial-iqtisadi inkişafın ardıcıllığı təmin edildi. Regionun sosial-iqtisadi uğurları ildən-ilə və sürətlə artır. Sənaye dinamik inkişaf edir, yeni sənaye sahələri yaradılır.

Sahibkarlıq üçün əlverişli şərait mövcuddur, müəssisələrin

fəaliyyəti bərpa edilir, yeni iş yerləri, istehsal sahələri yaradılır. Tikinti, quruculuq, abadlıq və yaşıllaşdırma tədbirləri uğurla aparılır. Əhalinin qaz və elektrik enerjisinə tələbatı tam ödənilib. İxrac yönlü mallar istehsalı xeyli artıb.

Təhsil, elm, səhiyyə və mədəni-maarif sahəsində ciddi uğurlar əldə edilib. Onların inkişafına fikir verilir, maddi-texniki bazası möhkəmləndirilir. Mədəniyyət abidələri qorunur, təmir və bərpa edilir. Kitabxanalar, muzeylər, mədəniyyət evləri yenidən qurulur.

Naxçıvan Muxtar Respublikası, eləcə də Naxçıvan şəhəri abadlaşır, müasirləşir, yenidən qurulur, beynəlxalq tədbirlər keçirmək üçün bir məkana çevrilir. Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısı, Azərbaycan-Türkiyə biznes forumunun Naxçıvanda keçirilməsi, bir sıra ölkələrin dövlət və hökumət rəhbərlərinin Naxçıvana gəlmələri Naxçıvanın ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı haqqında hər şeyi deyir.

Naxçıvan sürətlə və dinamik inkişaf edən bir diyara çevrilir.

ƏDƏBİYYAT

BİRİNCİ FƏSİL:
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ SİYASİ HƏYATI

1. Allahverdiyev Q. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında. «Tarix və onun problemləri» jurnalı, 2000, №1.
2. Allahverdiyev Q. Naxçıvanda xalq hərakatının bəzi məsələləri haqqında (1988-1990-cı illər). «Dirçəliş -XXI əsr» jurnalı, - Bakı, 2000, №7-8.
3. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), f.1, s.19, iş 8953.
4. Azərbaycan Respublikası 1991-2001. - Bakı, XXI - Yeni Nəşrlər Evi, 2001,360 s.
5. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (AR MMA). Fond 2941, siy.1a, iş 1.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Yeni redaksiyada - Bakı, Qanun, 2009, 68 s.
7. «Azadlıq» qəzeti.
8. Azərbaycan tarixi. Yeddi cilddə, c. 7, - Bakı, «Elm», 2003, 676 s.
9. «Azərbaycan» qəzeti.
10. «Azərbaycan müəllimi» qəzeti.
11. «Bakinskiy raboçiy» qəzeti.
12. «Bizim əsr» qəzeti.
13. «Dövran» qəzeti.
14. «Dirçəliş – XXI əsr» jurnalı.
15. Əliyev H. Müstəqilliyimiz əbədidir. c.14, - Bakı, «Azərnəşr», 2005, 520 s.
16. «Həyat» qəzeti.
17. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. - Bakı, «Təhsil», 2004, 472 s.
18. «Xalq qəzeti».
19. Qayıdış (1990-1993). Sənədlər toplusu, - Bakı, «Azərbaycan», 1996, 791 s.
20. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. - Bakı, «Azərbaycan», 2008,840 s.
21. Qədim Naxçıvanda bayram – 75. - Bakı, «Azərbaycan», 1999, 288 s.

22. Qətiyyətin təntənəsi (Sənədli xronika). - Bakı, «Səhər», 1995, 848 s.
23. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. - Bakı, «Təhsil», 2002, 328 s.
24. Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). - Bakı, Şirvannəşr, 2005, 208 s.
25. Məmmədov Ş. 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Naxçıvanda milli-demokratik hərəkat. - «Naxçıvan Muxtar Respublikası -75. Bakı Universitetinin «xəbərləri»nin xüsusi buraxılışı. Bakı Universiteti, 1999, №3.
26. «Milliyet» qəzeti.
27. «Müxalifət» qəzeti.
28. Naxçıvan. Azərbaycan beynəlxalq jurnalı. 2004, Mart (01).
29. «Naxçıvan» qəzeti.
30. Naxçıvan MR MSK - nın Bülleteni. Naxçıvan, 2000.
31. Naxçıvanda seçkilərin tarixi (1937-2002). Ensiklopedik toplu. - Bakı, «Qanun», 2003, 562 s.
32. Naxçıvan Dövlət Universitetinin elmi əsərləri (Xüsusi buraxılış), - Naxçıvan, «Qeyrət», 2004, №12.
33. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi (21-22 may 2004-cü il tarixdə keçirilmiş elmi konfransın materialları). - Bakı, «Elm», 2004, 512 s.
34. Naxçıvan Muxtar Respublikası. 1969-1999. - Naxçıvan, 1999, 216 s.
35. Naxçıvanda parlament seçkiləri (tərtib edəni: M.Qasımov), - Bakı, «Nasir», 2006, 287 s.
36. «Oğuz yurdu» qəzeti.
37. «Respublika» qəzeti.
38. «Səs» qəzeti.
39. «Şərq qapısı» qəzeti.
40. Ülki İ. Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. - Bakı, 1994, 164 s.
41. Vəliyev İ., Hüseynov Y. Azərbaycan siyasi partiyaları və ictimai təşkilatları. - Bakı, 1995, 84 s.
42. «Yeni Azərbaycan» qəzeti.

İKİNCİ FƏSİL:
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI

1. «Azərbaycan» qəzeti.
2. «Ekspress» qəzeti.
3. Elman Həbib. Naxçıvan Muxtar Respublikası: 85 ilin 15 ili. Bakı, Şirvannəşr, 2009, 438 s.
4. Əhmədov N. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı, «Elm», 2005, 312 s.
5. Əhmədov N. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, «Sabah», 2008, 452 s.
6. Əhmədov N. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı, «Elm və Təhsil», 2010, 148 s.
7. Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər (I cild). Bakı, «Azərbaycan», 2001, 284 s.
8. «Xalq» qəzeti.
9. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan, «Əcəmi» NPB, 2011, 279 s.
10. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, «Elm», 2000, 104 s.
11. Naxçıvan Muxtar Respublikası. Bakı, «Elm», 2001, 220 s.
12. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illər ərzində. Naxçıvan, «Əcəmi», 2001, 91 s.
13. Naxçıvan Muxtar Respublikası – 80. Tarixi-statistik məcmuə (Məcmuənin ümumi rəhbəri V. Talıbov). Bakı, «Səda», 2004, 212 s.
14. Şahverdiyev S., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı, «Qismət», 2002, 168 s.
15. «Şərq qapısı» qəzeti.
16. 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında. Naxçıvan, «Əcəmi» NPB, 1998, 29 s.
17. 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2001, 46 s.
18. 2001-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2002, 54 s. (şəkilli).
19. 2002-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişa-

fının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2003, 63 s. (şəkilli).
20. 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2004, 60 s. (şəkilli).
21. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2005, 75 s. (şəkilli).
22. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2006, 48 s. (şəkilli).
23. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan, «Əcəmi» NPB, 2006, 70 s. (şəkilli).
24. 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2007, 52 s. (şəkilli).
25. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2008, 28 s. (şəkilli).
26. 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2009, 34 s. (şəkilli).
27. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2010, 38 s. (şəkilli).
28. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2011, 96 s. (şəkilli).

ÜÇÜNCÜ FƏSİL:
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MƏDƏNİ İNKİŞAFI

1. «Azərbaycan» qəzeti.
2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi (Tərtib edəni İsmayıl Hacıyev). Bakı, «Nurlan», 2005, 156 s. (+ 8 səh. şəkil).
3. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin 2008-ci il elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan, «Tusi», 2008, 86 s.
4. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin 2009-cu il elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan, «Tusi», 2009, 106 s.
5. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin 2010-cu il elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan, «Tusi», 2010, 106 s.

6. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı, «Elm və təhsil», 2011, 544 s. (+24 səh. rəngli şəkil).
7. Cəfərov T. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı. Bakı, «Səda», 1999, 312 s.
8. Elman Həbib. Naxçıvan Muxtar Respublikası: 85 ilin 15 ili. Ədəbi-pub - lisistik düşüncələr, statistik həqiqətlər. Bakı, «Şirvannəşr», 2009, 406 s.
9. Əliyev M. Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman hərəkatı. Bakı, 1999, 134 s.
10. «Xalq» qəzeti.
11. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan, «Əcəmi» NPB, 2011, 279 s.
12. Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı, Şirvannəşr, 2005, 208 s.
13. «Naxçıvan» (İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal). Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinə həsr olunmuş xüsusi nömrə. Naxçıvan, «Əcəmi» NPB, 2007, № 15, 2005.
14. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı, «Nurlan», 2008, 548 s.
15. Naxçıvan Dövlət Universitetinin Cari Arxivi. Tədris hissəsinin 2001-2005, 2006-2010-cu illər üçün hesabatlar qovluğu.
16. Naxçıvan Muxtar Respublikası. Bakı, «Elm», 2001, 220 s.
17. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illər ərzində. Naxçıvan, «Əcəmi», 2001, 92 s.
18. Naxçıvan Muxtar Respublikası – 80. Tarixi statistik məcmuə (Məcmuənin ümumi rəhbəri V.Talıbov). Bakı, «Səda», 2004, 206 s.
19. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Cari Arxivi. 1991-2005, 2006-2010-cu illər üçün illik hesabatlar qovluğu.
20. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Cari Arxivi. 1991-2005, 2006-2010-cu illər üçün hesabatları və kollegiyanın materialları.
21. «Respublika» qəzeti.
22. «Şərq qapısı» qəzeti.
23. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı, «Qismət», 2002, 168 s. (şəkilli).
24. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi

inkişaf. Naxçıvan, «Əcəmi» NPB, 2006, 70 s. (şəkilli).
25. 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2007, 52 s. (şəkilli).
26. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2008, 28 s. (şəkilli).
27. 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2009, 34 s. (şəkilli).
28. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2010, 38 s. (şəkilli).
29. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, «Əcəmi» NPB, 2011, 96 s. (şəkilli).

Naxçıvan Dövlət Universitetinin
əsas korpusu

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və
xarici dillər fakültəsi



Naxçıvan Dövlət Universitetinin
Konservatoriya binası



Naxçıvan Dövlət Universitetinin
Tələbə Sosial Xidmət Mərkəzi



Naxçıvan Dövlət Universitetinin 452 yerlik tələbə yataqxanası və qonaq evi



Naxçıvan Müəllimlər İnstitutu



AMEA Naxçıvan Bölməsinin Mərkəzi Aparatı və elmi-tədqiqat institutları




AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat institutları



AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun binası



Batabat Astrofizika Rəsədxanası



AMEA Naxçıvan Bölməsinin Nəbatat bağının görünüşü



AMEA Naxçıvan Bölməsinin Nəbatat bağı

Naxçıvan Tibb Kolleci

Naxçıvan Musiqi Kolleci




Naxçıvan şəhərində 1404 şagird yerlik
14 saylı orta məktəb



Naxçıvan şəhərində 828 şagird yerlik
4 saylı orta məktəb



Naxçıvan şəhərində Heydər Əliyev adına
Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi



Naxçıvan şəhərində
Heydər Əliyev adına məktəb




Şərur şəhərində 738 şagird yerlik 1 saylı orta məktəb



Naxçıvan şəhərində 1008 şagird yerlik 8 saylı orta məktəb



Kəngərli rayonunun Şahtaxtı kəndində Zərifə Əliyeva adına
594 şagird yerlik orta məktəb



Şərur rayonunun Yengicə kəndində
568 şagird yerlik orta məktəb



Şərur rayonunun Maxta kəndində
540 şagird yerlik orta məktəb



Sədərək rayonunun Sədərək kəndində
594 şagird yerlik 2 saylı orta məktəb



Culfa şəhərində 980 şagird yerlik 3 saylı orta məktəb



Şahbuz şəhərində 630 şagird yerlik orta məktəb



Babək rayonunun Şıxmahmud kəndində
686 şagird yerlik orta məktəb



Kəngərli rayonunun Qıvraq qəsəbəsində
1026 şagird yerlik orta məktəb



Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzi



Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi



Duzdağ Fizioterapiya Mərkəzi



Culfa Rayon Mərkəzi Xəstəxanası



Şərur rayonunda xəstəxana kompleksi



Şahbuz Rayon Mərkəzi Xəstəxanası



Kəngərli Rayon Mərkəzi Xəstəxanası



Sədərək Rayon Mərkəzi Xəstəxanası



Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi



Naxçıvan şəhərində Heydər Əliyev Sarayı



Naxçıvan şəhərində Xan Sarayı



Naxçıvan şəhərindəki Xan Sarayı açılışdan sonra



Naxçıvan şəhərində C. Məmmədquluzadə adına
Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi



Naxçıvan Dövlət Xalça Muzeyi



Naxçıvan şəhərində M.Şahtaxtlı adına Kitab Evi



Sədərək rayon Tarix-Diyarşünaslıq Muzeyi



Naxçıvan şəhərində Nuh Peyğəmbərin məzarüstü türbəsi



Zaviyyə-Mədrəsə binası



Culfa rayonunda Xanəgah Abidə Kompleksi



Naxçıvan şəhərində Hüseyn Cavidin məqbərəsi




Naxçıvan şəhərində İlham Əliyev adına Olimpiya İdman Kompleksi



Naxçıvan şəhərində Şahmat Mərkəzi



Şərur şəhərində Olimpiya İdman Kompleksi



Şərur şəhərində Olimpiya İdman Kompleksində Üzgüçülük Mərkəzi



Babək qəsəbə Uşaq Musiqi Məktəbi



Şahbuz şəhər Uşaq Musiqi Məktəbi



Ordubad şəhər Uşaq Musiqi Məktəbi



Naxçıvan şəhərində Əliabad qəsəbəsində
Uşaq Musiqi Məktəbi



Naxçıvan Muxtar Respublika Ali Məclisin Sədri Vasif Talıbov
11 saylı uşaq bağçasında



Naxçıvan şəhərində 240 yerlik
11 saylı uşaq bağçası



Naxçıvan şəhərində 120 yerlik
4 saylı uşaq bağçası



Naxçıvan şəhərində 6 nömrəli uşaq bağçası



Naxçıvan şəhərində 7 nömrəli uşaq bağçası



Ordubad şəhərində 50 yerlik uşaq bağçası



Culfa şəhərində 240 yerlik uşaq bağçası



Şərur şəhərində 200 yerlik uşaq bağçası

ƏLAVƏLƏR

«ULUSLARARASI QAYNAQLARDA NAXÇIVAN» MÖVZUSUNDA SİMPOZİUMUN KEÇİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MR ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİ ÜZRƏ

S Ə R Ə N C A M

«Uluslararası qaynaqlarda Naxçıvan» mövzusunda simpozium keçirmək barədə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin təklifini nəzərə alaraq Naxçıvan MR Ali Məclisi **qərara alır:**

1) Naxçıvanın tarixi inkişafının bütün mərhələlərinin real tarixi mənbələr əsasında öyrənilməsini, elmi əsaslar üzrə işlənib hazırlanmasını və nəşrini təşkil etmək məqsədilə «Uluslararası qaynaqlarda Naxçıvan» mövzusunda simpoziumun keçirilməsi məqsədəuyğun sayılsın.
2) «Uluslararası qaynaqlarda Naxçıvan» simpoziumunun 1996-cı ilin iyul ayında 3 gün müddətinə Naxçıvan şəhərində keçirilməsi nəzərdə tutulsun.
3) Simpoziumun hazırlanması və keçirilməsi məqsədilə təşkilat komitəsi yaradılsın.
4) Simpoziumda Azərbaycan alimləri ilə yanaşı, Naxçıvanın tarixinin bağlı olduğu Rusiya, Türkiyə və İran İslam Respublikasının görkəmli alimlərinin də iştirakı təmin edilsin.
5) «Uluslararası qaynaqlarda Naxçıvan» mövzusunda simpoziumunun materiallarının kitab halında nəşrinə nail olunsun.
6) Qərarın icrasına nəzarət Naxçıvan MR Ali Məclisi Sədrinin birinci müavini, tarix elmləri namizədi A.A.Qasımova həvalə edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 24 mart 1996-cı il.

«NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏBİİ EHTİYATLARI VƏ ONLARDAN DAHA SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI» MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN KEÇİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin rəhbərliyi altında bazar iqtisadiyyatına əsaslanan, müstəqil, hüquqi, demokratik dövlət quruculuğu ilə inamla irəliləyən ölkəmizin hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi infrastrukturun inkişafına, əhalinin rifah halının yaxşılaşdırılmasına, ehtiyat mənbələrin, təbii sərvətlərin aşkara çıxarılmasına və onlardan səmərəli istifadə edilməsinə daim diqqət yetirilir.

Zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Naxçıvanın daş duz, qızıl və molibden yataqlarının, çeşidli mineral suların, dərman bitkilərinin tam həcmi aşkara çıxarılmamış, istehsala cəlb olunmamışdır. Halbuki bu zəngin potensialın geniş miqyasda açılması, istismara verilməsi çətin blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının dirçəlişinə, yeni iş yerlərinin, istehsal sahələrinin yaradılmasına, xarici-iqtisadi əlaqələrin inkişafına ciddi təkan verə bilər.

Naxçıvanın zəngin təbii sərvətlərini, ehtiyat mənbələrini, qiymətli yeraltı və yerüstü zənginliklərini elmi şəkildə araşdırıb aşkara çıxarmaq və istehsal sahələrini genişləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Elm və Texnika Komitəsi ilə birlikdə 2000-ci ilin sentyabr ayında Naxçıvan şəhərində «Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan səmərəli istifadə yolları» mövzusunda beynəlxalq simpozium keçirilsin.

2. Beynəlxalq simpoziumun təşkili və keçirilməsi məqsədilə təşkilat komitəsi yaradılsın...

3. «Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan səmərəli istifadə yolları» simpoziumunda Azərbaycan Res-

publikasının alimləri və iş adamları ilə yanaşı, xarici ölkələrin alim və mütəxəssislərinin də iştirakı nəzərdə tutulsun.

4. Beynəlxalq simpoziumun materiallarının və proqramının hazırlanması Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə tapşırılsın.

5. Beynəlxalq simpoziumda elmi məruzələrin dinlənilib müzakirə olunması ilə bərabər, həm də mövcud təbii ehtiyat sahələrinin aşkara çıxarılması, istehsal fəaliyyətinin təşkili məqsədilə uyğun layihələrin təqdimatına da nail olunsun.

6. Təşkilat komitəsinə tapşırılsın ki, simpozium keçirildiyi günlərdə muxtar respublikanın təbii ehtiyatlarını əks etdirən sərginin təşkil olunması məsələsini həll etsin.

7. Sərəncamın icrasına nəzarət Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Humanitar siyasət, sosial-mədəni və ictimai təşkilatlarla iş şöbəsinə həvalə edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 06 iyun 2000-ci il.

BƏHRUZ KƏNGƏRLİNİN ADININ ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

İyirminci əsr Azərbaycan rəsm sənətinin görkəmli nümayəndələrindən biri olan Bəhruz Kəngərli realist portret və mənzərə rəsm yaradıcılığının əsasını qoymuşdur. Teatr rəssamlığı, qrafika və sair janrlarda əsərlər yaradan Bəhruz Kəngərli milli rəssamlığın inkişafında özünəməxsus rol oynamışdır.

Bəhruz Kəngərli 30 il ömür yaşasa da, özündən sonra tematika rəngarəngliyi ilə seçilən 500-ə yaxın rəsm əsərlərindən ibarət zəngin irs qoyub getmiş, Azərbaycan bədii sənət xəzinəsinə dəyərli nümunələr bəxş etmişdir. Rəssamın yaradıcılığından qırmızı xətlə keçən "Qaçqın uşaqlar" portretlər seriyası 1918-1920-ci illər Azərbaycan mühitinin canlı salnaməsidir. Erməni zülmündən baş götürüb qaçan, didərgin ömrü yaşayan insanları, erməni millətçilərinin törətdikləri qırğınları, azərbaycanlıların indiki Ermənistan ərazisi adlandırılan tarixi torpaqlarından deportasiyasını Bəhruz Kəngərli realist sənətçi müşahidəsi və fırçası ilə əks etdirmiş, millətin faciəsini gələcək nəsillərə çatdıra bilmişdir.

Bəhruz Kəngərlinin yaşadığı dövrdə Naxçıvan şəhərində rəsm qalereyası və sərgi salonları olmadığından böyük sənətkar yaratdığı əsərləri tamaşaçılar üçün öz mənzilində nümayiş etdirmək məcburiyyətində qalırdı. Bu gün Bəhruz Kəngərlinin ədəbi irsi Azərbaycanın milli sərvəti kimi qorunub saxlanır və nümayiş etdirilir, Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyində Bəhruz Kəngərli realist üslubunun və portret yaradıcılığının onlarca davamçıları fəaliyyət göstərir. Rəssamın Naxçıvan şəhərindəki məzarüstü abidəsi və məzarının ətrafı da abadlaşdırılmışdır.

Muxtar respublika Rəssamlar Birliyinin 1972-ci ildə fəaliyyət göstərən Sərgi Salonu 2000-ci ilin oktyabr ayında əsaslı təmir və yenidənqurma işlərindən sonra Muxtar Respublika rəssamlarının yaradıcılıq imkanlarını və axtarış istiqamətlərini nümayiş etdirən

Mərkəzə çevrilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq **qərara alıram:**

1.Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonu Bəhruz Kəngərli adına Sərgi Salonu adlandırılsın.

2.Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı Bəhruz Kəngərlinin əsərlərindən ibarət kitab-albomun hazırlanıb çap olunmasını təmin etsin.

3.Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, Bəhruz Kəngərlinin yaradıcılığının öyrənilməsi, muzey fondlarında və şəxsi kolleksiyalarda saxlanan əsərlərinin toplanaraq Nax çıvan Muxtar Respublikası Dövlət Rəsm Qalereyasına verilməsi üçün tədbirlər görsün.

4.Sərgi Salonu Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin balansına verilsin.

5.Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 15 fevral 2001-ci il.

ORDUBAD RAYONUNDAKI GƏMİQAYA ABİDƏSİNİN TƏDQİQ EDİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Möhtərəm Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın tarixinin və soykökünün öyrənilməsi sahəsində 70-ci illərdən aparılan elmi araşdırma və tədqiqat işləri yenidən davam etdirilir. Hazırda qədim mədəniyyətimizin və tariximizin bir çox sahələri ölkəmiz müstəqillik qazanandan sonra yaranmış reallıqlar baxımından araşdırılır və tədqiq edilir. Bu baxımdan ciddi elmi-tədqiqat işlərinin aparılmasını zəruri edən sahələrdən biri də qayaüstü rəsmlərin, qədim yazı təsvirlərinin öyrənilməsidir.

Azərbaycan və ona bağlı Naxçıvan Muxtar Respublikası ən qədim mədəniyyətin daşıyıcıları olan tarixi abidələri ilə məşhurdur. Belə abidələrdən biri də xalqımızın tarixən bu torpağa məxsusluğunun daş pasportu olan Gəmiqaya tarixi-etnoqrafik abidələr kompleksidir.

Xalqımızın tarixi, etnoqrafiyası və arxeologiyası üçün çox ciddi əhəmiyyətə malik olan Gəmiqaya qayaüstü təsvirləri Kiçik Qafqaz dağlarının dəniz səviyyəsindən 3000-3500 metr yüksəkliyində yerləşən Qaranquş, Camışölən və Nəbiyurdu yaylaqlarında qeydə alınmışdır.

Süjet, kompozisiya mürəkkəbliyi ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə, ovçu, maldar və əkinçi tayfaların təsərrüfat həyatına həsr olunmuşdur. Gəmiqaya qayaüstü təsvirləri içərisində bayram mərasimlərini əks etdirən rəsmlərlə yanaşı müxtəlif astronomik, coğrafi təsvirli rəsmlər də vardır.

Xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarix və təsviri sənət nümunələri kimi tariximizin və mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıcıllıqla izləməyə və öyrənməyə imkan verir.

Gəmiqaya abidələrinin tədqiqinə 1970-ci illərdə – möhtərəm Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanmışdır. 1971-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparılmasını, elmi al-

bomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almış, 1970-1987-ci illərdə Gəmiqayada tədqiqat işləri aparılmış, bir sıra elmi materiallar çap olunmuşdur.

Təəssüflə qeyd olunmalıdır ki, 70-ci illərdən xalqımızın milli özünüdərki, tariximizin və mədəniyyətimizin araşdırılması sahəsində həyata keçirilən bir çox taleyüklü tədbirlər kimi, Gəmiqaya abidələrinin tədqiqi sahəsində aparılan işlər də 1980-cı illərin axırlarından unudulmağa başlanmış, tədqiqat işlərinə ara verilmişdir. Yaranmış boşluqdan istifadə edən millətçi erməni «tədqiqatçıları» gizli şəkildə Gəmiqayada tədqiqat aparmışlar. Aparılan işlərin nəticəsi olaraq nəşr edilən «Navasarın qaya təsvirləri» və «Naxçıvanın memorial abidələri və relyefləri» adlı materiallarda erməni alimləri tarixi saxtalaşdırmaq sahəsində öz ənənələrinə sadiq qalaraq xalqımızın ən qədim yadigarı olan Gəmiqaya abidələrini heç bir elmi əsas olmadan erməni abidəsi kimi qələmə verməyə çalışmış, Gəmiqayanın adını «Navasar», «Tapanasar» kimi uydurma adlarla əvəz etmişlər.

Qədim türk dünyası mədəniyyəti üçün səciyyəvi olan qayaüstü rəsmləri özündə əks etdirən Gəmiqaya abidələri Azərbaycan xalqının ən qədim tarixinin və mənəvi mədəniyyətinin öyrənilməsi üçün xəzinədir. Bu abidələrin qorunub saxlanaraq gələcək nəsillərə çatdırılması, ardıcıl və sistemli şəkildə tədqiq edilməsi üçün **qərara alıram:**

1. Azərbaycan Respublikası Elmlər Akademiyası Naxçıvan Regional Elm Mərkəzi və Naxçıvan Dövlət Universiteti Azərbaycan Elmlər Akademiyasının mütəxəssislərini dəvət edib, onlarla birlikdə Gəmiqaya abidələrində elmi-tədqiqat işlərinin aparılması üçün Gəmiqaya ekspedisiyasını təşkil etsinlər.

2. Ekspedisiyaya tapşırılsın ki, Gəmiqaya abidələrinin qorunub saxlanması, ardıcıl və sistemli şəkildə öyrənilməsi üçün aparılan tədqiqat işlərinin nəticəsi barədə elmi rəy hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etsinlər.

3. Sərəncamın icrasına nəzarət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatına tapşırılsın.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 26 aprel 2001-ci il.

NAXÇIVAN ŞƏHƏRİNDƏKİ «ƏCƏMİ» SEYRANGAHINDA AÇIQ SƏMA ALTINDA MUZEYİN YARADILMASI HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası zəngin tarixə malikdir. Bu torpaqda insan yaşayışının ən qədim dövrlərindən soraq verən tarixi abidələr xalqımızın maddi-mənəvi dəyərlərini və qaynaqlarını yaşadaraq müasir dövrədək gətirib çıxarmışdır.

Bütövlükdə Muxar Respublika ərazisində 450-ə yaxın abidənin yeri və tarixi dəqiqləşdirilmiş, tarixi abidələrlə əlaqədar bir sıra elmi araşdırmalar aparılmış, bukletlər və albomlar nəşr olunmuşdur.

Müasir tarixşünaslığın tələbləri baxımından tədqiqini gözləyən sahələrdən biri də azərbaycanlıların yaşadıqları ərazilərdə geniş yayılmış qədim qoç heykəlləri, qəbirüstü abidələr və daş üzərində oymalardır.

Qoç heykəlləri, qəbirüstü abidələr, daş üzərində oymalar azərbaycanlılarda ən qədim mifoloji və dini baxışlarla bağlı olmuşdur.

Bunlar xalqımızın qədim mədəniyyətindən nümunələr olmaqla bərabər eyni zamanda estetik təsir bağışlayan sənət əsərləridir.

Gülüstan və Türkmənçay müqavilələrindən sonra Naxçıvana köçürülmüş ermənilərin bu qədim Azərbaycan torpağını «ermənilləşdirmək» sahəsində apardıqları siyasətin bir istiqaməti də daşdan yonulmuş mədəniyyət nümunələrimizin dağıdılmasından ibarət olmuşdur.

Xalqımızın dekorativ tətbiqi sənətinin ən yaxşı nümunələrindən olan daşdan yonulmuş mədəniyyət nümunələrimizin mühafizəsi, öyrənilməsi və təbliğ edilməsi məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan şəhərindəki «Əcəmi» seyrangahında Açıq səma altında muzey yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan şəhər icra hakimiyyəti bu sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 11 iyul 2002-ci il.

GÖRKƏMLİ PEDAQOQ, MAARİFÇİ VƏ ŞAİR MƏHƏMMƏD TAĞI SİDQİNİN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ VƏ XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

2004-cü il mart ayının 22-də Azərbaycan maarifçilik hərəkatının və ədəbiyyatının inkişafında böyük xidmətləri olan Məhəmməd Tağı Sidqinin 150 illik yubileyi tamam olur.

1854-cü ildə Ordubadda anadan olan Məhəmməd Tağı Sidqi ilk təhsilini Molla Məhəmməd Tağı adlı axundun məktəbində almış və sonra təhsilini Hüseyn Soltan mədrəsəsində davam etdirməklə klassik şərq poeziyasını və fəlsəfəsini öyrənmişdir. Maarifçilik fəaliyyəti dövründə məktəbdarlıq, ədəbiyyat, teatr və mətbuat sahələrində əvəzsiz xidmətlər göstərən Məhəmməd Tağı Sidqi təkcə Azərbaycanda deyil, Yaxın Şərq ölkələrində də tanınmışdır.

Məhəmməd Tağı Sidqinin 1892-ci ildə Ordubadda açdığı "Əxtər" ("Ulduz") və 1894-cü ildə Naxçıvanda yaratdığı "Tərbiyə" məktəbləri Azərbaycanda milli və dünyəvi məktəbin genişlənməsinə, maarifçilik hərakatının inkişafına mühüm töhfələr vermişdir. Burada tədris olunan fənlər, keçirilən ədəbi-maarifçi tədbirlər, xüsusən Sidqinin hazırladığı "Əxlaq nümunələri", "Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" kimi mükəmməl elmi-pedaqoji dəyərə malik olan dərsliklər ictimai mühitin tədricən maarifləşməsinə, yeni nəslin formalaşmasına təsir göstərmişdir. Azərbaycanın görkəmli mütəfəkkirləri, yazıçı, şair və tədqiqatçıları olan Hüseyn Cavid, Əziz Şərif, Əliqulu Qəmküsar, Rza Təhmasib, Əli Səbri və başqaları Məhəmməd Tağı Sidqinin məşhur "Tərbiyə" məktəbində yetişmişlər. Təsadüfi deyil ki, Cəlil Məmmədquluzadə bu məktəbi "böyüklər üçün darül-ürfan"-yəni akademiya adlandırmışdır.

Məhəmməd Tağı Sidqi Azərbaycan maarifçi-realist ədəbiyya-

tının yaradıcılarından biri kimi də tanınmışdır. Ədibin qələmindən çıxmış "Mədəniyyət məsnəviləri"adlı iri həcmli poetik mənzumə, "Heykəli-insana bir nəzər" ədəbi-fəlsəfi əsəri, maarifçi öyüdnamələr, "Kəblə Nəsir", "İki tərbiyə üsulu", "Ədəbli uşaq", "Məktəbə gedən uşaq", "Məktəbə davam edən uşaq", "Analar bəzəyi" hekayələri, 300-dən çox şeiri maarifçi ədəbiyyatın dirçəlməsində xüsusi əhəmiyyətə malik olmuşdur. Bu qiymətli ədəbi irsin bir çox nümunələrindən bu gün də məktəb dərsliklərində istifadə edilir.

Naxçıvan teatrının ilk yaradıcılarından olan Məhəmməd Tağı Sidqi bu teatrın inkişafı məsələləri ilə yaxından məşğul olmuşdur. 1894-1899-cu illərdə "Dram Cəmiyyəti" üzvləri ilə birlikdə M.F.Axundovun "Hekayəti-molla İbrahimxəlil kimyagər", "Sərgüzəşti-mərdi-xəsis", "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyalarının Naxçıvan xanı Rəhim xanın evində tamaşaya qoyulmasına nail olan Məhəmməd Tağı Sidqi M.F.Axundovun "Hekayəti müsyo Jordan-həkimi-nəbatat və dərviş Məstəli şahcadukuni-məşhur" komediyasına rejissorluq etmişdir. Böyük pedaqoq və maarifçi bu yolla milli teatrın imkanlarını xalqın maariflənməsinə, ictimai-mədəni tərəqqiyə cəlb etmişdir. O, Avropa, rus və Şərq mətbuatı ənənələrini öyrənib tətbiq etmiş, geniş içtimai və maarifçilik fəaliyyəti göstərmişdir.

Azərbaycanın ümummilli lideri Möhtərəm Heydər Əliyev Naxçıvan mühitinin formalaşmasında Məhəmməd Tağı Sidqinin fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur".

Məhəmməd Tağı Sidqinin Azərbaycan realist ədəbiyyatının inkişafında müstəsna rolunu, məktəb, teatr və mətbuat sahəsindəki xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1.Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 150 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilsin.

2.Naxçıvan Dövlət Kukla Teatrına Məhəmməd Tağı Sidqinin adı verilsin.

3. Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin keçirilməsi üçün hazırlanmış tədbirlər planı təsdiq edilsin.

4.Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

5.Bu sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 11 mart 2004-cü il.

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanın son 35 ilə yaxın bir dövrü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində əldə olunan nailiyyətlər ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Möhtərəm Heydər Əliyev 1969-cu ildən Azərbaycanın Azərbaycana qayıdışının əsasını qoymuş, xalqımızın milli-mənəvi dəyərlərinin daim inkişafına diqqət vermişdir. Bunun nəticəsidir ki, Azərbaycan əsl mədəni intibaha qovuşmuşdur. Ölkəmizdə milli teatrın, musiqinin, sənətin opera, balet, heykəltəraşlıq, kinomatoqrafiya kimi yeni sahələrinin inkişafında, bu sahələr üzrə milli kadrların yetişməsində və himayə olunmasında Heydər Əliyev şəxsiyyəti misilsiz rol oynamışdır.

Ümummilli liderimizin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıdışı ilə ölkə həyatının digər sahələrində olduğu kimi, mədəniyyətin inkişafı sahəsində də 1969-cu ildən başlamış kurs davam etdirilmiş, Azərbaycan mədəniyyəti labüd iflasdan xilas olmuş, dirçəliş yoluna qədəm qoymuşdur. Ümummilli liderimiz Azərbaycana rəhbərliyinin birinci dövründə olduğu kimi, hakimiyyətə tarixi qayıdışından sonra da mədəniyyət və incəsənət xadimlərinin əməyinin qiymətləndirilməsi davam etdirilmiş, fəxri adlar bərpa olunmuş, mədəniyyət və incəsənət xadimləri «İstiqlal» və «Şöhrət» ordenləri ilə təltif olunmuş, xalq, əməkdar artist adlarına, Prezident təqaüd və mükafatlarına layiq görülmüşlər.

Xalqımızın ümummilli liderinin diqqət və qayğısı sayəsində Naxçıvan Muxtar Respublikasının mədəni həyatında böyük dirçəliş və inkişaf baş vermiş, tarix-diyarşünaslıq, ev, xatirə muzeyləri, məqbərə və abidələr ucaldılmışdır. Muxtar respublikada mədəni inkişafı təmin edən saraylar, şəhər və rayon mərkəzlərində mədəniyyət evləri,

kinoteatr və klub müəssisələri tikilərək istifadəyə verilmişdir.

Möhtərəm Heydər Əliyevin muxtar respublikamızın mədəniyyətinə layiqli töhfələrindən biri də Naxçıvan Respublika Mədəniyyət Sarayıdır. Öz arxitekturasına və tikinti-texniki göstəricilərinə görə respublikamızda seçilən mədəniyyət müəssisələrindən olan bu saray istifadəyə verildiyi dövrdən mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir.

15 iyun Milli Qurtuluş günü ərəfəsində tanınmış mədəniyyət və incəsənət xadimlərinin çoxsaylı müraciət və təkliflərini əsas götürərək **qərara alıram:**

1. Naxçıvan Respublikası Mədəniyyət Sarayı Heydər Əliyev adına Saray adlandırılsın.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 11 iyun 2005-ci il.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏKİ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI VƏ PASPORTLAŞDIRILMASI İŞİNİN TƏŞKİLİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanın Naxçıvan Muxtar Respublikası zəngin tarixə malikdir. Burada əldə olunan maddi-mədəniyyət nümunələri Naxçıvan ərazisində qədim daş dövründən başlayaraq bu yurdun ilkin sivilizasiyalı yaşayış məskənlərindən biri olduğunu sübut edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır". Tədqiqatlar göstərir ki, hələ eramızdan əvvəl Naxçıvan ərazisində ulu əcdadlarımız yaşamış və yaratmışlar. Onların özlərindən sonra qoyub getdikləri tarix və mədəniyyət abidələri bu qədim yurdun Azərbaycançılıq möhürüdür.

Qədim Naxçıvan torpağı antik, orta əsrlər və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə – ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəlləri, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələrlə, digər tarixi abidələrlə zəngindir. Bu abidələr əcdadlarımızın təsərrüfat, ictimai və mənəvi həyatını, adət-ənənələrini və incəsənətini öyrənmək üçün qiymətli mənbədir.

Muxtar respublika ərazisindəki Qazma, Əshabi-Kəhf və Kilit mağaraları, Batabat yaylağında, Naxçıvançay və Əlincəçay vadilərində, Haçadağın cənub ətəyində aşkar olunan tarixi abidələr daş dövrü mədəniyyətinin qalıqlarını yaşatmaqdadır. IV minilliyin sonu – II minilliklərdə Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Govurqala kimi qala-şəhər məntəqələri yaranmışdır.

Naxçıvanın daş dövrü abidələri içərisində ən məşhuru Əshabi-Kəhfdir. Eradan əvvəl III minilliyə aid edilən bu abidə ziyarətgahdır. Qədim tariximizin yadigarı olan, xalqımızın bir sıra inamlarını

özündə yaşadan bu abidə barədə müqəddəs dini kitablarda bəhs edilməsi, "Quran"da ayrıca surənin olması onun daha əvvəllər də tanınmasının sübutudur.

Naxçıvan ən qədim abidələrindən biri də Gəmiqaya qayaüstü rəsmləridir. Eradan əvvəl IV-I minilliyə aid olan bu abidə Azərbaycan xalqının qədim tarixini və mədəniyyətini özündə yaşadır. Qayaüstü rəsmlərlə və simvolik işarələrlə zəngin olan Gəmiqaya abidəsi qədim əcdadlarımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli təsvirlər qalereyasıdır.

Naxçıvan qədim və orta əsr memarlıq abidələri ilə də zəngindir. XII əsrdə qüdrətli Azərbaycan atabəyləri dövlətinin paytaxtı olan Naxçıvan əzəmətli bir şəhər, ölkəmizin siyasi, iqtisadi, mədəniyyət və sənətkarlıq mərkəzlərindən idi. Burada memarlıq sənəti yüksək səviyyəyə çatmış, Azərbaycan memarlığının özünəməxsus orijinal sənət üslubu yaranmışdır. Bu üslub sonralar geniş yayılaraq "Naxçıvan memarlıq məktəbi" adı ilə tariximizə daxil olmuşdur. Bu məktəb bəşəriyyətə Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əmirəddin Məsud Naxçıvani, Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani kimi dahi memarlar, sənətkarlar vermişdir.

Azərbaycanda orta əsr xatirə memarlığının ən geniş yayılmış tipi olan qülləvari türbələrin yaradılmasında naxçıvanlı memarların böyük xidmətləri olmuşdur. Memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin XII əsrin ikinci yarısında Naxçıvanda ucaltdığı Yusif Küseyir oğlu və Mömünə Xatın türbələri orta əsrlər mədəniyyətinin insan xatirəsini monumental ölçülərlə əbədiləşdirən ən uğurlu nümunələridir. Haqlı olaraq bu dövrü monumental sənət yaradıcılığının, Azərbaycan mədəniyyətinin qızıl dövrü adlandırırlar. Əcəmi Naxçıvani öz əsərlərində təkcə bədii təfəkkürün dərinliyini və təkrarolunmazlığını deyil, eləcə də geniş riyazi biliyə əsaslanan mühəndislik dühası göstərmiş, XII əsr Azərbaycan elminin tükənməz imkanlarını nümayış etdirmişdir.

Tədqiqatlar göstərir ki, XII əsrdən başlayaraq Naxçıvanda 3-4 mərtəbəli yaşayış evləri, əsilzadə sarayları, məscidlər, zəngin tərtibatlı hamamlar inşa olunurdu. Buradakı qədim dövrlərə və orta əsrlərə aid yaşayış məskənləri, siklop tikililəri, qalalar, istehkamlar, memarlıq abidələri inşaat materiallarının və tikinti texnikasının zən-

ginliyi ilə diqqəti cəlb edir.

Bu qiymətli abidə və tikililərdə Yusif Küseyr oğlu (1162) və Mömінə Xatın (1186-1187) türbələrini, Gülüstan türbəsini (XII-XIII əsrlər), Qarabağlar memarlıq kompleksini (XIII-XIVəsrlər), Xanəgah (XIII-XV əsrlər), Buzxana (XVI əsr), Xan evi (XVIII əsr), İmamzadə kompleksi (XVIII əsr), Şərq hamamı (XVIII-XIX əsrlər), Zaviyyə mədrəsəsi (XVIII-XIX əsrlər), Cümə məscidi (XIX əsr) və sair tarixi memarlıq abidələrini göstərmək olar.

Qədim Azərbaycanın Naxçıvan ərazisinə gəlmiş Övliyə Çələbi, Tavariye, Şarden, Dübuye de-Monpere, Moryer, Robert Ker Perter kimi Şərq və Avropa tarixçiləri, coğrafiyaşünaslar, səyyahlar, missionerlər bu qədim diyarda tikilmiş abidələr, mədəniyyət ocaqları haqqında qiymətli məlumatlar, xatirələr qoyub getmişlər. Məşhur sənətşünas M.V.Alpanov yazırdı ki, Firdovsi və Nizami kimi Şərqin ölməz klassiklərinin əsərlərində duyduğumuz bəşəri təravəti biz "Naxçıvan abidələrində görürük". Görkəmli türkoloq Murad Acı isə tarixi və mədəni abidələrlə zəngin olan Naxçıvan diyarını "İkinci Altay" adlandırmışdır.

Ötən dövrlərdə tarixi abidlərimizə münasibət birmənalı olmamış, bu abidələr zamanın ağır sınağı qarşısında qalmış, bir qismi dağılıb sıradan çıxmışdır.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi tariximizin canlı nümunəsi olan arxeoloji tapıntılara, abidələrə münasibəti dəyişmiş, onların yad təsirlərdən qorunması, mühafizəsi və bərpası işi diqqət mərkəzində saxlanmışdır.

Möhtərəm Heydər Əliyev tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin təşkil edilməsi Naxçıvan tarixinin və maddi-mədəniyyət nümunələrinin öyrənilməsinə göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Ümummilli liderimiz bu elmi müəssisənin təşkili ilə əlaqədar Naxçıvanda keçirdiyi müşavirədə demişdir: "Naxçıvan ərazisində həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var. Baxmayaraq ki, onlara yüz illərlə heç qayğı da göstərilməyibdir, hətta müxtəlif proseslər zamanı, bəzən müharibələrlə, yaxud da ki, başqa hadisələrlə əlaqədar onların uçurdulması, dağıdılması halları olubdur. Amma bu tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənlərini göstərən abidələrdir.

Lakin bunlar haqqında tarixi mənbələr və toplular varmı? Hesab edirəm ki, yoxdur... Əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənbəyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr bəs bunu kim edəcəkdir? Bax, bütün bu səbəbdən mən Naxçıvan Muxtar Respublikasında Elmlər Akademiyasının bölməsinin yaradılması haqqında qərar qəbul etmişəm".

Ümummilli liderimizin diqqət və qayğısı nəticəsində Naxçıvan abidələri ikinci ömrünü yaşamağa başlamışdır. Mömінə Xatın və Qarabağlar memarlıq kompleksi restavrasiya edilmiş, Əshabi-Kəhf, İmamzadə, Buzxana abidələri, Bazarçay ətrafındakı yeraltı abidə, Şərq hamamı, Yusif Küseyir oğlu türbəsi, Xan evi, Ordubadda Aza körpüsü, qədim Zorxana abidəsi, Culfada Xanəgah kompleksi əsaslı bərpa olunmuşdur. Bundan başqa, daşdan düzəldilmiş qədim qoç heykəllərini qorumaq, bu nadir nümunələri öyrənmək və təbliğ etmək məqsədi ilə Açıq Səma altında muzey yaradılmış, Naxçıvan memarlıq məktəbinin müasir dövrümüzdə ən layiqli davamı olan Hüseyn Cavid məqbərəsi ucaldılmışdır. Gəmiqaya qayaüstü təsvirlərini öyrənmək məqsədi ilə elmi ekspedisiyalar yaradılmış, Naxçıvan abidələrinin sistemli şəkildə öyrənilməsinə başlanmışdır.

Bu abidələri yenidən və əsaslı şəkildə tədqiq etmək, öyrənmək, siyahıya almaq, bərpa etmək və gələcək nəsillərə çatdırmaq məqsədi ilə **qərara alıram:**

1.Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili məqsədilə... komissiya yaradılsın:

2. Komissiya 2006-ci ilin sonunadək tarix və mədəniyyət abidələrinin pasportlaşdırılmasını təmin etsin.

3. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə, şəhər və rayon icra hakimiyyətlərinə tapşırılsın ki, muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunmasını təmin etsinlər.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 06 dekabr 2005-ci il

GÖRKƏMLİ İCTİMAİ XADİM, PUBLİSİST VƏ MAARİFÇİ MƏHƏMMƏDAĞA ŞAHTAXTLININ ANADAN OLMASININ 160 İLLİYİNİN QEYD OLUNMASI VƏ XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

2006-cı ildə Azərbaycanda maarifçiliyin, mətbuatın, dilçilik elminin və ictimai fikrin inkişafında böyük xidmətləri olan Məhəmmədağa Şahtaxtlının anadan olmasının 160 illiyi tamam olur.

1846-cı ildə Şahtaxtı kəndində anadan olan Məhəmmədağa Şahtaxtlı ilk təhsilini Naxçıvan şəhər məktəbində almış, 1863-cü ildə Tiflis klassik kişi gimnaziyasını bitirmişdir. Peterburqda müstəqil yolla alman dilini öyrənən Məhəmmədağa Şahtaxtlı 1869-cu ildə Leypsiq Universitetinin ədəbiyyat, tarix və fəlsəfə fakültəsini bitirdikdən sonra 1873-1875-ci illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb və fars dillərində əsərlər yazan Məhəmmədağa Şahtaxtlı hərtərəfli hazırlığa malik mükəmməl ziyalı kimi yetişib formalaşmışdır.

Məhəmmədağa Şahtaxtlının ilk elmi fəaliyyəti Şərq tarixinə dair tədqiqatlara həsr olunmuşdur. O, bir müddət Parisdə yaşamış, Fransa Kollecində və Ali Təcrübi Təhsil Məktəbində şərq dillərində dərs demiş, Sorbonna Universitetində fonetika sahəsində tədqiqatlar aparmışdır. Onun bu dövrdə fransız dilində nəşr etdirdiyi əsərlər Qərbi Avropada və Amerika mətbuatnda elmi müzakirələrə səbəb olmuş, müəllifinə tədqiqatçı və şərqşünas kimi böyük şöhrət qazandırmışdır. Məhəmmədağa Şahtaxtlı 1899-cu ildə Beynəlxalq Fonetika Cəmiyyətinin, 1900-cü ildə Beynəlxalq Asiya Cəmiyyətinin, 1903-cü ildə isə Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz Şöbəsinin həqiqi üzvü seçilmişdir.

Məhəmmədağa Şahtaxtlının dilçiliklə bağlı elmi fəaliyyətində əlifba islahatı mühüm yer tutur. O, bu sahədə məşhur mütəfəkkir Mirzə Fətəli Axundovun yolunu davam etdirmiş, əlifba islahatı ilə

bağlı ilk dəyərli tədqiqat əsəri olan "Təkmilləşdirilmiş müsəlman əlifbeyi" kitabını 1879-cu ildə Tiflisdə nəşr etdirmişdir. Azərbaycan əlifbasının daha da sadələşdirilməsi, latın qrafikalı əlifbaya keçid sahəsindəki çoxillik səmərəli fəaliyyəti, çap etdirdiyi orijinal əlifba layihələri Məhəmmədağa Şahtaxtlının dilşünaslıq sahəsində görkəmli alim olduğunu göstərir.

Məhəmmədağa Şahtaxtlı mədəniyyətlərin yaxınlaşmasına, Qərb maarifçiliyinin ən yaxşı ənənələrinin Azərbaycana gətirilməsinə çalışmış, xalqımızın maariflənməsi və tərəqqisi yolunda səyini əsirgəməmişdir. O, böyük vətənpərvər kimi mətbuat tariximizdə silinməz izlər qoymuş, "Moskovskiye vedomosti", "Novoye vremya", "Kavkaz", "Rossiya" kimi dövrünün nüfuzlu mətbuat orqanlarında çoxsaylı məqalələr dərc etdirmiş, 1891-1893-cü illərdə "Kaspi" qəzetinin redaktoru olmuşdur. Məhəmməd- ağa Şahtaxtlı 1898-ci ildə Azərbaycan dilində "Tiflis" adlı qəzet çıxarmaq istəmiş, lakin çar senzurası buna icazə verməmişdir. Nəhayət 1902-ci ildə Tiflisdə xüsusi mətbəə açmış, 1903-cü ildə burada "Şərqi-Rus" qəzetinin nəşrinə nail olmuşdur. İyirminci əsrin ilk Azərbaycan qəzeti olan "Şərqi-Rus" qəzeti mətbuat və ictimai fikir tariximizdə mühüm rol oynamışdır. Görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadəni Tiflis ədəbi mühitinə və mətbuat aləminə cəlb etməsi Məhəmmədağa Şahtaxtlının xidmətləri sırasında özünəməxsus əhəmiyyətə malikdir. Onun baş redaktoru olduğu "Şərqi-Rus" qəzeti məşhur "Molla Nəsrəddin" jurnalının sonrakı fəaliyyəti üçün ciddi əsas yaratmışdır.

Məhəmmədağa Şahtaxtlı ictimai xadim və böyük elm təşkilatçısı idi. Göstərdiyi səmərəli ictimai fəaliyyətə görə xalqın dərin etimadını qazanan Məhəmmədağa Şahtaxtlı 1907-ci ildə Naxçıvandan 2-ci Dövlət Dumasına deputat seçilmiş və Dumada Azərbaycan xalqının maraqlarını fəal müdafiə etmişdir. Sonrakı illərdə o, Bakı Dövlət Universitetinin yaradılmasında fəal iştirak etmiş, bu təhsil ocağının ilk professorlarından olmuşdur.

Məhəmmədağa Şahtaxtlının Azərbaycanda ictimai fikrin, maarifçiliyin, mətbuatın və dilçilik elminin inkişafındakı xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Görkəmli ictimai xadim, publisist, maarifçi və dilçi-şərqşü-

nas Məhəmmədağa Şahtaxtlının anadan olmasının 160 illiyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd olunsun.

2. Naxçıvan şəhərindəki Kitab evinə Məhəmmədağa Şahtaxtlının adı verilsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Özəl Universiteti ilə birlikdə Məhəmmədağa Şahtaxtlının anadan olmasının 160 illiyinə həsr olunmuş simpozium keçirtsin.

4. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ümumtəhsil məktəblərində Məhəmmədağa Şahtaxtlının 160 illiyi ilə əlaqədar tədbirlərin keçirilməsini təmin etsin.

5. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi Naxçıvan Muxtar Respublika Ədəbiyyat muzeyində və Cəlil Məmmədquluzadənin ev muzeyində Məhəmmədağa Şahtaxtlının həyat və fəaliyyətini əks etdirən güşə yaratsın.

6. Muxtar respublika elmi-tədqiqat və ali məktəb müəssisələrinin rəhbərləri gənc tədqiqatçılardan Məhəmmədağa Şahtaxtlının elmi-pedaqoji və ədəbi-publisistik irsinin geniş şəkildə araşdırılmasına cəlb etsinlər.

7. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və Naxçıvan Dövlət Universiteti Məhəmmədağa Şahtaxtlının seçilmiş əsərlərini toplayıb, nəşrini həyata keçirtsinlər.

8. Naxçıvan Muxtar Respublikası kütləvi informasiya vasitələrində Məhəmmədağa Şahtaxtlıya həsr olunmuş tematik materialların verilməsi, bu məsələ ilə əlaqədar keçirilən tədbirlərin operativ işıqlandırılması təmin olunsun.

9. "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii və elmi-publisistik jurnalının bir nömrəsi Məhəmmədağa Şahtaxtlıya həsr edilsin.

10. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Şəhər İcra Hakimiyyəti bu sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

11. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 27 fevral 2006-ci il.

NUH PEYĞƏMBƏRİN NAXÇIVAN ŞƏHƏRİNDƏKİ MƏZARÜSTÜ TÜRBƏSİNİN BƏRPA EDİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Qədim, antik və orta əsr şəhər yerləri üzərində yerləşən Naxçıvan Azərbaycanın və dünyanın ən qədim şəhərlərindən biridir. Daş dövründən bu ərazidə ibtidai insanlar yaşamışlar. Naxçıvanda daş dövr mədəniyyətinin izləri Qazma, Kilid, Daşqala mağaralarında, Batabat yaylağında və Kültəpədə qalmaqdadır. Azərbaycanda eneolit (eradan əvvəl V minillik), Kür-Araz (eradan əvvəl IV-III minilliklər) və boyalı qablar (eradan əvvəl XIII-VII əsrlər) mədəniyyətinin əsas ocaqları Naxçıvandadır. Bu, bir daha sübut edir ki, Naxçıvan ərazisində minilliklər boyu insanlar ardıcıl və intensiv həyat sürmüşlər.

Eradan əvvəl V-II minilliklərdə Naxçıvan ərazisindəki tayfaların iqtisadi, ictimai və mədəni həyatında böyük təkamül baş vermiş, iri tayfa ittifaqları meydana çıxmış və ilkin şəhər yaranmışdır. Belə şəhərlərdən biri də Naxçıvandır.

Naxçıvanın meydana gəlməsi haqqında bir sıra yazılı mənbələr mövcuddur. Qədim yunan, latın, ərəb, İran tarixçilərinin, coğrafiyaşünas və səyyahların verdikləri məlumata görə, Naxçıvan eradan əvvəl II minilliyin I yarısında meydana gəlmişdir. Naxçıvan haqqında ilkin məlumat tarixçi İosif Flaviyə (eradan əvvəl I əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. Ptolemey Naxçıvan şəhərinin adını dünyanın 7 böyük şəhəri ilə bir sırada çəkmişdir. İlk orta əsr alban tarixçisi Moisey Xorenski (V əsr) Naxçıvan şəhərinin eradan əvvəl VI əsrdə mövcud olduğunu göstərmişdir. Bəzi qaynaqlarda isə Naxçıvan şəhərinin eradan əvvəl XV əsrdə yaranması fikri söylənmişdir. Orta əsr tarixçisi Stefan Orbelyani Naxçıvan şəhərinin əsasının eradan əvvəl 1539-cu ildə qoyulduğu haqda məlumat vermişdir. Həmin məlumat "Qafqaz" qəzetinin Naxçıvana həsr olunmuş 1882-ci il nömrəsində də öz

təsdiqini tapmışdır. Yazılı mənbələri sistemləşdirərək və Naxçıvan ərazisindən əldə olunan arxeoloji materiallara, məşhur Gəmiqaya qayaüstü yazılarına, buradakı digər abidələrə istinad edərək bu fikrə gəlmək mümkündür ki, Naxçıvan şəhərinin 3500-4000 ildən artıq yaşı vardır.

Şəhər adı kimi "Naxçıvan" ən qədim dövrlərdən mövcuddur. Qədim Yunan mənbələrində "Naksuana", ərəb-fars mənbələrində "Nəxçuvan", "Nəxçəvan", "Nəqşi-cahan" kimi göstərilən bu adın müxtəlif dövrlərdə müxtəlif yozumu olmiş, toponimin yaranmasının əsası kimi "Naxç" türk tayfa, elamların "Nahhunte" Allah adlarına istinad olunmuş, bir sıra tədqiqatçılar isə Naxçıvan toponimini Nuh peyğəmbərin adı ilə bağlamışlar.

Tarixdə "Ümumdünya tufanı" barədə rəvayətin ilk yazılı variantı eramızdan əvvəl II minilliyin ortalarına aid edilən şumer əfsanəsidir. Həmin əfsanədə deyilir ki, ümumdünya daşqınından böyük bir gəmidə yalnız bir qrup insan xilas ola bilmişdir. Bu əfsanəyə görə Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzi olmuşdur. Şumer rəvayətinin Nax- çıvan şəhəri ilə bağlılığının tarixi əsası vardır. Belə ki, Naxçıvan Mesopotamiya, Babil, Xett və digər bu kimi qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqələr şəraitində inkişaf etmişdir. Eramızdan əvvəl II minilliyin ortalarına aid Bilqamıs haqqında akkad eposunda da "bütün canlıların toxumunun götürülüb" Allahın məsləhəti ilə düzəldilən gəmidə xilas olunduğundan danışılır.

İstər şumer, istərsə də Bilqamıs haqqında akkad rəvayətlərinin yarandığı və yazıya alındığı dövrlə Naxçıvanın yarandığı dövr arasında tarixi yaxınlıq olduğunu əsas götürüb, ümumdünya daşqınının Naxçıvan ərazisini də əhatə etdiyini və Nuh peyğəmbərin məhz bu ərazidə quruya salamat çıxdığını güman etmək mümkündür.

Qədim dövrlərdən Naxçıvan əhalisi arasında yayılan rəvayətə görə təxminən 7500 il bundan əvvəl baş vermiş ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin mindiyi gəmi ilk dəfə Naxçıvanda quruya çıxmış və insanlar burada məskən salmışlar. Beləliklə, yeni nəsil buradan törəyərək artmış, təşəkkül tapmışdır. Bir çox əfsanə və rəvayətlərin yaranmasının elmi əsası olduğu artıq təsdiq edilmişdir. Bunu Naxçıvan ərazisində ümumdünya daşqını barədə rəvayətlərin yayılması və Nuhla bağlı yer adlarının çoxluq təşkil et-

məsi bir daha sübut edir. Yer üzündə elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuhla bağlı toponimik vahid (Nuhdaban, Naxçıvan, Nəhəcir, Nehrəm və s.) olsun. Xalq arasında yayılmış və bu gün də mövcud olan inama görə Naxçıvan şəhərinin cənubunda Nuhun, şimal-qərbində isə bacısının qəbri vardır.

XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş maarifçi K.A.Nikitin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı əsərində Nuh tufanının Naxçıvanla əlaqədar olması barədə geniş məlumat verərək yazmışdır: "Rəvayətə görə, əfsanəvi tufandan sonra Ağrı dağı Nuh peyğəmbəri gəmisi ilə birlikdə qəbul etmişdir... Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarının və türbəsinin yerini göstərirlər... Hətta Nuh peyğəmbərin Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. O, burada ilk çalışanlardan biri olmuşdur. Rəvayətə görə, Kəmki əfsanəvi gəminin dayandığı birinci dağdır. Nuh buradan Ağrı dağına yola düşmüşdür. Yolda gəmi İlanlı dağına toxunmuş və dağın zirvəsinə elə zərbə endirmişdir ki, dağ haçalanmışdır.

Bundan sonra Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir. Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışdır. Rəvayətə görə, insan nəsli burdan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və dəfn olunmuşlar". K.A.Nikitin Nuhun Naxçıvandakı qəbrini də görmüş və onu belə təsvir etmişdir: "Nuhun qəbri şəhərin cənub tərəfindən qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi səkkizinci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o, yerdən qalxan çox da böyük olmayan türbəni xatırladır... Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş dirəklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir. Həmin dirəyin altında Nuh peyğəmbərin cənazəsi yerləşir".

Rus tədqiqatçısı V.M.Sısoyev Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri iki metrə çatan səkkizgüşəli sütun olduğunu göstərmişdir. Təsvir edilən bu əlamətlər yeraltı və yerüstü

hissədən ibarət olan türk türbələri üçün xarakterikdir. Nuhun qəbri olan yerdə aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqları burada Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edir.

Araşdırmalar göstərir ki, "ümumdünya tufanı" və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolemey ilk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XVI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin qalıqlarının da Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. İ.M.Dyakonov Gəmiqaya qayaüstü təsvirlərini və Naxçıvanın Nuhla bağlılığı məsələsini şumerlərdən gələn əfsanə ilə əlaqələndirmişdir. Yəhudi alimi İosif Flavi isə Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı K.N.Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş və onun yerini də göstərmişdir. Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində və Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix Muzeyində mühafizə olunaraq nümayiş etdirilir.

Göründüyü kimi, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun qəbri və qəbirüstü türbəsi Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Sovet hakimiyyəti illərində Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə tarixi abidə kimi Nuh peyğəmbərin qəbri üzərindəki türbənin qalıqları da dağıdılmışdır.

Yuxarıda qeyd olunanları əsas götürərək **qərara alıram:**

1.Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi bərpa olunsun.

2.Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdarəsi Nuh peyğəmbərin türbəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə

təqdim etsinlər.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 28 iyun 2006-ci il.

ŞƏRUR RAYONUNDAKI CƏLİLKƏND ORTA MƏKTƏBİNİN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Əsası 1885-ci il sentyabr ayının 20-də qoyulan Şərur rayonundakı Cəlilkənd orta məktəbi Azərbaycanda xalq təhsilinin inkişafına, gənc nəsilin yetişməsinə böyük töhfələr vermiş, şərəfli inkişaf yolu keçmişdir.

XIX əsrin sonlarında Naxçıvanda özünün yüksəliş dövrünü yaşayan maarifçilik hərəkatının yadigarlarından olan Cəlilkənd məktəbi fəaliyyət göstərdiyi bütün dövrlərdə qabaqcıl pedaqoji ənənələri qoruyub saxlamış və inkişaf etdirmişdir. Əhalisinin əksəriyyəti azərbycanlılardan ibarət olan keçmiş İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında ikisinifli zemstvo məktəbi kimi fəaliyyətə başlayan Cəlilkənd məktəbi qabaqcıl təhsil ocaqlarından biri kimi məşhurlaşmış, buraya nəinki Cəlilkənd, eyni zamanda ətraf və digər kəndlərdən də gələrək təhsil almışlar. Cəlilkənd məktəbinin təhsil sahəsində nailiyyətləri barədə həmin dövrdə çap olunan "Obzor Erivanskoy qubernii", "Pamyatnaya kniqa Erivanskoy qubernii" və "Kavkazskiy kalendar" kimi nəşrlərdə ətraflı məlumatlar verilmişdir.

Cəlilkənd məktəbinin ilk nəzarətçi müdiri dövrünün tanınmış ziyalısı, Qori Müəllimlər Seminariyasının məzunu Əliməmməd Xəlilov olmuşdur. Müxtəlif vaxtlarda bu məktəbdə Əbülqasım Sultanov, Məmməd bəy Qazıyev, Fərzəli bəy Fərzəlibəyov, Tağı bəy Səfiyev kimi ömrünü xalq təhsilinə həsr etmiş müəllimlər çalışmışlar. Görkəmli yazıçı-dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin 1887-ci ildə bu məktəbdə çalışması məktəbin həyatında silinməz izlər qoymuşdur. Öz növbəsində buradakı müəllimlik fəaliyyəti də Cəlil Məmmədquluzadəyə təsir göstərmiş, böyük ədib bədii yaradıcılığa bu kənddə başlamış və 1889-cu ildə ilk qələm təcrübəsi olan "Çay dəstgahı" alleqorik dramını yazmışdır.

Ötən əsrin əvvəllərində Cəlilkənd məktəbi beşsinifli rus-tatar

məktəbinə, 1920-ci ildə yeddisinifli natamam orta tədris ocağına çevrilmiş, 1944-cü ildə isə orta məktəb kimi fəaliyyətə başlamışdır. 1957-ci il mart ayının 4-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə məktəbə Cəlil Məmmədquluzadənin adı verilmişdir.

Muxtar respublikada teatr sənətinin inkişafında da Cəlilkənd məktəbinin mühüm rolu olmuş, 1889-cu ildən etibarən bu məktəbdə müəllim və şagirdlərin təşəbbüsü ilə teatr tamaşaları təşkil edilmiş, əldə olunan vəsait kasıb şagirdlərə və məktəbin inkişafına sərf olunmuşdur.

Cəlilkənd məktəbi yarandığı ilk gündən onun yanında kitabxana fəaliyyət göstərmiş, 1901-ci ildə məktəbin kitabxanasında 825 adda 1816 kitab və dərslik olmuşdur.

Ölkəmizin qocaman təhsil müəssisələrindən olan Cəlilkənd məktəbində gənc nəslin təlim-tərbiyəsində mühüm nailiyyətlər qazanılmışdır. Göstərmək kifayətdir ki, məktəbin məzunlarından 50 nəfərə qədəri ömrünü elm sahəsinə həsr etmiş və yüksək elmi dərəcələr almışlar.

Yuxarıda qeyd olunanları əsas götürərək **qərara alıram:**

1. 2006-ci ilin sentyabr ayında Şərur rayonundakı Cəlilkənd orta məktəbinin 120 illik yubileyi keçirilsin.

2. "Şərur rayonundakı Cəlilkənd orta məktəbinin 120 illik yubileyinin keçirilməsi ilə əlaqədar tədbirlərin planı" təsdiq olunsun.

3. Şərur Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi bu sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 10 iyul 2006-cı il.

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA XALQ YARADICILIĞI GÜNLƏRİNİN KEÇİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Hər bir xalqın tarixində xalq yaradıcılığı onun milli-mənəvi dəyərlərinin və dünyagörüşünün, təşəbbüskarlıq və novatorluğunun təzahür formalarından biridir. Tarixi-mədəni və bədii irsimizin daşıyıcısı olan Azərbaycan xalq yaradıcılığı əsrlər boyu formalaşaraq və inkişaf edərək günümüzədək gəlib çatmışdır.

Azərbaycanın qədim Naxçıvan torpağında yayılmış el sənəti nümunələri böyük və zəngin bir tarixi mərhələni, mədəni inkişaf dövrünü əhatə edir. Qədim sivilizasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir.

Xalq yaradıcılığımız öz kökünü ən qədim dövrlərdən götürür. Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar xalq yaradıcılığının mühüm qolu olan el sənətkarlığının 5-7 min illik inkişaf dövrü keçdiyini sübuta yetirir. Qədim xalq sənəti sahələri olan dulusçuluq və daşişləmə Neolit, metalişləmə isə Eneolit dövründən məlum idi. Naxçıvanda əkinçiliyin və maldarlığın intensiv inkişafı sənətkarlığın da inkişafına təsir göstərmiş, mədəni tələbatın artması müxtəlif bəzək əşyalarının düzəldilməsi, hətta əmək alətlərinin, məişət avadanlıqlarının, silahların müəyyən hissələrinin gözəl bədii tərtibatla hazırlanması ilə nəticələnmişdir. Naxçıvan Muxtar Respublikasının indiki və tarixi ərazilərində yaşamış əcdadlarımızın sosial həyat tərzi, dini-ideoloji baxışları, inamları və adət-ənənələri bu dövrün sənətkarlığında öz əksini tapmışdır.

Qədim xalq sənətkarlığının mühüm sahələrindən olan dulusçuluq Naxçıvan ərazisində eradan əvvəl 7-ci – 6-cı minilliklərdə yaranmış, Eneolit dövründən başlayaraq dulus çarxlarında gil qab hazırlanması və xüsusi kürələrdə bişirilməsi geniş yayılmışdır.

Naxçıvan eyni zamanda dünyanın ilk metalişləmə ocaqlarından biri olmuşdur. I Kültəpənin ən qədim mədəni təbəqəsindən müxtəlif mis-mərgümüş, nikel-mərgümüş qatışığı olan alətlər və bəzək nümunələri əldə edilmişdir. Ordubad rayonunun Plovdağ nekropolundan tuncdan hazırlanmış sancaqlar, I Kültəpədən isə tunc dövrünə aid bıçaq və sancaqlar tapılmışdır. Arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar Naxçıvanın qədim sakinlərinin sümükdən və daşdan da əmək və bəzək alətləri hazırladıqlarını göstərir. Sonrakı dövrlərdə sənətkarlıq daha da inkişaf etmiş, xalq sənətinin ağacişləmə, misgərlik, zərgərlik, ipəkçilik, boyaqçılıq, papaqçılıq, dabbaqlıq, dülgərlik, toxuculuq, xüsusilə də xalçaçılıq kimi sahələri genişlənmiş, Naxçıvanın zövqlə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları böyük şöhrət qazanmışdır.

Naxçıvanda toxuculuğun, boyaqçılığın və ipəkçiliyin inkişafı tarixən milli geyim mədəniyyətinin də formalaşmasına şərait yaratmışdır. Milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biridir. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, hər əsrdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir. Xalqın tarixini, etnoqrafik və bədii xüsusiyyətlərini özündə cəmləşdirən milli geyimlər və mətbəx nümunələri bu gün maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi qorunur və inkişaf etdirilir. Təkrarsız milli yaradıcılığımızın nəticəsi olan Azərbaycan geyimlərini muzeylərimizdə, ayrı-ayrı tarixi teatr tamaşalarında və filmlərdə görə bilirik. Müxtəlif folklor ansamblı və qrupları da bu gün milli geyimlərimizi yaşadır və təbliğ edirlər.

Xalq yaradıcılığının ən qədim sahələrindən biri də şifahi poetik yaradıcılıq kimi dəyərləndirilən folklordur. Azərbaycan ərazisində folklorun tarixi ilk insan məskənlərinin meydana gəlməsi dövrü ilə bağlıdır. Xalqımızın həyatında elə bir əhəmiyyətli hadisə yoxdur ki, o, şifahi yaradıcılıqda, aşıq poeziyasında, xalq musiqisində bu və ya digər şəkildə öz əksini tapmasın. Dünyanın qədim və mədəni xalqlarından olan Azərbaycan xalqı ən qədim dövrlərdən başlayaraq xalq yaradıcılığında öz tarixini bu və ya digər şəkildə əks etdirmişdir. Xalqımızın mifoloji-bədii dünyagörüşünün izləri indi də folklorda özünü bürüzə verməkdədir. Müxtəlif ayin, mərasim və

əmək proseslərinin nəticəsi olaraq meydana gələn Azərbaycan folkloru ilk növbədə janr baxımından rəngarəngliyi ilə diqqəti cəlb edir. Xalqımızın yaradıcı düşüncəsinin məhsulu olan miflər, əfsanələr, nağıl və rəvayətlər, zərb-məsəllər, tapmacalar, dastanlar, aşıq yaradıcılığı, meydan tamaşaları, xalq musiqi və rəqsləri nəsildən-nəsilə, əsrdən-əsrə Azərbaycan türklərinin ruhunu yaşadaraq zəmanəmizə qədər gətirib çıxartmışdır.

Ənənəvi xalq bayramları, Novruz və Xıdır Nəbi mərasimləri Azərbaycan folklorunun zənginliyini nümayiş etdirir. Yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin ən qədim qaynaq- ları eramızdan əvvəl 4-cü – 1-ci minilliklərə aid Gəmiqaya təsvirlərində, "Avesta" və "Kitabi Dədə Qorqud" kimi qədim qaynaqlarda öz əksini tapmışdır. Dünyanın ən qədim kollektiv ifa növlərindən olan Azərbaycan xalq yallıları xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirən nadir yaradıcılıq nümunəsidir.

Qədim rəqs və musiqi mədəniyyəti ilə sıx bağlı olan, vaxtilə geniş yayılmış qədim çalğı alətlərimizin bu gün geniş təbliğinə və gənc nəslə, elecə də beynəlxalq ictimaiyyətə tanıdılmasına ciddi ehtiyac vardır. Cəng, ud, təbil, tənbur, qanun, qopuz, rübab, tulum, kərənay, ney, zurna, balaban kimi çalğı alətlərimizin adlarına musiqi tarixinə dair mənbələrdə, "Kitabi Dədə Qorqud", "Koroğlu" dastanlarında, eləcə də klassik şairlərimizin əsərlərində rast gəlinir. Qədim çalğı alətlərinin bir çoxu bərpa olunmuş və yenidən musiqi alətləri sırasına daxil edilmişdir.

Xalqımızın müstəqillik yoluna qədəm qoyduğu indiki şəraitdə xalq yaradıcılığının, əsrlər boyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığının inkişafı və qorunub saxlanması istiqamətində bir sıra işlər görülmüş, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilmiş, onlar milli geyim dəstləri ilə təmin olunmuşlar. Hal-hazırda muxtar respublikada mövcud olan 50 folklor kollektivinin 600-ə yaxın üzvü

xalq yaradıcılığının bu və ya digər sahələrini qoruyub yaşatmaqdadır.

Xalqların, ölkələrin bir-birinə daha çox inteqrasiya olunduğu, dərin qloballaşma proseslərinin getdiyi indiki şəraitdə azərbaycanlıların milli kimlik pasportu olan xalq yaradıcılığının qorunub saxlanması və inkişaf etdirilməsi, xalq sənəti nümunələrinin, milli mətbəxin, folklorun, milli rəqs və mahnı sənətinin daha geniş, sistemli şəkildə təbliğ olunması, böyüməkdə olan gənc nəslə milli-mənəvi dəyərlərin aşılanması məqsədi ilə **qərara alıram:**

1. "Novruz bayramı" şənliklərində Xalq yaradıcılığı günləri keçirilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi:

2.1. Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan etnoqrafik və folklor materiallarının yenidən toplanması, sistemləşdirilməsi və elmi tədqiqatlara cəlb olunması üçün tədbirlər görülsün, əldə olunmuş materiallar əsasında "Naxçıvan folkloru antologiyası"nı hazırlayıb nəşr etdirsin;

2.2. Naxçıvan folkloru atlasını işləyib hazırlasın;

2.3. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə xalq yaradıcılığı nümunələrinin sistemli şəkildə təbliği üçün təsirli tədbirlər görsün;

3. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatı xalq mahnı və rəqslərinin, Naxçıvanla bağlı saz havalarının tədqiqinə və təbliğinə, qədim çalğı alətlərinin tətbiqinə diqqəti artırsınlar.

4. Muxtar respublikada mövcud olan xalq teatrlarının və folklor ansambllarının fəaliyyətinə hərtərəfli köməklik göstərilsin.

5. Bu sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 07 fevral 2009-cu il.

"NUH PEYĞƏMBƏR: DÜNYA TUFANI VƏ NAXÇIVAN" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN KEÇİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridir. Şərur rayonundakı Qazma, Orubad rayonundakı Kilid, Babək rayonundakı Daşqala və Naxçıvan şəhəri ərazisindəki Duzdağ mağaralarından əldə olunmuş maddi-mədəniyyət nümunələri, Əshabi-Kəhf ziyarətgahı ən qədim dövrlərdən burada insanların yaşadığını sübut edir.

Naxçıvanın qədimliyini sübut edən mühüm amillərdən biri də bu yurdun Nuh peyğəmbər və tərafdarları ilə bağlı olmasıdır. Ordubad rayonu ərazisində olan və eradan əvvəl 4-1-ci minilliyə aid edilən Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik, Peyğəmbərayağı kimi yer adlarının mövcudluğu Nuh peyğəbərin bu torpaqda yaşamasının daha bir əyani ifadəsidir.

Son vaxtlar Nuh peyğəmbər, Dünya tufanı və bunların Naxçıvanla əlaqəsi ciddi aktuallıq kəsb etmiş, bir sıra araşdırmalar aparılmış, Gəmiqaya abidəsi kompleks şəkildə öyrənilmiş, tarix və mədəniyyət abidələri yenidən elmi tədqiqata cəlb olunaraq pasportlaşdırılmış, qeyd olunanlarla bağlı 20-dək kitab və monoqrafiya, 120-dən çox elmi məqalə çap olunmuş, "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq nəşr edilmişdir. Bundan əlavə Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin yeri dəqiqləşdirilmiş, abidənin qalıqları aşkar edilmiş və həmin abidə yenidən bərpa olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq **qərara alıram:**

1. 2009-cu ilin aprel ayında Naxçıvan şəhərində "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpozium keçirilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri Vasif TALIBOV

Naxçıvan şəhəri, 10 fevral 2009-cu il.

ŞAHTAXTİNSKİLƏR MUZEYİNİN YARADILMASI HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, parlamentarizmin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında Şahtaxtinskilərin xüsusi yeri və böyük xidmətləri vardır. Bakıxanovlar, Naxçıvanskilər kimi, Şahtaxtinskilərin də tarixi yalnız ayrılıqda götürülmüş bir sülalənin deyil, ölkə həyatının mühüm sahələrinin inkişaf tarixi kimi nəzərdən keçirilməkdədir. Bu məşhur sülalə son iki əsr ərzində Azərbaycan elmi və ictimai-siyasi mühitinə tanınmış dövlət xadimi və diplomat, beynəlxalq Moskva və Qars müqavilələrinin bağlanmasında müstəsna xidmətlər göstərmiş Behbud ağa Əliağa oğlu Şahtaxtinski, görkəmli Azərbaycan publisisti, maarifçi, şərqşünas, dilçi, əlifba islahatçısı, ictimai xadim, 2-ci Dövlət Dumasının deputatı olmuş Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtinksi, ziyalı, hərbçi, Çar Rusiyası ordusunun polkovniki olmuş Əbülfət Nəcəfqulu oğlu Şahtaxtinski, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, Azərbaycan parlamentinin ilk üzvlərindən olmuş Həmid ağa Xəlil oğlu Şahtaxtinski, alimlik dərəcəsi almış (1875-ci il) ziyalı, jurnalist və ictimai xadim İsa Sultan Nəcəfqulu oğlu Şahtaxtinski kimi şəxsiyyətlər bəxş etmişdir.

Fəaliyyət göstərdikləri bütün dövrlərdə Şahtaxtinskilər fədakarlıq göstərmiş, Azərbaycanın xoşbəxt gələcəyi uğrunda mərd mübarizlər olmuşlar. Şahtaxtinskilərin Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, parlamentarizmin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında müstəsna xidmətlərini, həyat və fəaliyyətləri ilə bağlı tədqiqat işlərinin aparılması vacibliyini, onların keçdikləri şərəfli yolu, vətənpərvərlik tərbiyəsində böyük təsir gücünə malik olmasını əsas götürərək **qərara alıram:**

1. Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər muzeyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Mə-

dəniyyət və Turizm Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 9 fevral 2010-cu il.

«XAN SARAYI» DÖVLƏT TARİX-MEMARLIQ MUZEYİNİN YARADILMASI HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycan ərazisində 1747-ci ildən yaranmış 18 feodal dövlətdən biri olan Naxçıvan xanlığı milli dövlətçilik tariximizdə mühüm mərhələ təşkil etmiş, bölgənin inkişafında, müdafiə qabiliyyətinin gücləndirilməsində, sərhədlərin qorunub saxlanmasında və inzibati idarəçiliyin formalaşmasında vacib tarixi missiyanı yerinə yetirmişdir. İnzibati ərazi baxımından 2 dairədən və 9 mahaldan ibarət olan Naxçıvan xanlığı Zəngəzur dağlarından başlayaraq Araz çayı vadisinə qədər 9429 kvadratkilometr ərazini əhatə edirdi.

Öz ərazisi, qoşunu, dövlət rəmzləri – bayrağı və gerbi olan Naxçıvan xanlığında bitkin idarəçilik mexanizmləri formalaşmış, iqtisadiyyatın əsas sahələri inkişaf etmiş, geniş abadlıq-quruculuq işləri aparılmışdır. Bu xanlıqda Heydərqulu xan, Nəzərəli xan, Kərim xan, Ehsan xan kimi nüfuzlu dövlət və hərb xadimləri yetişmiş, 30 il Naxçıvan xanlığının rəhbəri olan Kalbalı xan mahir dövlət xadimi və diplomat kimi tarixə düşmüşdür.

80 ildən artıq bir dövr ərzində fəaliyyət göstərən Naxçıvan xanlığı milli dövlətçilik tariximizdə silinməz izlər qoymuşdur. Naxçıvan xanlığının siyasi tariximizdə oynadığı mühüm rolu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir: «Azərbaycanın xanlıqlara bölünən dövründə... Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar».

Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyini nəzərə alaraq **qərara alıram:**

1. «Xan Sarayı» Dövlət Tarix-Memarlıq Muzeyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn

məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 23 oktyabr 2010-cu il.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN NAXÇIVANŞÜNASLIQ MƏRKƏZİNİN YARADILMASI HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanın Naxçıvan Muxtar Respublikası böyük bir tarixi keçmişə malikdir. Lakin bu tarix Sovetlər Birliyi dövründə lazımi səviyyədə öyrənilməmiş, bir sıra ciddi elmi-nəzəri səhvlərə yol verilmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyi dövründə xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və adət-ənənələrinin, milli-mənəvi dəyərlər sisteminin elmi dəlil və konkret faktlar əsasında yenidən araşdırılmasına başlanmışdır.

Həmin elmi araşdırmalar sayəsində Naxçıvanın tarixi və abidələri, arxeologiya və etnoqrafiyası, ədəbi mühiti və mədəniyyəti, təbii sərvətləri və biomühiti ciddi tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və nəticələr əldə olunmuşdur.

Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublika ərazisində 792 yeni tarixi abidə tapılaraq tədqiq olunmuş, ümumilikdə 1172 tarix və mədəniyyət abidəsi pasportlaşdırılaraq dövrü və tipoloji mənsubiyyəti müəyyənləşdirilmiş, 46 tarixi abidə bərpa olunmuş, tarix və mədəniyyət abidələrinin mühafizəsi təmin edilmişdir.

Bununla yanaşı, uzun müddət öyrənilməsinə qadağa qoyulmuş Nuh peyğəmbər və Naxçıvan bağlılığı yenidən elmi tədqiqatların gündəliyinə çıxarılmış, Ordubad rayonu ərazisində olan və eradan əvvəl IV minilliyə aid edilən Gəmiqaya abidəsi, buradakı daşüstü yazılar öyrənilmiş, Naxçıvan şəhəri ərazisində Nuh peyğəmbərin qəbrinin yeri müəyyənləşdirilərək qədim mənbələr əsasında bərpa olunmuş, Naxçıvanın ilkin şəhər mədəniyyətinin öyrənilməsində mühüm amil olan Naxçıvan yaxınlığındakı Duzdağın və ona bitişik ərazilərin tarixi və arxeoloji istiqamətdə öyrənilməsinə başlanmış, əldə olunan nəticələr əsasında Naxçıvanın 5 min illik ilkin

şəhər mədəniyyəti elmi dövriyəyə daxil edilmişdir.

Təşkil olunan elmi ekspedisiyalar, aparılan arxeoloji tədqiqatlar Naxçıvanşünaslığın digər istiqamətlərinin də öyrənilməsinə ciddi əsas yaratmış, Naxçıvanın tarixi, mədəniyyəti, toponimikası, azərbaycanlıların soyqırımı və deportasiyası, maarifçilik hərəkatının və təbii ehtiyatların öyrənilməsi ilə bağlı 50-dən artıq simpozium və konfrans keçirilmiş, Naxçıvanşünaslığa aid 700-dən çox monoqrafiya, kitab, elmi məqalə, dərslik və dərs vəsaiti nəşr olunmuş, Naxçıvan Muxtar Respublika Kitabxanasında "Naxçıvanşünaslıq" bölməsi təşkil edilmiş, geniş məlumat bazasına malik "Nakhchivan.az" internet portalı yaradılmışdır.

Azərbaycan alimlərinin diqqətini Naxçıvanın müasir elmi yanaşma baxımından öyrənilməsi vacibliyinə cəlb edən ümummilli lider Heydər Əliyev deyirdi: "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Bizim əsas məqsədimiz Naxçıvanın tarixini hərtərəfli öyrənmək, tədqiq etmək, onları elmi və populyar kitablarda dərc etmək, təbliğat materiallarında istifadə etməkdir".

Yuxarıda qeyd olunanları nəzərə alaraq, habelə Naxçıvana həsr olunmuş çoxlu sayda kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanması, tədqiq və təbliğ olunması məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi kitabxanasının və Naxçıvan Muxtar Respublika Kitabxanası "Naxçıvanşünaslıq" bölməsinin bazasında Naxçıvanşünaslıq Mərkəzi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin Əsasnaməsi təsdiq edilsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 17 fevral 2011-ci il.

GÖRKƏMLİ DÖVLƏT XADİMİ VƏ DİPLOMAT BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN 130 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

2011-ci ildə Azərbaycanın görkəmli dövlət xadimi və diplomat Behbud ağa Əliağa oğlu Şahtaxtinskinin anadan olmasının 130 illiyi tamam olur.

Azərbaycanın ictimai-siyasi həyatında, diplomatiya və dövlətçilik tarixində özünəməxsus yeri və rolu olan Behbud ağa Şahtaxtinski gənc yaşlarından ictimai fəaliyyətə başlamış, 1905-1907-ci illərdə Bakıda kontor qulluqçuları ittifaqının yaradılmasında və fəaliyyətində iştirak etmişdir. İctimai-siyasi baxışları XX əsrin əvvəllərində Azərbaycan mühitində cərəyan edən proseslərin, eyni zamanda mürəkkəb tarixi şəraitin təsiri altında formalaşan Behbud ağa Şahtaxtinski bir müddət jurnalist və publisist kimi fəaliyyət göstərmiş, mətbuatda xalqı narahat edən problemlərə toxunmuş, onların ictimai müzakirəsinə nail olmağa çalışmışdır.

Azərbaycanda sovet quruluşu formalaşandan sonra hökumət sədrinin müavini, xalq ədliyyə komissarı, Naxçıvan Xalq Komissarları Sovetinin sədri, Azərbaycan Xalq Fəhlə-Kəndli Müfəttişliyinin komissarı olan Behbud ağa Şahtaxtinski hansı vəzifədə işləməsindən asılı olmayaraq öz prinsiplərinə sadiq qalmış, milli mənafelər uğrunda çalışmış, Azərbaycanın taleyi ilə bağlı məsələlərdə əsl vətənpərvərlik mövqeyi nümayiş etdirmişdir.

Bu mövqe Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyətində də özünü qabarıq şəkildə göstərir. Azərbaycanın düşdüyü mürəkkəb geosiyasi şərait, onun maraqlarının qorunmasının vacibliyi Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyətini şərtləndirən mühüm amil olmuşdur.

1918-1921-ci illərdə ermənilərin Azərbaycana, o cümlədən Naxçıvana dair əsassız ərazi iddialarının aradan qaldırılmasına çalışan Behbud ağa Şahtaxtinski Rusiya hökumətinin rəhbərliyinə

ünvanladığı məktubda Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ mahallarının gələcəyi ilə bağlı narahatlığını ifadə etmiş, Naxçıvan bölgəsinə aid konkret təkliflər vermişdir. Uzun sürən müzakirələrdən sonra bu təkliflər nəzərə alınmış, Rusiya ilə Türkiyə arasında Moskvada aparılan danışıqlarda Azərbaycanın səlahiyyətli nümayəndəsi kimi iştirak edən Behbud ağa Şahtaxtincki 1921-ci ilin martında Moskva və həmin ilin oktyabrında imzalanmış Qars müqavilələrində Naxçıvanın muxtariyyət statusunun həllinə nail olmuşdur. O zaman Naxçıvanın muxtariyyət statusunun ilk dəfə beynəlxalq müqavilədə təsbit olunması Behbud ağa Şahtaxtinskinin diplomatik və Azərbaycan dövlətçiliyinə sədaqətli xidmətinin nailiyyəti idi.

Behbud ağa Şahtaxtinskinin xalqımız qarşısında xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd olunsun.

2. "Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 21 fevral 2011-ci il.

«NAXÇIVAN: İLK YAŞAYIŞ VƏ ŞƏHƏRSALMA YERİ KİMİ» MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN KEÇİRİLMƏSİ HAQQINDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanın bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarı ən qədim mədəniyyət mərkəzlərindən və insanların ilkin məskunlaşdığı ərazilərdən biridir. Əlverişli iqlim şəraiti, gözəl təbiəti, əkin üçün yararlı torpaqları, həmçinin əhəmiyyətli coğrafi mövqedə yerləşməsi insanların Naxçıvan ərazisində məskunlaşmasına şərait yaratmışdır. Bu ərazidəki Qazma, Kilit, Daşqala, Ərməmməd mağaralarında yaşayan ibtidai insanlar Neolit dövründən başlayaraq I Kültəpə (VII-I minilliklər), Sədərək (VII-III minilliklər), Ovçulartəpəsi (V-III minilliklər), Xələc (V-III minilliklər), Duzdağ (V-III minilliklər), Şahtaxtı (III-I minilliklər), Nəhəcir (III-I minilliklər) kimi yaşayış yerləri salmışlar. Eramızdan əvvəl IV-I minilliklərə aid olan Gəmiqaya abidəsi, həmçinin III-I minilliklərə aid Əshabi-Kəhf dini və tarixi memarlıq kompleksi bu ərazinin ilkin məskunlaşma, eləcə də zəngin mədəniyyət mərkəzlərindən biri kimi əhəmiyyətini daha da artırır. Təsadüfi deyil ki, ilkin şəhər mədəniyyəti də məhz bu ərazidə meydana gəlmiş, bölgənin ən iri yaşayış məskəni olan Naxçıvan 5 min il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır. Naxçıvan Duzdağında (eramızdan əvvəl V-III minilliklər) şəhər mədəniyyətinin vacib elementləri olan emal mədəniyyəti və alətləri yaranmış, sənətkarlıq və ticarət inkişaf etmişdir.

İlkin yaşayış və şəhər mədəniyyətinin inkişaf etdiyi yer kimi Naxçıvan tarixinin öyrənilməsi, tədqiq və təbliğ olunması məqsədi ilə **qarara alıram:**

1. 2011-ci ilin iyul ayında Naxçıvan şəhərində «Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi» mövzusunda beynəlxalq simpozium keçirilsin.

2. İlk yaşayış yeri və ilkin şəhər mədəniyyətinin yarandığı ərazi kimi Naxçıvan tarixinin sistemli şəkildə öyrənilməsi, eləcə də

beynəlxalq simpoziuma hazırlıq məqsədi ilə Tədbirlər Planı təsdiq edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 7 iyun 2011-ci il.

KİTABIN İÇİNDƏKİLƏR

GİRİŞ.....25

I FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ-SİYASİ HƏYATI

1.1.Dağlıq Qarabağ hadisəsi və bunun Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyətə təsiri..... 27

1.2.«Sərhəd hərəkatı»..... 28

1.3.Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması..... 32

1.4.Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi.....34

1.5.Naxçıvanda dövlətçilik ənənələrinin bərpası.....35

1.6.Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi.....38

1.7.Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər.....40

1.8.Erməni yaraqlılarının Naxçıvana hücumları.....42

1.9.Milli Ordunun formalaşması Naxçıvandan başladı.....46

1.10.Blokadanın aradan qaldırılması uğrunda mübarizə.....48

1.11.Naxçıvanda dövlət çevrilişinə cəhd.....53

1.12.Naxçıvanın muxtariyyət statusunun ləğv edilməsinə cəhd.....56

1.13.Heydər Əliyevin rəhbərliyi ilə yeni Azərbaycan Partiyasının yaranması.....58

1.14.Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi.....59

1.15.Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi.....62
1.16.Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd edilməsi.....70
1.17.Azərbaycan Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfərləri.....73
1.18.Naxçıvan Muxtar Respublikasının 80 və 85 illiyinin qeyd edilməsi. Prezident İlham Əliyevin Naxçıvana səfərləri.....77
II FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI
2.1.Sosial-iqtisadi inkişafın səciyyəsi.....109
2.2.Sənayenin inkişafı. Yeni sənaye sahələrinin yaradılması.....112
2.3.Tikinti-quruculuq və abadlıq işləri.....114
2.4.Kənd təsərrüfatının inkişafı.....118
2.5.Nəqliyyat və rabitə sahəsində baş verən dəyişikliklər.....123
2.6.Elektroenergetikanın yenidən qurulması və inkişafı.....125
2.7.Əhalinin qazla təmin edilməsi.....127
2.8.Əhalinin sosial müdafiəsinin təmin edilməsi.....129
2.9.Ekologiya və yaşıllaşdırma tədbirləri.....131
III FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MƏDƏNİ İNKİŞAFI
3.1.Təhsil sahəsindəki dəyişikliklər.....159
3.2.Elmin inkişafı.....166

3.3.Səhiyyə müəssisələrinin yenidən qurulması.....171
3.4.Mədəni-maarif müəssisələrinin inkişafı.....175
3.5.Gənclər və idman siyasəti.....179
NƏTİCƏ.....185
ƏDƏBİYYAT.....187
ƏLAVƏLƏR.....225

İSMAYIL HACIYEV
(İsmayıl Muxtar oğlu Hacıyev)

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı

(1991-2010-cu illər)

Yığılmağa verilmiş 14.06.2011.
Çapa imzalanmış 25.08.2011.
Formatı 60X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Tgbaşirli kağız. Həcmi 17,0 ç.v.
Sifariş № 1056. Tiraj 1000 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.